

"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

## Kosmik sənayenin inkişafı Azərbaycana yeni uğurlar gətirir




9


# SƏS

№ 189 (7114)

15 oktyabr 2024-cü il.
Qiymәti 60 qәpik


# Bütöv və suveren Azərbaycanın 21 illik tarixi reallıqları



4

*Prezident İlham Əliyev: "Bu gün heç kimdən asılı olmayan Azərbaycan inamla, uğurla inkişaf edir, öz xarici siyasətini də buna uyğun şəkildə aparır"*

# Regional qarşıdurmalara rəvac verən PROVOKASİYALAR




5

## Görünməz qəhrəmanlar: kənd qadınları




7

## "Azərbaycan MDB-nin bütün strukturlarında ən fəal iştirak edən ölkələrdəndir"



8

## Qvardiola bu futbolçunu istəyir - 150 milyon təklif edirlər




16

## Anatomiya ilə tərs mütənasib GÖZƏLLİK...



12

## Gürcüstanın taleyi həll olunur



13

# Etimad və etibar nümunəsi – Azərbaycan!

*Prezident İlham Əliyev Estoniyanın, Belçika Krallığının, Qətər Dövlətinin, habelə Benin Respublikasının və Danimarkanın Azərbaycanda yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfirlərinin etimadnamələrini qəbul edib*



***Prezidenti İlham Əliyev oktyabrın 14-də Estoniya Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Vayno Reynartın etimadnaməsini qəbul edib. Səfir etimadnaməsini dövlətimizin başçısına təqdim etdi.***



Prezident İlham Əliyev səfirlə söhbət etdi.

Dövlətimizin başçısı ikitərəfli münasibətlərin gündəliyinin genişləndirilməsi, ticarət, iqtisadiyyat, investisiya sahələrində və digər sahələrdə əməkdaşlığın inkişaf etdirilməsi ilə bağlı yeni imkanların müəyyənləşdirilməsinin önəmini qeyd etdi, bunun üçün yaxşı imkanların olduğunu dedi.

Azərbaycana səfir təyin olunmasından şərəf duyduğunu bildirən Vayno Reynart Bakıya budəfəki gəlişi zamanı paytaxtda gedən inkişaf proseslərinin onda dərin təəssürat hissi yaratdığını dedi. O qeyd etdi ki, həm ikitərəfli formatda, həm də beynəlxalq təşkilatlar çərçivəsində Estoniya ölkəmizlə əlaqələrə önəm verir.

Səfir vurğuladı ki, Estoniya Azərbaycanın Ermənistanla sülh müqaviləsinə nail olunması istiqamətində səylərini məmnunluqla izləyir və bununla bağlı beynəlxalq səviyyədə göstərilən səyləri də dəstəkləyir.

İkitərəfli əlaqələrə toxunan Vayno Reynart əməkdaşlığımızın dərinləşdirilməsi baxımından böyük imkanların olduğunu dedi, xüsusilə iqtisadi sahədə əlaqələrin inkişaf edəcəyinə ümidvarlığını bildirdi.

Qarşılıqlı səfərlərin əhəmiyyətinə toxunan dövlətimizin başçısı özünün Estoniyaya, Estoniya Prezidentinin isə Azərbaycana səfərinin əlaqələrimizin inkişafında rolunu vurğuladı.

Siyasi sahədə münasibətləri qeyd edən dövlətimizin başçısı həm ikitərəfli, həm də Avropa İttifaqı və digər beynəlxalq institutlar çərçivəsində əlaqələrimizin inkişafı ilə bağlı məsələlərin müzakirə edilməsinin vacibliyini vurğuladı. Azərbaycan-Ermənistan sülh prosesinə toxunan dövlətimizin başçısı qeyd etdi ki, ölkəmiz bu prosesin təşəbbüskarı olub və sülh müqaviləsinin baza prinsiplərini irəli sürüb. Bu istiqamətdə fəal işin getdiyini bildirən Azərbaycan Prezidenti sülh müqaviləsinin bütün müddəaları üzrə razılaşmaların əldə olunmasının vacibliyini bildirdi, regional sabitliyə xidmət etməsi baxımından bu müqavilənin hər bir müddəasının önəminə toxundu.

Azərbaycan Prezidenti İlham Əliyev oktyabrın 14-də Belçika Krallığının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Julyen de Freponun etimadnaməsini qəbul edib. Səfir etimadnaməsini dövlətimizin başçısına təqdim etdi.

Prezident İlham Əliyev səfirlə söhbət etdi. Dövlətimizin başçısı ikitərəfli münasibətlərimizin inkişaf edəcəyinə ümidvar olduğunu bildirərək, səfirə fəaliyyətində uğurlar arzuladı. Azərbaycanda səfir kimi fəaliyyət göstərməsindən şərəf hissi duyduğunu deyən Julyen de Frepon fəaliyyəti dövründə ikitərəfli münasibətlərin müxtəlif, o cümlədən iqtisadi və siyasi sahələrdə inkişaf etdirilməsi üçün səylərini əsirgəməyəcəyini dedi.

Azərbaycanda COP29-un keçirilməsi münasibətilə təbriklərini çatdıran səfir bu tədbiri iqlim dəyişmələri ilə bağlı qlobal çağırış kimi dəyərləndirdi.

O, eyni zamanda, Belçikanın bu tədbirdə yüksək səviyyədə təmsil olunacağını bildirdi. Səfir COP29-un enerji keçidi və iqlim dəyişmələri ilə bağlı fəaliyyət göstərən Belçika şirkətlərinin öz imkanlarını və yaşıl enerji sahəsində əldə etdiyi nailiyyətləri nümayiş etdirmək üçün də bir fürsət olacağını vurğuladı.

Regional sabitliyin Belçika üçün də böyük önəm daşıdığını deyən diplomat Azərbaycanın Ukraynaya göstərdiyi humanitar yardımın ölkəsi tərəfindən yüksək qiymətləndirildiyini bildirdi. O, Ermənistan-Azərbaycan münasibətləri ilə də bağlı regional sabitlikdə Belçikanın maraqlı olduğunu dedi. Ermənistan-Azərbaycan münasibətlərinin normallaşdırılması üzrə son dövrlərdəki irəliləyişi qeyd edən səfir bu istiqamətdə atılan addımları Belçikanın təşviq etdiyini söylədi. O, eyni zamanda, Azərbaycanın üzləşdiyi mina çağırışları məsələsində də Belçikanın ölkəmizə, həmçinin ANAMA-nın fəaliyyətinə göstərdiyi dəstəyini bundan sonra da davam etdirəcəyini vurğuladı.

Belçikanın Avropa İttifaqının əsasını qoyan üzv dövlətlərdən biri olduğunu deyən Julyen de Frepon ölkəsinin Azərbaycan ilə Avropa İttifaqı arasında enerji keçidi, iqlim dəyişmələri, iqtisadiyyat və ticarət sahələrində əməkdaşlıqda maraqlı olduğunu bildirdi.

Dövlətimizin başçısı ikitərəfli münasibətlərin inkişafı üçün yaxşı potensialın mövcudluğunu qeyd edərək iki ölkənin xarici işlər nazirləri arasında keçirilən görüşlərin əməkdaşlığın gündəliyi məsələsinin müzakirəsi üçün faydalı olduğunu dedi.

Prezident İlham Əliyev COP29-a hazırlıq işlərinin yekun mərhələdə olduğunu bildirdi. Hazırlıq işlərinə bir ildən az vaxt olduğunu deyən dövlətimizin başçısı COP-öncəsi tədbirinin bu işlərin uğurla həyata keçirilməsini nümayiş etdirdiyini vurğuladı. Prezident İlham Əliyev növbəti ildə Azərbaycanın COP-a sədrliyi dövründə də dünyanın müxtəlif bölgələri arasında körpü rolu oynamaq əzmində olduğunu dedi. Dövlətimizin başçısı, eyni zamanda, yaşıl enerjiyə keçidin də bizim geniş gündəliyimizdə duran mühüm məsələ olduğunu bildirdi. Prezident İlham Əliyev qeyd etdi ki, planlaşdırdığımız layihələrin artıq bir hissəsinin həyata keçirildiyini nəzərə alsaq, qarşıdakı illərdə enerji sektorumuzda bərpaolunan enerjinin payı əhəmiyyətli dərəcədə artacaq və biz bu sahədə Belçika şirkətləri ilə əməkdaşlıq etməyə hazırıq.



Azərbaycan-Avropa İttifaqı əlaqələrinə toxunan Prezident İlham Əliyev qeyd etdi ki, Brüssel Ermənistanla Azərbaycan arasında Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelin dəstəyi ilə danışıqların uğurla keçirildiyi bir məkan olmuşdur və həqiqətən orada mühüm irəliləyişə nail olunmuşdur. Lakin əfsuslar olsun ki, Ermənistan tərəfi Brüssel prosesi adlanan bu prosesi davam etdirməmək qərarına gəldi. Ancaq hər bir halda bu, çox yaxşı nəticə və təcrübə verən müsbət proses idi.

Prezident İlham Əliyev qeyd etdi ki, hazırkı şəraitdə daha çox diqqət ikitərəfli müstəviyə cəmlənib. Dövlətimizin başçısı vurğuladı ki, sülh müqaviləsinin bütün bəndləri eyni dəyərə malikdir, birini digərindən ayırmaq olmaz. Prezident İlham Əliyev bu baxımdan Ermənistan hökumətinin "bu vaxtadək nə barədə razılaşdırılıbsa, ona imza atılsın, razılaşdırılmamış müddəalar növbəti mərhələlərə saxlanılsın" qəribə təklifini tamamilə reallıqdan kənar hesab etdiyini bildirdi və bu cür yanaşma presedentinin ona məlum olmadığını vurğuladı.

Dövlətimizin başçısı qeyd etdi ki, torpaqlarımızın işğalı dövründə dırnaqarası "Madrid prosesi prinsipləri" mövcud idi və bunun qarşılıqlı razılaşdırılmış əsas müddəalarından biri də o idi ki, bütün məsələlər razılaşdırılmadan heç nə razılaşdırıla bilməz. Bu, ozamankı ATƏT-in Minsk qrupu həmsədrlərinin, Ermənistanın və Azərbaycanın mövqeyi idi və biz bu mövqedə qalırıq. Əfsuslar olsun ki, keçmiş Minsk qrupunun bəzi üzvləri bununla bağlı öz mövqelərini dəyişdirdilər və Ermənistanın indiki qeyri-real təklifini dəstəkləyirlər. Prezident İlham Əliyev bildirdi ki, bir çox hallarda Ermənistan tərəfi bu təklifləri irəli sürməklə guya sülh istəyində olduqlarını nümayiş etdirirlər. Lakin onlar əvvəlcədən bilirlər ki, bu təkliflər qəbul oluna bilməz. Bütün bunlara baxmayaraq, proses davam edir. Azərbaycan Prezidenti vurğuladı ki, bizim torpaqlar işğal altında olanda - 1992-ci ildən 2020-ci ilədək 28 il vaxt keçirdik və nəticə sıfra bərabər oldu. İndi isə danışıqlara iki ildir ki, başlanılıb. Ona görə səbirli, realist və son nəticədə Cənubi Qafqazda sülhə nail olunmasına sadiq olmaq lazımdır.

**Ardı Səh. 3**

# Etimad və etibar nümunəsi – Azərbaycan!



Əvvəli-Səh-2

Dövlətimizin başçısı belə bir məqama da toxundu ki, Avropa İttifaqı əvvəllər olduğu kimi Ermənistan-Azərbaycan sülh məsələsində neytrallıq saxlamalıdır. Belə ki, Avropa İttifaqı torpaqlarımızın işğalı dövründə bu məsələdə heç vaxt fəal olmamışdır. Bizim bununla bağlı o dövrdə Avropa İttifaqına və Avropa institutlarına xeyli sayda müraciətlərimiz belə cavablandırılırdı ki, bu məsələ ilə Minsk qrupu məşğul olur, Avropa İttifaqının bu məsələyə aidiyyəti yoxdur. Hazırda isə Avropa İttifaqının bu məsələyə fəal cəlb olunduğu görünür. Lakin əfsuslar olsun ki, Brüsseldə, Avropa İttifaqının mənzil-qərargahında bəziləri tərəfkeşlik edirlər. Bu, qeyri-məhsuldar bir mövqedir, yalnız etimadsızlıq yaradır və Avropa İttifaqını normallaşma prosesindən təcrid edir. Dövlətimizin başçısı vurğuladı ki, əgər mümkündürsə, mən belə bir tövsiyə edərdim ki, Avropa İttifaqı və Azərbaycan əməkdaşlığının davam etdirilməsi naminə Fransanın yolu ilə gedilməsin, özlərini Fransanın təsirinə salmasınlar. Çünki Fransanın Ermənistan-Azərbaycan münasibətlərinin normallaşdırılması ilə bağlı siyasəti destruktiv siyasət olub və tamamilə bu cür də qalmaqdadır.

Prezident İlham Əliyev onu da vurğuladı ki, Azərbaycan-Avropa İttifaqı münasibətlərində etimadsızlıq yaradan məsələlərdən biri də sərhəddə dırnaqarası "Avropa müşahidəçilər missiyasının" müddətinin bizim razılığımız olmadan, hətta bizimlə məsləhətləşmədən uzadılmasıdır. Buna nə ehtiyac var idi?! 2022-ci ilin oktyabrında Praqada Azərbaycan ona razılıq vermişdi ki, bu missiya 2 ay orada qalsın və istefaya çıxmış məhdud sayda hərbi zabitlərdən ibarət olsun. Lakin bu missiyanın müddəti uzadıldıqda bizimlə heç kim məsləhətləşmədi. İndi də əlavə müddətə uzadılması istiqamətində müzakirələr aparılır. Missiya üzvlərinin davranışı, necə deyərlər, "binokl diplomatiyası" heç cür qəbuledilməz və hər hansı bir normal siyasi mədəniyyət standartlarından kənar idi. Dövlətimizin başçısı bildirdi ki, biz Avropa İttifaqı ilə təmaslarda bu məsələni qaldıracağıq.

Belçika səfiri bu məlumatlara görə təşəkkürünü bildirdi, öz tərəfindən əlaqələrimizin inkişafı üçün səylərini əsirgəməyəcəyini dedi, ölkələrimiz arasında əməkdaşlığın müxtəlif sahələrdə genişləndirilməsi üçün böyük imkanların olduğunu vurğuladı.

Prezident İlham Əliyev qeyd etdi ki, Azərbaycan-Avropa İttifaqı əməkdaşlığı geniş gündəliyə malikdir və enerji, nəqliyyat, yaşıl enerji, ticarət sahələrini əhatə edir. Avropa İttifaqı Azərbaycanın əsas ticarət tərəfdaşıdır. Beləliklə, Ermənistan-Azərbaycan münasibətləri ilə bağlı Azərbaycan-Aİ əməkdaşlığında geriləmə olarsa, bu, təəssüf hissi doğurar. Dövlətimizin başçısı ümidvar olduğunu bildirdi ki, ölkələrimiz arasında ikitərəfli münasibətlər Ermənistan-Azərbaycan gündəliyindən asılı olmayaraq inkişaf edəcək.

Prezident İlham Əliyev oktyabrın 14-də Qətər Dövlətinin ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Məhəmməd Həməd Səad Əl-Fuheyd Əl-Hacirinin etimadnaməsini qəbul edib. Səfir etimadnaməsini dövlətimizin başçısına təqdim etdi. Prezident İlham Əliyev səfirlə söhbət etdi. Dövlətimizin başçısı ikitərəfli münasibətlərin uğurlu inkişafından məmnunluğunu ifadə edərək ölkələrimiz arasında beynəlxalq təşkilatlar çərçivəsində səmərəli əməkdaşlıq aparıldığını, BMT, İslam Əməkdaşlıq Təşkilatı və digər beynəlxalq təşkilatlarda Azərbaycan ilə Qətərin bir-birini daim dəstəkləməsini vurğuladı və qeyd etdi ki, bu qarşılıqlı dəstək özünü ikitərəfli gündəliyin içində də aydın göstərir.

Növbəti illərdə artıq iqtisadi-ticari münasibətlərin inkişaf etdirilməsi məsələlərinə diqqətin artırılmasının zəruriliyini bildirən Prezident İlham Əliyev investisiya qoyuluşu sahəsində əməkdaşlıq üçün yaxşı imkanların olduğunu dedi.

Azərbaycan Prezidenti ölkələrimizin beynəlxalq nəqliyyat yollarının yaradılması sahəsində də fəal iş apardıqlarını məmnunluqla vurğulayaraq, eyni zamanda, beynəlxalq səviyyədə sülhün və təhlükəsizliyin təmin edilməsi işində Azərbaycanın və Qətərin səmərəli əməkdaşlıq həyata keçirdiklərini qeyd etdi.



Vətəndaşlarımızın ölkələrimizə qarşılıqlı səfərlərinə toxunan dövlətimizin başçısı vurğuladı ki, azərbaycanlılar Qətərdə, qətərlilər isə Azərbaycanda özlərini evlərindəki kimi hiss edirlər.

Azərbaycan Prezidenti səfirə fəaliyyətində uğurlar arzuladı, əlaqələrimizin bundan sonra da inkişaf edəcəyinə əminliyini ifadə etdi. Xoş sözlərə və qəbula görə minnətdarlığını bildirən səfir Qətər Dövlətinin Əmiri Şeyx Təmim bin Həməd Al Taninin salamlarını dövlətimizin başçısına çatdırdı. Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Qətərin Əmirinə çatdırmağı xahiş etdi.

Səfir vurğuladı ki, Azərbaycan Prezidentinin ikitərəfli münasibətlərimizin gündəliyi ilə bağlı dediyi dəyərli fikirlər istiqamətində əlaqələrimizin bundan sonra da inkişaf etdirilməsi üçün səylərini əsirgəməyəcək. O, iqtisadi-ticari əlaqələrin önəminə toxunaraq, investisiya sahəsində əməkdaşlığın inkişafının əhəmiyyətini qeyd etdi.

Məhəmməd Həməd Səad Əl-Fuheyd Əl-Haciri COP29-un keçirilməsi münasibətilə təbriklərini çatdıraraq, Qətərin bu tədbirdə yüksək səviyyədə təmsil olunacağını bildirdi. Dövlətimizin başçısı COP29-la bağlı hazırlıq işlərinin yekun mərhələdə olduğunu qeyd etdi. Görüşdə qarşılıqlı sərmayələr, turizm, nəqliyyat və digər sahələrdə əməkdaşlıq məsələlərinə toxunuldu, ölkələrimiz arasında hava nəqliyyatının mövcudluğundan və sərnişinlərin mütəmadi artım dinamikasının müşahidə olunmasından məmnunluq ifadə edildi.

Prezident İlham Əliyev oktyabrın 14-də Benin Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Akambi Andre Okunlola-Biaunun etimadnaməsini qəbul edib. Səfir etimadnaməsini dövlətimizin başçısına təqdim etdi. Prezident İlham Əliyev səfirlə söhbət etdi. Dövlətimizin başçısı ikitərəfli gündəliyimizin genişləndirilməsinin zəruriliyini qeyd edərək Azərbaycanın Afrika qitəsində fəal iş apardığını, Afrika İttifaqında səfirliyimizin fəaliyyət göstərdiyini, bu təşkilatla əlaqələrimizi hərtərəfli şəkildə genişləndirməkdə maraqlı olduğumuzu dedi. Prezident İlham Əliyev Azərbaycanın Qoşulmama Hərəkatına 4 illik sədrliyi dövründə də Beninlə əməkdaşlığı məmnunluqla xatırladı, Qoşulmama Hərəkatında Azərbaycanın sədrliyinə göstərdiyi dəstəyə görə Beninin üzv dövlət kimi rolunu qeyd etdi. Bu Hərəkata sədrliyimizin Afrika ölkələri ilə də sıx təmaslar qurmaq üçün yaxşı imkan yaratdığını deyən dövlətimizin başçısı COP29-un da bu ölkələrlə əməkdaşlıq baxımından önəminə toxundu. Prezident İlham Əliyev vurğuladı ki, Azərbaycan Afrika ölkələrinin iqlim məsələləri ilə bağlı maraqlarına önəm verir.

Dövlətimizin başçısı ölkələrimiz arasında iqtisadi-ticari, kənd təsərrüfatı, təhsil və digər sahələrdə əməkdaşlığın perspektivlərinə toxundu.

Xoş sözlərə görə minnətdarlığını bildirən səfir Benin Respublikasının Prezidenti Patris Talonun salamlarını Azərbaycan Prezidentinə çatdırdı və dedi ki, Benin Prezidenti dövlətimizin başçısına dost münasibət bəsləyir.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Benin Prezidentinə çatdırmağı xahiş etdi və məmnuniyyətlə COP29-da Benin dövlətinin başçısını gözlədiyini bildirdi.

COP29 və ölkəmizdə bu tədbirlə bağlı uğurlu hazırlıq işlərinin aparılması münasibətilə təbriklərini çatdıran səfir Azərbaycanın noyabrda dünyanın mərkəzinə çevriləcəyini qeyd etdi və COP29-da Beninin yüksək səviyyədə təmsil olunmaq niyyətində olduğunu vurğuladı. Akambi Andre Okunlola-Biau Azərbaycanın Qoşulmama Hərəkatında uğurlu sədrliyi münasibətilə təbriklərini çatdıraraq, ölkəmizin sədrliyi dövründə Afrika qitəsinə xüsusi diqqət göstərilməsini məmnunluqla qeyd etdi.

Söhbət zamanı beynəlxalq təşkilatlar, xüsusən də BMT, Qoşulmama Hərəkatı və digər təsisatlar çərçivəsində Azərbaycanla Benin arasında yaxından əməkdaşlığın aparıldığı vurğulandı, ölkələrimizin BMT-də və onun strukturlarında daim birbirinin namizədliklərini dəstəklədikləri qeyd olundu. Azərbaycanın Afrika ölkələri üçün ayırdığı təhsil təqaüdü proqramı çərçivəsində ötən il Benindən də beş tələbənin respublikamızda təhsil aldığını məmnunluqla qeyd edən səfir buna görə təşəkkürünü bildirdi.

Görüşdə Benindən müxtəlif kadrların Azərbaycanda hazırlanması, iqtisadi-ticari əlaqələrin genişləndirilməsi və kənd təsərrüfatı sahəsində əməkdaşlıq məsələlərinə dair fikir mübadiləsi aparıldı.

Prezident İlham Əliyev dünən həmçinin Danimarka Krallığının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Ole Toftun etimadnaməsini qəbul edib. Səfir etimadnaməsini dövlətimizin başçısına təqdim etdi. Prezident İlham Əliyev səfirlə söhbət etdi. Dövlətimizin başçısı indiyədək əməkdaşlığımızla bağlı bir o qədər də işlər görülmədiyini deyərək, potensial sahələrdə, o cümlədən ticarət sahəsində əlaqələrin inkişafı üçün yaxşı imkanların olduğunu vurğuladı.

# Bütöv və suveren Azərbaycanın 21 illik tarixi reallıqları



## *Prezident İlham Əliyev: "Bu gün heç kimdən asılı olmayan Azərbaycan inamla, uğurla inkişaf edir, öz xarici siyasətini də buna uyğun şəkildə aparır"*

***Müstəqil Azərbaycan tarixinin ən qüdrətli mərhələsinə yüksələrək bütöv və suverən dövlət olaraq tarixi nailiyyətlərlə zəngin olan məhrələsini yaşayır. 2003-cü ilin oktyabrında xalqın yekdil dəstəyi ilə Azərbaycan Respublikasının Prezidenti seçilən İlham Əliyev 21 illik tarixi dövrdə ölkəmizin və xalqımızın həyatına gətirdiyi uğurlardan əminliklə söz açarkən qeyd etməliyik ki, bütün sahələrdə əldə olunan nailiyyətlərin kökündə müdrik siyasət, möhkəm siyasi iradə və xalq-dövlət birliyinin real əsasları dayanır.***

Xalqımız 2003-cü ildə 76,8 faiz səslə Cənab İlham Əliyevi özünə Prezident seçdi. 2003-cü il oktyabrın 1-də Ulu Öndər Heydər Əliyev Azərbaycan xalqına müraciət edərək, namizədliyini siyasi varisi Cənab İlham Əliyevin xeyrinə geri götürdüyünü elan edərkən bildirmişdi: "Üzümü Sizə - həmvətənlərimə tutaraq, qarşıdan gələn prezident seçkilərində prezidentliyə namizəd, mənim siyasi varisim, Yeni Azərbaycan Partiyası Sədrinin I müavini İlham Əliyevi dəstəkləməyə çağırıram. O, yüksək intellektli, praqmatik düşüncəli, müasir dünya siyasətini və iqtisadiyyatını gözəl bilən, enerjili və təşəbbüskar bir şəxsiyyətdir. Sizi əmin edirəm ki, həm İlham Əliyev, həm də Yeni Azərbaycan Partiyası bundan sonra da xalqımızın ən layiqli övladlarını öz ətrafında sıx birləşdirərək Azərbaycan dövlətinin inkişafı və xalqımızın firavanlığı yolunda çox xüsusi işlər görəcəklər. İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri Sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm".

Reallaşan kompleks islahatlar, geniş quruculuq işləri və yaradılan güclü iqtisadiyyat Azərbaycanın əsas inkişaf göstəriciləri sırasında olan amillərdir. Azərbaycanın dinamik inkişafının göstəriciləri sırasında ardıcıl həyata keçirilən islahatlar nəticəsində bütün istiqamətlərdə olduğu kimi sosial-iqtisadi sahədə də uğurlu nəticələr əldə edilib, sahibkarlığın inkişafı istiqamətində də bir sıra önəmli addımlar atılıb. Dövlət başçısının dəfələrlə bəyan etdiyi kimi, ölkədə həyata keçirilən siyasətin mərkəzində, məhz Azərbaycan vətəndaşları, onların maraqları dayanır. Azərbaycan dövlətinin siyasətinin əsasında xalqın rifahının yüksəlməsi dayanır. Ölkəmizdə sosial sahədə həyata keçirilən islahatlar miqyasına görə heç bir ölkədə müşahidə olunmur.

Azərbaycan tarixinin səhifəsinə yazılan 7 fevral 2024-cü il ölkəmizdə keçirilən növbədənkənar prezident seçkiləri müdrik xalqımızın yekdilliyi ilə, həmrəyliyi ilə yeni tariximizə möhrünü vurdu. Hamılıqla, həmrəyliklə hər kəs seçki məntəqələrinə üz tutaraq öz tarixi seçimini edərək bir daha inkişafa, tərəqqiyə, sabitliyə, əmin-amanlığa səs verdilər. Bu səs Azərbaycan Prezidenti İlham Əliyevin yeritdiyi müdrik və uzaqgörən siyasətə verilən səs idi. Bu seçkilər Azərbaycan üçün tam bir demokratik bayram oldu. İlk dəfə seçkilər Azərbaycanın bütün ərazilərində keçirildi. Prezident İlham Əliyev Ulu Öndərimizin gördüyü möhtəşəm işləri qətiyyət və prinsipiallıqla davam etdirərək Azərbaycanın iqtisadi, siyasi, hərbi qüdrətini, nüfuzunu daim artıraraq, xalqın güzəranını və rifahını dönmədən yüksəldərək, ərazi bütövlüyümüzü təmin edərək və suverenliyimizə imza ataraq xalqın alternativsiz Liderinə çevrilib.

### ENERJİ TƏHLÜKƏSİZLİYİNDƏ ETİBARLI TƏRƏFDAŞ

Azərbaycan son illərdə yüksək inkişaf templərinə görə dünyanın lider dövlətləri sırasındadır. Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən islahatlar Azərbaycanın dünyanın inkşaf etmiş ölkələri sırasında nüfuzu, çəkisi olan dövlətə çevirib. Müasir dövrdə Azərbaycan regionun, Avropanın və ümumilikdə, dünya ölkələrinin enerji təhlükəsizliyinin təmin edilməsində xüsusi əhəmiyyət kəsb edən bir ölkədir. Beynəlxalq təşkilatlar regiondakı bütün layihələrdə Bakının mövqeyini nəzərə alır və həyata keçirilən çoxtərəfli və balanslaşdırılmış xarici siyasət nəticəsində, regionda xüsusi çəkiyə sahibdir. Həyata keçirilən çoxtərəfli və balanslaşdırılmış xarici siyasət nəticəsində, Azərbaycan regionun ən güclü və nüfuzlu dövlətinə çevrilib. Bu gün dünya dövlətləri ilə qarşılıqlı etimad səviyyəsində qurulan diplomatik əlaqələr yüksək mərhələdədir. Mərkəzi və Şərqi Avropa ölkələri ilə müxtəlif sahələri əhatə edən ikitərəfli əməkdaşlıq Azərbaycanın xarici siyasətinin məntiqidir. Azərbaycan Prezidenti Cənab İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən prioritet sahələrin inkişafının təmin edilməsinə hesablanan islahatlar qlobal miqyasda meydana çıxan yeni çağırışları, cəmiyyətin sosial sifarişlərini əhatə edir. Ölkəmizin beynəlxalq mövqelərinin möhkəmlənməsi, bir çox ölkələrlə çox səmərəli, işgüzar, ikitərəfli münasibətlərin qurulması, eləcə də Azərbaycanın çoxtərəfli əməkdaşlıq formatının təşəbbüskarı qismində çıxışı dövlətimizin uğurlu xarici siyasət yürütməsinin təzahürüdür. Avropa və Avropa İttifaqı ölkələri ilə münasibətlər, yeni sazişlərin imzalanması mövcud əlaqələrin daha da yüksəlməsinin təzahürüdür.

Ölkəmizin BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvlüyünə qəbul olunması onun dünya miqyasında artan nüfuzundan və uğurlu xarici siyasətindən xəbər vermiş oldu. Dünyanın 155 ölkəsi Azərbaycana səs verdi. Əlbəttə, xalqımız görülən işləri, əldə olunan nailiyyətləri hər zaman dəyərləndirir və ən yüksək səviyyədə qiymətləndirir.

### ZƏFƏR QAZANMIŞ AZƏRBAYCAN DAHA UĞURLU GƏLƏCƏYƏ DOĞRU

Bugünkü Azərbaycan reallıqları deməyə əsas verir ki, sabitlik, təhlükəsizlik və inkişaf 21 illik tariximizi xarakterizə edən əsas amillərdir. Əlbəttə ki, güclü dövlət və güclü Liderlik bizə Zəfərimizi yaşatdı. 30 ilə yaxın işğalda olan torpaqlarımız Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə azad olundu. Xalq-iqtidar birliyi, ordu quruculuğu burada önəmli faktor olduğunu qeyd etməliyik. Zəfər qazanmış Azərbaycanı daha uğurlu gələcək gözləyir.Qarabağ və Şərqi Zəngəzur yeni inkişaf dövrünü yaşayır. "Dəmir Yumruğu"n yaratdığı yeni reallıqlarla hər kəs hesablaşmalıdır. Dövlət başçısının Qarabağ və Şərqi Zəngəzuru yaşıl enerji bölgələri elan edib və həmin ərazilərin sosial-iqtisadi inkişafı ilə bağlı nəzərdə tutulan layihələr icra olunmaqdadır. Qətiyyətlə deyə bilərik ki, ötən 21 il ərizində Azərbaycan dünyanın ən sürətlə inkişaf edən, yeniləşən, müasirləşən, demokratikləşən ölkəsi kimi yüksək imicə sahibdir.

Əlbəttə ki, qazandığımız uğurlar Azərbaycan Prezidenti İlham Əliyevin qətiyyəti, siyasi iradəsinin təzahürüdür. Ölkəmizə rəhbərliyi dövründə Prezident İlham Əliyev ordu quruculuğu siyasətini uğurla davam etdirdi. Azərbaycanın sosial-iqtisadi nailiyyətləri bu istiqamətdə işlərin geniş miqyasda aparılmasına imkan verdi. Azərbaycan Prezidentinin müasir ordu quruculuğu istiqamətində atdığı məqsədyönlü addımlar, həyata keçirdiyi kompleks tədbirlər qısa zamanda ordumuzu dünyanın ən qüdrətli orduları sırasında qərarlaşdırdı. 44 günlük Vətən müharibəsində Azərbaycan tarixi Zəfərini yazdı. Ermənistanın illərlə öz ordusu haqqında uydurduğu saxta miflər darmadağın edildi. Əzəli-əbədi yurdlarımızda dövlət bayrağımız ucaldıldı. Müzəffər Ali Baş Komandan cənab İlham Əliyev bu Qələbə ilə regionda yeni rellıqlar yaratdı. Ötən ilin sentyabr ayında Rusiya sülhməramlılarının müvəqqəti yerləşdikləri Qarabağdakı erməni separatçılarının cəmi 23 saat davam edən antiterror tədbirləri ilə darmadağın və tərk-silah edilmələri göstərdi ki, Azərbaycan Prezidenti dövlətimizi, xalqımızı yalnız qələbədən-qələbəyə aparır.

### "BİZ BÖYÜK QAYIDIŞ PROQRAMININ BİRİNCİ MƏRHƏLƏSİNİ 2026-CI İLİN SONUNDA BAŞA ÇATDIRACAĞIQ"

Hərb meydanında sözünü deyən Azərbaycan bu gün quruculuq meydanında da imza atdığı lahiyələri ilə sözünü deyir. İşğaldan azad olunan ərazilərdə böyük abadlıq-quruculuq işləri davam etdirilir. Təbii ki, Böyük Qələbənin nəticəsində yaradılmış yeni reallıq Qarabağın bərpası və inkişafını nəzərdə tutan Böyük Qayıdış strategiyasının aktuallığını təmin edir. Hazırda işğaldan azad edilmiş ərazilərin bərpası, gələcək inkişafının təmin olunması, zəruri infrastrukturun yaradılması və əhalinin doğma torpaqlarına qayıdışı istiqamətində genişmiqyaslı tədbirlər həyata keçirilir. Önəmli vəzifələrdən biri olan Qarabağ və Şərqi Zəngəzurun bərpa edilməsi olduğunu bildirən Cənab Prezident çıxışlarının birində görülən işlərin sürətlə aparılmasını tarixdə görünməmiş bir hadisə olduğunu bildirib: "Bizim planımız azad edilmiş torpaqlarda ilin sonuna qədər 5 şəhərə və 15 kəndə 20 min keçmiş köçkünü yerləşdirməkdir. Yüzdən çox şəhərin və kəndin baş planları hazırlanıb, təsdiqlənib. Bir çox şəhər və kəndlərdə artıq inşaat işləri başlamışdır. Biz Böyük Qayıdış proqramının birinci mərhələsini 2026-cı ilin sonunda başa çatdıracağıq və o vaxt 140 min köçkün öz dədə-baba torpaqlarına qayıdacaq. Əlbəttə ki, köçkünlər üçün yeni evlər, bütün müasir şəhərsalma qaydalarına uyğun olan yaşayış yerləri qurulacaq və tarixi şəhərlərimizin tarixi siması bərpa ediləcək" – deyə dövlət başçımız bildirib.

### SAĞLAM MALİYYƏ SİSTEMİMİZİN GÖSTƏRİCİLƏRİ

Bu gün işğaldan azad olunan ərazilərin bərpası və Böyük Qayıdışın yüksək səviyyədə təmin edilməsi məqsədi ilə ardıcıl işlər görülür. Azərbaycan Prezidenti İlham Əliyevin həmin ərazilərə səfər etməsi və bərpa-quruculuq işləri ilə şəxsən maraqlanması, istehsal müəssisələrinin, sosial obyektlərin təməlqoyma, açılış mərasimlərində iştirak etməsi görülən işlərin sürətini artırmaqla yanaşı, keyfiyyətinin də yüksək olmasından xəbər verir. Azərbaycan Prezidenti İlham Əliyevin tapşırıq və göstərişlərinə əsasən, abadlıq-quruculuq işləri sırasında yolların yenidən qurulması, müasir səviyyəyə çatdırılması istiqamətində çox mühüm layihələr icra olunur. Bütün bunlar Cənab Prezidentin düşünülmüş siyasətinin məntiqi nəticəsidir. İnkişaf və tərəqqi dövrünü yaşayan Azərbaycanın işğaldan azad olunan ərazilərində həyata keçirilən kompleks islahatlar, geniş quruculuq işləri və yaradılan güclü iqtisadiyyat ölkənin əsas inkişaf göstəriciləridir. "Bütün bunlara nail olmaq üçün iqtisadiyyatımız inkişaf etməlidir" - deyən Prezident diqqətə çəkib ki, müqayisə üçün deyə bilərəm ki, 2003-cü ildə bizim ümumi daxili məhsulumuz 7 milyard dollar idi, keçən ilin yekunlarına görə isə bu rəqəm 72 milyard dollardır: "Bizim 2003-cü ildə valyuta ehtiyatlarımız 1,6 milyard dollar idisə, bu gün bu, artıq 69,5 milyard dollardır".

Ötən iyirmi bir il aydın şəkildə göstərdi ki, İlham Əliyev Prezidentliyi dövründə ölkənin həyatının bütün sahələrində verdiyi vədlərin hamısını yerinə yetirmiş və sosial problemləri həll etmişdir. Əldə olunan möhtəşəm nailiyyətlər Azərbaycanı güclü və qüdrətli dövlətə çevirib.

**Zümrüd BAYRAMOVA**

**Tarixi saxtalaşdırmaq, saxta mənbələrə istinad etmək, miflər üzərində xəyallar qurmaq erməni xalqını bir fəlakətdən digərinə necə sürüklədiyi təkcə həmin xalqa deyil, bütün dünya ictimaiyyətinə də bəllidir və bu baxımdan qeyd olunanlar heç də sirr deyil. Hər tərəfdən haylara, rus, fars, ingilis, hətta türk dilində belə xəbərdarlıq edilir ki, onların uydurduqları miflər əslində, özləri üçün bir provokasiyadır və bu provokasiyalar ancaq qarşıdurmalara rəvac verir.**




# Regional qarşıdurmalara rəvac verən PROVOKASİYALAR

### Miflər və uydurmalar bir provokasiyadır və bununla haylar çox asanlıqla istənilən qarşıdurmaya sürüklənə bilirlər

Görürük ki, haylar rasional heç nə etmirlər və qarşılarına belə hansısa ağıllı bir məqsəd də qoymurlar. Onların danışıqlar zamanı belə normal bir ideyanı ortaya qoyduqlarının da şahidi olan yoxdur. Axmaqcasına bütün rasional, ağıllı təklifləri də rədd edirlər və özləri üçün növbəti ciddi problemləri yaradırlar. Yenə də başlarını xarab edən miflər, saxta mənbələrə istinadən ortaya atılan uydurmalar dalınca qaçırlar. Belə bir əminlik yaranır ki, haylar mif və uydurmaları reallıqlardan daha üstün hesab edirlər. Hansısa bir qrup da məhz hayların bu xislətlərinə istinad edərək, vaxtaşırı mifləri ortalığa atır, onların xəyal yaddaşını bir növ yenidən canlandırır, təzələyir və bununla da bütün toplumu provokasiyalarla çox böyük ustalıqla idarə edir. İdarə edir ki, regional qarşıdurmalar bir daha qızışdırılsın və bundan öz məqsədləri üçün istifadə etsinlər. Çünki bəzi qüvvələr bilirlər ki, bir toplum olaraq ermənilər üçün həmin miflər və uydurmalar ən yaxşı provokasiyadır və bununla onlar çox asanlıqla istənilən qarşıdurmaya sürüklənə bilərlər, necə ki, tarix boyu sürüklənibələr.

Hazırda erməni cəmiyyətini müşahidə etdikdə görürük ki, bundan sonra da nəticənin necə ağır olacağının sanki həmin cəmiyyət qətiyyən fərqində deyil. Yəni, həqiqətən də daha çətin olacağı qənaətinə gələ bilmirlərmi və başa düşə bilmirlərmi ki, belə davam edəcəyi təqdirdə müsbət gözləntilər haqqında danışmaq belə mümkün deyil? Rəsmi İrəvan nəinki region ölkələrinin maraqlarına, hətta öz maraqlarına belə qarşı çıxır. Məğlub durumda olan bir ölkə, bir cəmiyyət üçün nəyin vacib olduğunu başa düşmək belə istəyən bircə dənə erməni yoxdurmu ki, bütövlükdə erməni cəmiyyətinə bunu çatdırsın? Yəni, həqiqətən də anlamırlarmı ki, kimlərinsə mifləri və uydurmaları ilə edilən provokasiyalar keçmişi əllərindən aldığı kimi, nəticədə bu günü də, gələcəyi də hayların əllərindən alır? Başa düşmək istəmirlər ki, məğlub olmuş bir xalq, erməni xalqı onsuz da acınacaqlı durumdadır və müharibənin acı nəticələrinin ardınca ancaq təhlükəsiz həyat və ümumiyyətlə, təhlükəsizlik istəyir? Əgər başa düşürlərsə, onda nəyə görə regional qarşıdurmalara rəvac verən provokasiyalara yenə də uyurlar və niyə provokasiyaların əsiri olmaqdan əl çəkmək istəmirlər?

### Erməni cəmiyyəti mifləşdirdiklərini, xəyallarını yox, reallıqları qəbul etsə, öz mövcudluğunu təhlükədə qoymaz

Ermənistan ictimaiyyəti real vəziyyət haqqında düzgün təsəvvürə malik olmalı, əslində nə uğrunda mübarizə aparmaq gərəkdiyini artıq müəyyən etməlidir və bunun üçün də ilk növbədə həmin cəmiyyət reallıqlar barədə Ermənistan hakimiyyəti tərəfindən məlumatlandırılmalıdır. ““Tarixi Ermənistan” “indiki Ermənistan” üçün təhlükədir”, deyən erməni baş nazir əslində, öz cəmiyyətinə bir eyham da vurub, amma kəskin şəkildə miflərdən imtina etmək tələbi qoyacaq qədər siyasi iradə nümayiş etdirə bilməyib. Əslində, Paşinyan öz çıxışı zamanı bu sözlərlə “əsl Ermənistan”ın xeyrinə “tarixi Ermənistandan” imtina etmək çağırışı edib. Lakin qətiyyətli şəkildə bunu daxili auditoriyaya həzm etdirməkdə çətinlik çəkdiyi bəllidir. ““Tarixi Ermənistan” kateqoriyaları çərçivəsində düşünmək real Ermənistanın mövcudluğunu təhdid edir”, deyə aprelin 10-da parlamentdə çıxışında erməni baş nazir açıq şəkildə həyəcan təbili də çalıb. Daha doğrusu, Vovayeviç erməni cəmiyyətinə bir növ xəbərdarlıq edib ki, hansısa mifləşdirilmiş Ermənistan barədə xəyallar qurmaq, həmin xəyalların arxasınca getmək ermənilər üçün də, Ermənistan dövlətçiliyi üçün də təhlükələr, fəlakətlər vəd edir, necə ki, bunu tarix belə təsdiq edir. ““Tarixi Ermənistan”a baxışımız bizi həmişə soyqırım təhlükəsinin tələsinə aparacaq”, deyən Nikol Paşinyan əks halda, ölkə daxilində daim təhdid mənbəyinin olacağını da vurğulayıb. Həqiqətən də erməni cəmiyyəti artıq hayların mifləşdirdiklərini, xəyallarını yox, reallıqları qəbul etsə, Ermənistan cəmiyyəti əsl həqiqətləri görüb, etiraf etsə, barışsa öz mövcudluğunu təhlükədə qoymaz. Hətta gələcəyə ümid belə edə bilər. Əks halda, yenə də həmin miflərlə, Paşinyanın da qeyd etdiyi həmin o “tarixi Ermənistan” uydurmaları ilə, yəni, provokasiyalarla hansısa regional qarşıdurmalara rəvac veriləcək. Yəni, açıq-aydın şəkildə görünür ki, hansısa mifik Ermənistan, uydurulan xəyallar haylar üçün bir provokasiyadır və həmin provokasiya da ancaq regional qarşıdurmalara aparır.

### Hansısa uydurmalara, miflərə, saxta mənbələrə istinad edən cəfəngiyyat dolu ideyalara görə erməni cəmiyyəti məhrumiyyətlərlə qarşılaşmalı olub

Haylar qeyri-müəyyən, sonu bəlli olmayan yoldan, xaotik durumdan imtina edərək, doğru istiqamət götürməlidirlər. Ermənistan daxilində gərginliyin azaldılması, barışıq, sülh, müharibəni istisna edən danışıqlar İrəvan üçün prioritet hesab olunmalıdır. Ermənilərin bütün sağlam və bacarıqlı qüvvələri birləşməli və yeni, post-müharibə dövründə daha düşüncəli, daha ağıllı addımlar atılmalıdırlar, provokasiyaya yol verilməməlidirlər. Bölgədə marginallaşmış, yəni, bir növ, küncə qısılmış vəziyyətdə qalan, bütün beynəlxalq layihələrdən məhrum olan Ermənistan cəmiyyəti nəyə görə bu vəziyyətə düşdüyünün gec də olsa fərqində olmalıdır. Fərqində olmalıdır ki, hansısa uydurmalara, miflərə, saxta mənbələrə istinad edən cəfəngiyyat dolu ideyalara görə erməni cəmiyyəti böyük məhrumiyyətlərlə qarşılaşmalı olub. Başa düşməlidir ki, həmin cəfəngiyyatlarla provokasiya edilərək, marionet kimi idarə olunub. Ən azından, həmin provokasiyalar sayəsində regional qarşıdurmalar yaradıldığını və nəticənin də haylar üçün fəlakətli olduğunu gec də olsa görməlidirlər. Görməlidirlər ki, onlar belə provokasiyalarla ancaq soyqırımlar, qırğınlar törədirlər, insanlığa sığışmayan hərəkətlər edirlər, yekunda özləri də kifayət qədər zərbə almalı, zərər çəkməli, itgilər verməli olurlar. Bir sözlə, nəticə etibarı ilə erməni cəmiyyəti özü də provokasiyalara görə az çəkməyib və belə davam etsə hələ çox zərbə almış olacağı istisna edilə bilməz. Çünki bəşəriyyət sonsuza qədər hayların nazi ilə oynamaq kimi bir öhdəlik götürməyib və çox güman ki, artıq bu dəfə sonuncu ola bilər.

### Haylar provokasiyalara uymalı olduğu təqdirdə Ermənistan dövlətinin mövcudluğunu artıq sual altında qoyurlar

Tarixə nəzər saldıqda görürük ki, haylar regional qarşıdurmalara rəvac verən provokasiyalarla təkcə indiki zamanda, hal-hazırda, yaxud ötən əsrin sonlarında qızışdırılmayıb və zaman-zaman qızışdırılmaqla bölgədə daim qarışıqlıq yaradıblar. Görürük ki, ermənilər tarix boyu şişirdilmiş, mifləşdirilmiş uydurmalarla ancaq özlərini aldadıblar. Özlərini aldatmaları ilə də iş bitməyib və bir-birinin ardınca fəlakətlərə sürükləniblər. Doğrudur, haylar bir sıra bəşəri cinayətlərə, Xocalı soyqırımından az qala bir əsr əvvəl belə analoji, oxşar soyqırımlara imza atıblar, amma sonda özləri də fəlakətlərlə qarşılaşıblar. Hər dəfə törətdikləri dəhşətli soyqırımların, eləcə də terrorçuluq, separatçılıq, işğalçılıq siysətinin ardınca özləri də acı nəticələrlə qarşılaşmalı olublar. Hələ ötən əsrin əvvəllərində Azərbaycan ərazilərinə soxulan və müsəlmanların soyqırımı üçün bütün vəhşiliklərə əl atan haylar sonda döyüş zamanı özləri də böyük itgilər verməli olublar. Ötən əsrin 90-cı illərində yenə də mümbit şərait görüb namərdcəsinə Azərbaycan ərazilərinə soxulan, ərazilərimizin 20 faizini işğal edən və 30 ilə yaxın müddət ərzində işğal altında saxlayan ermənilər 44 günlük müharibədə yenə də böyük itgilərlə qarşılaşıblar. Hələ də Ermənistan dövləti itgilərin vurduğu zərbənin təsirindən yaxa qurtara bilməyib və həmin ölkənin hələ də itgilərini bərpa etməyə ümidi belə yoxdur. Amma bununla belə görünür, haylar hələ də bir nəticə çıxara bilməyiblər. Başa da düşə bilməyiblər ki, beləcə miflərin ardınca getdikcə, daha doğrusu, provokasiyalara getdikcə, ancaq özləri üçün fəlakət toxumu səpirlər. Çünki regional qarşıdurmalara rəvac verən provokasiyalar artıq onların sonunu vəd edir. Bundan sonra da haylar provokasiyalara uymalı olduğu təqdirdə Ermənistan dövlətinin mövcudluğunu artıq sual altında qoymuş olurlar. Ona görə sual altında qoymuş olurlar ki, regionda qarşıdurmalar yaratmasına sonsuza qədər imkan verilməyəcək və belə davam etdiyi təqdirdə müvafiq tədbirlər görülməsi məqbul hesab olunacaq. Bu isə o deməkdir ki, Ermənistan bir dövlət olaraq tarixin arxivinə yazılmalı olacaq.

***İnam Hacıyev***

# Ulu Öndərin əziz xatirəsinə ehtiram

*Qubada keçirilən IV beynəlxalq elmi konfransının gündəliyi “Yaşıl dünya naminə yaşıl təhsil” prinsiplərini özündə ehtiva edir*




Oktyabrın 11-də Azərbaycan Dövlət Pedaqoji Universitetinin (ADPU) Quba filialında açılışı keçirilən “Regionlarda ali təhsil: reallıqlar və perspektivlər” mövzusunda IV beynəlxalq elmi konfrans işini müvəffəqiyyətlə başa vurub. Rəsmi şəxslər, görkəmli alimlər, şəhid ailələri və qazilər, yerli ictimaiyyətin tanınmış simaları, KİV və QHT təmsilçiləri konfransa qatılıblar. Öncə “Yaşıl dünya naminə həmrəylik ili”nə həsr olunmuş ”Regionlarda ali təhsil: reallıqlar və perspektivlər” IV Beynəlxalq elmi konfransının açılışı münasibətilə Quba rayon İcra Hakimiyyətinin başçısı cənab İlqar Mahmudov, Azərbaycan Dövlət Pedaqoji Universitetinin rektoru professor Cəfər Cəfərov, Bişkek Musiqi Pedaqoji İnstitutunun rektoru professor UlanbekMambetakunov, Milli Məclisin deputatı, professor Əlibala Məhərrəmzadə, ADPU-nun Quba filialının direktoru dosent Yusif Alıyev, həmçinin hüquq mühafizə orqanlarının rəhbərləri və digər iştirakçılar ümummilli lider Heydər Əliyevin Qubadakı abidəsi önünə tər çiçəklər düzüb, əziz xatirəsinə ehtiram göstəriblər.

## ŞƏHİDLƏR ÖLMƏZ VƏTƏN BÖLÜNMƏZ!

Konfrans başlamazdan əvvəl ADPU-nun Quba filialında Azərbaycan Silahlı Qüvvələrinin zabiti, Vətən müharibəsi şəhidi, Tabor komandirinin müavini, kapitan Məlikov Aqil Niyaz oğlunun xatirəsini əbədiləşdirmək məqsədi ilə qəhrəman döyüşçünün adına təsis edilən auditoriyanın açılış mərasimi olub.

Açılışda şəhid kapitanın ailə üzvləri və doğmaları, həmçinin atası NiyazMəlikov, qəhrəmanın həyat yoldaşı Günel Məlikova, şəhid ailələri və qazilər, Azərbaycan Dövlət Pedaqoji Universitetinin rektoru professor Cəfər Cəfərov, Bişkek Musiqi Pedaqoji İnstitutunun rektoru professor UlanbekMambetakunov, Milli Məclisin deputatı, professor Əlibala Məhərrəmzadə, yerli hüquq mühafizə orqanları rəhbərləri, ADPU-nun Quba filialının direktoru dosent Yusif Alıyev və müəllim-tələbə heyəti iştirak ediblər. Professor Cəfər Cəfərov, millət vəkili Əlibala Məhərrəmzadə, şəhid MiqdadAbduləlimovun anası Tünzalə Abduləlimova və dosent Yusif Alıyev çıxışlarında Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qəhrəman Azərbaycan Ordusunun 44 günlük Vətən müharibəsində qazandığı rəşadətli Zəfərin xalqımızın dövlətçilik tarixinə qızıl hərflərlə düşdüyünü ifadə ediblər. Diqqətə çatdırılıb ki, şəhid və qazilərimizin qəhrəmanlığı ilə qazanılan bu qələbə tarix boyu əcdadlarımızın arzuladığı milli birlik fəlsəfəsinin təntənəsidir.

Şəhid kapitan Aqil Məlikovun müəllimi olduğunu xatırladan qabaqcıl təhsil işçisi Rahib Sədullayev igid döyüşçünün yüksək keyfiyyətlərindən, hər zaman ətrafındakı insanların sevimlisi olmasından danışıb.

Oğlunun vətən və dövlət qarşısındakı xidmətlərinə verilən dəyərə görə minnətdarlığını ifadə edən şəhid kapitanın atası NiyazMəlikov qəhrəman övladının adının əbədiləşdirilməsinin gənc nəslin təlim-tərbiyəsi işində əhəmiyyətli hadisə olduğunu bildirdi.

Konfrans çərçivəsində həmçinin şəhid valideyinlərin iştirakı ilə filialdakı Şəhid Nuran Mirzəyev adına Xarici dil auditoriyasında görüş baş tutub. Görüşdə rektor Cəfər Cəfərov, deputat Əlibala Məhərrəmzadə, dosent Yusif Alıyevxalqımızın qəhrəman şəhid və qazı övladları barədə ürək sözlərini bölüşüblər. Şəhid Nuran Mirzəyevin atası Akif Mirzəyev qəhrəman övladının vətənimizin bütövlüyü yolunda göstərdiyi şücaətinə və igidliyinə göstərilən ehtirama və el məhəbbətində görə dərin minnətdarlığını bildirib.

## “YAŞIL DÜNYA NAMİNƏ YAŞIL TƏHSİL” PRİNSİPLƏRİNİN TARİXİ ƏHƏMİYYƏTİ

Ümumilikdə Türkiyənin, Almaniyanın, Özbəkistanın, Qırğızıstanın, Rusiyanın və Pakistan başda olmaqla xarici ölkələrdən dünya şöhrətli universitetlərin birgə təşkilatçılığı ilə baş tutan rəsmi hissə, bədii proqram və üç paneldən ibarət olan, iki gün davam edən IV beynəlxalq elmi konfrans çox sayda yerli və xarici təhsil müəssisələrinin mütəxəssis və alimlərinin iştirakı ilə həyata keçirilib. Konfrans Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi ilə başlanıb. Ümummilli lider Heydər Əliyevin və Azərbaycanın müstəqilliyi uğrunda canlarını fəda edən qəhrəman şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad olunub.

Rəsmi açılış mərasimində ADPU-nun Quba filialının direktoru dosent Yusif Alıyev,ADPU-nunrektoru professor Cəfər Cəfərov, Milli Məclisin deputatı, professor Əlibala Məhərrəmzadə, Quba Rayon İcra Hakimiyyəti başçısının müavini Səidə Abbasova, Bişkek Musiqi Pedaqoji İnstitutunun (Qırğızıstan) professoru UlanbekMambetakunov, Elm və Təhsil Nazirliyinin Coğrafiya İnstitutunun baş direktoru professor Zakir Eminov,Erlangen-Nürnberq Universitetinin (FAU) Professoru Yaşar Musayev (Almaniya), QarsKafkas Universitetinin rektoru professor Hüsnü Kapu (Türkiyə), Cizzak Dövlət Pedaqoji Universitetinin rektoru professor ŞavkatŞaripov (Özbəkistan), Daşkənd Dövlət Pedaqoji Universitetinin prorektoru dosent Firuza İkramxanova (Özbəkistan), Stavropol Dövlət Pedaqoji İnstitutunun Yessentuki filialının (Rusiya Federasiyası) dosenti Marina Çotçayeva, Pəncab Universitetinin (Pakistan) professoru Safdar Ali Şirazi və başqaları iştirak ediblər.

Məlumat verilib ki, konfransa ümumilikdə 74 məqalə təqdim olunub. Onlardan 54-ü Təşkilat Komitəsinin redaksiya heyəti tərəfindən təsdiqlənib. Məqalələrin qəbulu 2024-cü il noyabrın 12-dək davam edəcək. Məqalələrdə qlobal məkanda aktual olan beynəlxalq problemlərə toxunulur. Redaksiya heyəti tərəfindən təsdiqlənən elmi məqalələrin toplu şəklində nəşr edilməsi nəzərdə tutulur.

Bildirilib ki, konfransa dəstək verən tərəflər təşkilati prosesdə gündəlikdə olan mövzuya xüsusi həssaslıqla yanaşdıqlarını ifadə ediblər. BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası - COP29 beynəlxalq tədbirinə böyük səylə ev sahibliyinə hazırlaşan Azərbaycan bu istiqamətdə ölkənin elm və təhsil ictimaiyyəti qarşısında da təxirəsalınmaz vəzifələr qoymuşdur. Başqa sözlə, Azərbaycan dövlətinin məqsədyönlü COP29 siyasətinin ölkənin elm və təhsil ictimaiyyəti qarşısında qoyduğu vəzifələr Azərbaycan Dövlət Pedaqoji Universitetinin ADPU Quba filialının kollektivi tərəfindən də yüksək məsuliyyətlə qəbul olunur və prosesə xüsusi elmi-pedaqoji həssaslıqla yanaşılır. Məhz bu baxımdan da “Yaşıl dünya naminə yaşıl təhsil” ADPU-nun Quba filialının gündəlik fəaliyyətində vacib çağırışdır. Ümumilikdə konfransın təşkilinə 7 ölkədən 12 reytinqli ali məktəb dəstək verib.



## ALİMLƏRİN ORTAQ MÖVQEYİ: YAŞIL DÜNYANI QORUMAQ ÜÇÜN YAŞIL TƏHSİLİN TƏSİSATI ƏVƏZOLUNMAZDIR

Açılış mərasimindəki çıxışında Azərbaycanda “Yaşıl dünya naminə həmrəylik ili”nə həsr olunmuş ”Regionlarda ali təhsil: reallıqlar və perspektivlər” IV Beynəlxalq elmi konfransının bütün iştirakçılarına, o cümlədən tədbiri dəstəkləyən bütün tərəflərə sonsuz minnətdarlığını çatdıran Azərbaycan Dövlət Pedaqoji Universitetinin Quba filialının direktoru dosent Yusif Alıyev diqqətə çatdırıb ki, keçirilən beynəlxalq elmi konfransın əsas məqsədi təhsilin inkişafı naminə alim və mütəxəssislərin elmi-tədqiqatçılıq bacarıqlarının regionlarda inkişafı, yaşıl təhsil, ekoloji təhsil üzrə qabaqcıl təcrübənin öyrənilməsi, kadr potensialının yüksəldilməsi, qarşılıqlı elmi və beynəlxalq əlaqələrin qurulması, innovasiyanıngücləndirilməsi, təbii-coğrafi şəraitin potensialının istehsalata və praktikaya cəlb edilməsi, habelə beynəlxalq müstəvidə pedaqoji istiqamətdə çalışan alimləri, tədqiqatçıları, dövlət və özəl sektor təmsilçilərini bir araya gətirməkdir. Azərbaycan Dövlət Pedaqoji Universitetinin Quba filialının kollektivi, pedaqoji heyət göstərilən bu etimada görə, hər birinizə minnətdardır. Əminliklə deyə bilərəm ki, konfransın gündəliyində olan məsələlər beynəlxalq elm və təhsil ictimaiyyəti tərəfindən də dəstəklənəcək.

Dosent Yusif Alıyev çıxışında qeyd edib ki, bu beynəlxalq konfransın keçirilməsində ən böyük əlamətdar hadisələrdən biri beynəlxalq tərəfdaşların ortaq məxrəcə gəlməsidir. Tərəfdaşlıqda ortaq məxrəc prinsipi çox önəmli bir konsepsiyadır, çünki elə bir fikirlər elə bir düşüncələr vardır ki, hər bir təşkilat öz prizmasından baxdığına görə bu cür tədbirlərin keçirilməsində ortaq nöqtəyə gəlmək çətin olur. Konfransa verilən çoxtərəfli dəstək və iştirak ümumilikdə ADPU-nun Quba filialının səmərəli fəaliyyətinə verilən yüksək qiymətdir.

Azərbaycan Dövlət Pedaqoji Universiteti və onun Quba filialı ilə əməkdaşlıqdan çox məmnun olduğunu xatırladan Bişkek Musiqi Pedaqoji İnstitutunun rektoru, professor UlanbekMambetakunov əminliklə deyib ki, elm və təhsil sahəsində əldə edilən hər bir uğurlu addım bütün türk dünyası üçün faydalıdır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Qırğız Respublikasının Prezidenti SadırJaparovun dostluq və qardaşlıq münasibətlərindən danışan alim Bişkekdə Qırğızıstan-Azərbaycan Dostluq Parkının açılışının iki qardaş xalqın ortaq dəyərlərə verdiyi qiymətin tarixi təzahürü kimi dəyərləndirərək deyib ki, Qırğızıstan və Azərbaycanın qədim tarixi və bizi birləşdirən oxşar ənənələrimiz var. Bütün bunlar ortaq milli dəyərlərimizdir.

“Ali təhsil hər bir ölkənin inkişafında əsas amildir. Bir çox başqa ölkələrdə olduğu kimi, Qırğızıstanda da davamlı inkişaf və ətraf mühitin qorunması kontekstində təhsilə yanaşmaların yenidən nəzərdən keçirilməsinə ehtiyac var”,-deyə fikirlərini davam etdirən rektoru, professor UlanbekMambetakunov əminliklə qeyd edib ki, keçirilən konfransın çağırışları Azərbaycan-Qırğızıstan münasibətlərində elm və təhsil sahəsindəki əlaqələrin inkişafına böyük töhfə verəcəkdir.

Çıxışında “Yaşıl dünya naminə həmrəylik ili”nə həsr olunmuş ”Regionlarda ali təhsil: reallıqlar və perspektivlər” mövzusunda IV beynəlxalq elmi konfransın qarşıya qoyduğu bütün məsələlər aktuallığı ilə seçildiyini diqqətə çatdıran millət vəkili Əlibala Məhərrəmzadə qeyd edib ki, gələcəkdəki uğurlar bu konfransın yüksək peşəkarlıqla təşkilindən və zəngin gündəlikdə anlaşılır. “Yüksək keyfiyyətin əl çatan ünvanı!”, - şüarı ilə filial çox şeyi anladır. Azərbaycanın dövlət siyasətində regionlarımızın çoxsahəli inkişafını ölkəmizin yüksəlişində mühüm istiqamət kimi dəyərləndirən professor Zakir Eminov vurğulayıb ki, yerlərdə savadlı elmi-pedaqoji kadrların olması çox vacibdir. Ona görə də bütün bu məsələlər ali məktəblər qarşısında kadr hazırlığı istiqamətində vacib vəzifə kimi qoyulmalıdır. İnam hissi ilə deyə bilərik ki, bu proseslər Azərbaycan Dövlət Pedaqoji Universitetinin Quba filialında da müəyyən qədər həyata keçirilir. Fəxrlə deyə bilərik ki, regionlarımızın inkişafı prosesində Azərbaycan Dövlət Pedaqoji Universitetinin Quba filialının da böyük payı var.

Ardı Səh. 7

**Əvvəli-Səh-6**

Quba Rayon İcra Hakimiyyəti başçısının müavini Səidə Abbasova əminliklə bildirib ki, konfrans qarşıya qoyduğu bütün vəzifələri layiqincə yerinə yetirə bilərcəkdir, çünki filialın yetərincə böyük potensialı vardır. Dövlət rəsmisi bələd avam edib: Azərbaycan Dövlət Pedaqoji Universitetinin Quba filialının tarixi ənənələrinə və akademik cədvəlinə nəzər salsaq regionlarımızda yüksək yerlərdən birini tutur. Filial bir çox göstəriciləri ilə irəlidədir. Onu da qeyd edim ki, filialın uğurları həm də elə Qubamızın uğurlarıdır. İnanırıq ki, "Regionlarda ali təhsil: reallıqlar və perspektivlər" mövzusunda keçirilən bu konfrans bütün mənalarda bizə gələcək üçün daha faydalı olacaqdır.

Alimlər çıxışlarda elm və təhsilin gələcəyi ilə bağlı ortaq mövqelərini belə ifadə ediblər ki, yaşıl dünyanı qorumaq üçün yaşıl təhsilin təsisatı əvəzolunmazdır. Bişkek Musiqi Pedaqoji İnstitutunun professoru UlanbekMambetakunov Azərbaycan Dövlət Pedaqoji Universitetinin Quba filialının Fəxri Diplomu ilə təltif olunub. Rəsmi hissədən sonra zəngin bədii proqram keçirilib. Quba Uşaq Musiqi Məktəbinin, Quba Uşaq İncəsənət Məktəbinin müəllim və şagirdlərinin, Quba filialının tələbələrinin ifasında bir-birindən maraqlı musiqi və rəqs ifalar olub, vətənimizin gözəlliyinə dəyərlərimizə həsr olunan və şeirlər oxunub.

## PEDAQOJİ UNİVERSİTETİ BEYNƏLXALQ ƏLAQƏLƏRİNİ SÜRƏTLƏ GENİŞLƏNDİRİR

Konfrans çərçivəsində Azərbaycan Dövlət Pedaqoji Universiteti ilə TaştanaErmatov adına Bişkek Musiqi-Pedaqoji İnstitutunun (Qırğızıstan) arasında əməkdaşlığa dair memorandum imzalanıb. Azərbaycan Dövlət Pedaqoji Universitetinin rektoru professor Cəfər Cəfərov və Bişkek Musiqi Pedaqoji İnstitutunun rektoru, professor UlanbekMambetakunov imzaları ilə təsdiqlədikləri sənədin əhəmiyyətini yüksək dəyərləndirərək bu sahədə əməkdaşlığı Azərbaycan-Qırğızıstan münasibətlərinin inkişafına növbəti töhfə olduğunu ifadə ediblər.Rektorlar əməkdaşlığın real və səmərəli olacağına ümidvar olduqlarını bildiriblər. Memorandum 11 maddədən ibarətdir və təhsil müəssisələri arasında hərtərəfli sıx əməkdaşlığı nəzərdə tutur.

Qeyd edək ki, Bişkek Musiqi-Pedaqoji İnstitutu kollecdən ali təhsil müəssisəsinə çevrilib. Hazırda sürətlə inkişaf edən bu təhsil müəssisəsi "Məktəbəqədər təhsil", "İbtidai sinif müəllimi", "Riyaziyyat müəllimi", "Musiqi müəllimi" və bir çox başqa ixtisaslar üzrə kadr hazırlığı həyata keçirir.ADPU da öz növbəsində bu sahələr üzrə ixtisaslaşmış lider təhsil müəssisəsidir. Məhz bu göstəricilərinə görə, Azərbaycan Dövlət Pedaqoji Universiteti ilə Bişkek Musiqi-Pedaqoji İnstitutu arasında imzalanan əməkdaşlığa dair memorandumu Azərbaycan və Qırğızıstan arasında imzalanan tarixi bir sənəd kimi dəyərləndirmək mümkündür.

İmzalanma mərasimində Milli Məclisin deputatı, professor Əlibala Məhərrəmzadə və ADPU-nun Quba filialının direktoru dosent Yusif Alıyev, eləcə də filialın struktur rəhbərləri iştirak ediblər. Daha sonra Azərbaycan Dövlət Pedaqoji Universitetinin rektoru professor Cəfər Cəfərov Milli Məclisin deputatı, professor Əlibala Məhərrəmzadə və filialın direktoru dosent Yusif Alıyevin iştirakı ilə ADPU-nun Quba filialının kollektivi ilə görüşüb. Rəhbərlik etdiyi təhsil müəssisəsinin, eləcə də Quba filialının nailiyyətlərində danışan professor Cəfər Cəfərov bildirib ki, uğurlara qətiyyən arxayınlaşmaq olmaz. Rektor Cəfər Cəfərov kollektivi maraqlandıran sualları cavablandırarkən əminliklə bildirib ki, Azərbaycanda elm və təhsil sahəsində aparılan islahatlar, eləcə də biliyin və pedaqoji peşə imkanlarının dəyərləndirilməsi sahəsindəki yeni tətbiqlər ən qısa zamanda böyük nəticələrlə xarakterizə olunacaq. Konfransa aid panellərdə əvvəlcədən nəzərdə tutulmuş bütün çıxışlar dinlənilib.

**Sabir Şahtaxtı,**
**Siyasi elmlər üzrə fəlsəfə doktoru**
**Xüsusi olaraq "Səs" qəzeti və SİA agentliyi üçün**
**Quba-2024**

# Görünməz qəhrəmanlar: kənd qadınları




## 15 Oktyabr Beynəlxalq Kənd Qadınları Günüdür

Birləşmiş Millətlər Təşkilatı tərəfindən qadınların kənd təsərrüfatı istehsalında, resurslardan davamlı istifadədə, ərzaq istehsalı və təhlükəsizliyində əhəmiyyətli payına əsaslanaraq elan etdiyi Beynəlxalq Kənd Qadınları Günü, yaxud Qadın Fermerlər Günü 2008-ci ildən etibarən hər il oktyabrın 15-də qeyd olunur.

Beynəlxalq Kənd Qadınları Günü ideyası ilk dəfə 1995-ci ildə Çin Xalq Respublikasının paytaxtı Pekin şəhərində keçirilən IV Ümumdünya Qadınlar Konfransı zamanı qadınların səlahiyyətlərinin artırılması və onlara hörmət edilməsi ideyası kontekstində müzakirə edilib. Oktyabrın 16-sı Ümumdünya Ərzaq Günü kimi qeyd olunduğundan kənd qadınlarının kənd təsərrüfatı, ərzaq istehsalı və ərzaq təhlükəsizliyinə verdiyi töhfənin tanınması üçün oktyabrın 15-nin Beynəlxalq Qadın Fermerlər Günü kimi qeyd olunması təklif olunub.

### Qadın fermerlərin iqtisadiyyatda rolu



Həm dünyada, həm də ölkəmizdə kənd təsərrüfatı istehsalının və kənd həyatının davamlılığının təmin edilməsində ən mühüm rolu kənd qadınları oynayır. Ancaq istər iqtisadi, istərsə də sosial baxımdan kənd qadınları cəmiyyətdə layiq olduqları sosial-iqtisadi mövqeyə çata bilmirlər. Bunun arxasında duran ən mühüm amil kənd həyatında qadınların kişilər kimi istehsalçı və ya fermer kimi görünməməsidir.

Kənd təsərrüfatı işlərində adətən, qadınlar kişilərin köməkçiləridir. Baxmayaraq ki, kənd təsərrüfatı işlərində kişilər qədər əməkləri var, amma qadınların əksəriyyəti özlərini fermer kimi görmürlər. Bundan əlavə, gündəlik ev işləri, həyətyanı sahənin əkib-becərilməsi əsas işdən əlavə qadınların təbii vəzifəsi kimi görülür. Daha aydın desək, bütün günü əkin sahələrində, tarla və bostanlarda işləyən qadın evə qayıtdıqdan sonra da həm evdə, həm də həyətyanı ərazidə təsərrüfatla məşğul olur.

Xüsusilə, qadınların istehsal prosesində fermer kimi görünməməsi, qazanılan gəlirin qiymətləndirilməsi zamanı qadın əməyinin hesablanmaması kənd təsərrüfatı işlərində qadınların iştirakını getdikcə azaldır.

Qadınların fermerdən çox evdar qadın kimi görünməsi onların əməyinin rəsmi statistikada yer almamasına səbəb olur. Halbuki evdar dediyimiz hər kəndli qadın bir təsərrüfat idarə edir. Qadınlar kənd həyatında əvəzolunmaz əhəmiyyətlərinin fərqində deyillər. Xüsusilə, bir çox inkişaf etməmiş və inkişaf etməkdə olan ölkələrdə qida istehsalı, qida məhsullarının mühafizəsi və marketinq bütünlüklə qadınların üzərinə düşür.

Dünyada 500 milyondan çox kənd qadını yoxsulluq həddinin altında yaşayır. Afrikada ərzaq ehtiyaclarının 60-80%-i kənd qadınları tərəfindən istehsal olunur, Asiyada düyü əkinçiliyinin 50%-dən çoxu qadınlar tərəfindən həyata keçirilir, sənayesi inkişaf etmiş ölkələrdə kənd təsərrüfatı işlərinin 30%-i qadınlar tərəfindən həyata keçirilir. Afrikanın bəzi yerlərində qadınlar ailə başçılarının 60%-ni təşkil edir, Afrikada içməli su və yanacağa olan ehtiyacın 90%-i qadınlar tərəfindən qarşılanır və Afrikada əsas qidalar tamamilə qadınlar tərəfindən emal olunur.



### Assosiasiya sədri: "Kənd qadınları haqqında çox stereotiplər var"

Azərbaycan Kənd Qadınları Assosiasiyasının sədri Gülbəniz Qənbərova bildirir ki, Assosiasiya 2018-ci ildə Kənd Təsərrüfatı Nazirliyinin dəstəyi ilə yaradılıb və bu Assosiasiyanın yaradılmasında məqsəd kənd qadınlarının, regionların sosial və iqtisadi inkişafına olan töhfəsini artırmaq və onu dayanıqlı etmək olub: "Kənd qadınlarının istər sosial, istər iqtisadi inkişafa olan töhfəsini artırmaq üçün onların cəmiyyətə inteqrasiyası lazımdır, onların evdən çıxıb hansısa bir işlə məşğul olması, hansısa bir tədbirə, hansısa iştirakını təmin etmək lazımdır, onların qərarvermədə iştirakının olması lazımdır.

Kənd qadınlarının əsas problemi onların cəmiyyətə zəif inteqrasiya olunmasıdır və bunun da çox səbəbləri var. Kənd qadınları haqqında çox stereotiplər var və o stereotiplərin yaranmasının da səbəbi kənd qadınlarının cəmiyyətdən kənarda qalması, cəmiyyətin qaynar məsələlərinə onların müdaxilə edə bilməməsidir. Biz bunun çıxış yolunu onda görürük ki, kənd qadınlarının bacarıqları artırılmalıdır".

Assosiasiya sədri bildirir ki, bunun üçün biz çox təşəbbüslər irəli sürübələr: "Bu təşəbbüslərdən biri də kənd qadınlarının rəqəmsal bacarıqlarının artırılmasıdır. İndi zəmanəmiz dövrümüz, rəqəmsallıq dövrüdür. Onlar rəqəmsal aləmdən kənarda qaldıqca ictimaiyyətə qoşula bilmirlər. Kənd qadınları həm təsərrüfat, həm də təsərrüfatdan kənar, qeyri-təsərrüfat bizneslərlə məşğul olurlar və bu bizneslərin inkişafı üçün, onların dayanıqlı olması üçün onların genişləndirilməsi üçün də inteqrasiya lazımdır. Onların əlaqələri olsun və o əlaqələr vasitəsilə onlar məhsul bazara çıxartsınlar, onlar satış eləsinlər və bütün bu işlərdə də məqsəd odur ki, onlar öz ailələrinə iqtisadi dəstək göstərsinlər."

Müsahibimiz deyir ki, 2021-ci ildən Kənd qadınlarının rəqəmsal gücləndirilməsi kampaniyasına başlayıblar və bu kampaniya çərçivəsində bir çox kəndlərdə bir çox qadınlara qadın qruplarına rəqəmsallıq təlimləri verilib: "Müxtəlif şirkətlərdən smartfonlar, dizüstü kompüterlər rəqəmsal avadanlıqlarla kənd qadınlarını təchiz eləməyə çalışırıq ki, onlar şəbəkələrə çıxa bilsinlər, elektron ticarətə çıxa bilsinlər. İndi kənd qadınlarının inkişafını ləngidən də onların necə deyərlər, rəqəmsal bacarıqlarının zəif olmasıdır".

### Kənd qadınları kollektiv təsərrüfat yaradıblar

Gülbəniz xanım deyir ki, kənd qadınları özləri özlərinə iş qururlar, bir-birinə dəstək olurlar: "Təsəvvür edin, qadınlar qrup şəklində yığışırlar. Onlar belə təsərrüfatla məşğul olanda kənddəki çox sterotipləri qırırlar. Qadınlar var ki qrup şəklində bir ildə 630 ton tərəvəz istehsal ediblər. Məsələn, Bərdənin Böyük Göyüşlü kəndində Fatimə qadın qrupu var. Sonra Goranboyun Boluslu kəndində Şəfa qadın qrupu var. 23 Rayonda 56 qadın inkişaf və müəssisə qrupları yaratmışıq ki, onlar kollektiv bizneslərlə məşğul olurlar və bu onların həyatını dəyişir.

Kollektiv şəkildə məşğul olanda həm ailədə söz-söhbət olmur, həm də onlar bir-birinə dəstək olaraq bu işi görürlər və çox da böyük uğurları olur. Məsələn, ailədə gənc qadın səhər istəyir ki, getsin tarlada işləsin, tutaq ki, tərəvəz əksin, satıb gəlir əldə etsin. Təbii ki, ona deyəcəklər ki, sənin tək nə işin var tarlada, bir təhlükə ola bilər. Amma onlar qrup şəklində gedirlər. Səhər bir-birini səsləyirlər, toplaşırlar, çox şən halda tarlaya gedirlər. İşlərini görürlər, həm də bir-biri ilə ünsiyyətdə olurlar".

### Fermer qadınlar azdır

Qadınlar dünya kənd təsərrüfatında çalışan işçilərin 43%-ni təşkil edir. Onlar dünyada sosial-iqtisadi davamlılığın açarıdır, inkişaf prosesləri üçün əhəmiyyətli və əvəzolunmazdırlar. Hər nə qədər təsərrüfatdakı böyük əməkləri gözəgörünməz olsa da, onların çəkdikləri zəhmət sayəsində ailə təsərrüfatları genişlənir, inkişaf edir.

Hazırda kəndlərdə təsərrüfatla məşğul olan ailələrdə ailə təsərrüfatının davam etdirilməsi məsələsi, əsasən, oğlan övladların üzərinə düşür. Bunun da səbəbi qızın evdə müvəqqəti olduğunu düşünməleri, qızların ata evinin təsərrüfatına faydalı olmayacağını hesablamalarıdır ki, nəticədə qızlar oxumursa ailə qurmağa və ər evində təsərrüfat işləri ilə məşğul olmağa sövq edilir.

Qadınlar kənd təsərrüfatında fəal rol oynamağa, ümumiyyətlə, inamlı və həvəslidirlər. Onlar hesab edirlər ki, passiv həmcinsləri bu sahədə fəal olsaydılar, kişilərdən daha uğurlu olardılar. Bizim xalqımızın yaxın tarixində əmək qəhrəmanı olmuş onlarla qadın fermerimiz, pambıqçı, traktorçu, kombaynçılar olub ki, kənd təsərrüfatının bir çox sahəsində onların öncüllüyü ilə ciddi yenilik və nailiyyətlər əldə edilib.

Hazırda ölkəmizdə heyvandarlıqla məşğul olan təsərrüfatlarda qadınların üzərinə düşən yük böyükdür. Heyvan mənşəli məhsulların qadınlar tərəfindən hazırlanaraq satıldığı bu evlərdə qadınlar heyvanların baxımı və sağlamasında da fəal rol oynayırlar. Ev təsərrüfatlarının şəxsi istehsalı üçün salınan bağlar, meyvə bağları və orada yetişdirilən məhsullar ümumiyyətlə qadınların himayəsindədir. Alın təri ilə torpağa can, əllərinin qabarı ilə ailə büdcəsinə töhfə verən bütün qadınların günü mübarək!

***Lalə Mehralı***

# “Azərbaycan MDB-nin bütün strukturlarında ən fəal iştirak edən ölkələrdəndir”



“Azərbaycan MDB-nin bütün strukturlarında ən fəal və fasiləsiz iştirak edən ölkələrdən biridir, bəlkə də birincisidir. MDB-nin əlbəttə Ermənistan kimi ölkələrlə müqayisədə Azərbaycanın bu struktur daxilindəki fəaliyyəti tam başqa meyarlarla, prinsiplərlə qiymətləndirilməlidir. Çünki bəzi başqa ölkələr MDB daxilindəki öz fəaliyyətlərinə MDB-nin imkanlarından bəhrələnmək, MDB-nin imkanları hesabına öz mövqelərini daha da yaxşılaşdırmaq, fürsət düşdükcə başqa inteqrasiya modelləri ilə də əməkdaşlıq üçün fürsətlər axtarmağa söykənirsə, amma Azərbaycanın bu birlikdə fəaliyyəti təkcə öz maraqları ilə ölçülmür. Çünki Azərbaycan təmsil olunduğu beynəlxalq təşkilatlardakı digər üzvlərin də kollektiv maraqlarına həmişə hörmətlə yanaşmağı bacaran bir ölkə olub və buna görə də Azərbaycan təkcə MDB-də öz mövqelərini gücləndirmək yox, eyni zamanda MDB-nin strukturlarının daha səmərəli və işgüzar fəaliyyət göstərməsi, daha da təkmilləşdirilməsi üçün öz qatqılarını da verməyə cəhd göstərən bir ölkədir”. Bu sözləri SİA-ya açıqlamasında ”Bakı-Xəbər” qəzetinin baş redaktoru Aydın Quliyev deyib.Aydın Quliyev sözlərinə belə davam edib: ”Bu nöqteyi-nəzərdən MDB dövlət başçılarının Moskvada sonuncu görüşündə Azərbaycan Prezidentinin iştirakı məzmunlu bir hadisədir. Bu sadəcə olaraq MDB-nin sammitlərinin birində iştirak faktı kimi nəzərdən keçirilməməlidir. Ona görə ki, burada qarşıdakı müəyyən bir dövr üçün edilməsi vacib olan işlərlə bağlı aparılan müzakirələrdə Azərbaycan çox aktiv şəkildə iştirak etdi, xüsusilə də yaxın tariximizin öyrənilməsi, faşizmin qəhrəmanlaşdırılması kimi cinayətlərə qarşı mübarizədə çox önəmli rol oynaya biləcək Böyük Vətən Müharibəsində, 2-ci dünya müharibəsində qələbənin 80 illiyi ilə bağlı tədbirlərin yüksək səviyyədə keçirilməsi üçün tədbirlərlə əlaqədar aparılan müzakirələr qeyd olunmalıdır.

Azərbaycan heç təsadüfi deyil ki bu tədbirlərin ən yüksək səviyyədə keçirilməsi üçün özündən asılı olan hər şeyi ortaya qoyan bir dövlət kimi çıxış edib. Bundan başqa MDB ölkələri məkanında sabitliyin qorunması, müxtəlif sahələr üzrə təhlükəsizlik addımlarının, sxemlərinin daha da möhkəmləndirilməsi, MDB daxilində iqtisadi inteqrasiyanın gücləndirilməsi, ticarət-iqtisadi münasibətlərinin gücləndirilməsi və MDB ölkələrinin əməkdaşlığı üçün indiyə qədər potensial olaraq qalan imkanların üzə çıxarılması üçün əlbəttə Azərbaycanın mövqeyini bu dəfə də gördük. Azərbaycan Prezidentinin MDB Dövlət başçılarının görüşündəki çıxışının müəyyən istiqamətlər baxımından təhlili də göstərir ki, toxunulan məsələlər həm MDB çərçivəsində indiyə qədər görülən işlərin yekunlaşdırılması baxımından əhəmiyyətlidir, həm də MDB dövlətləri qarşısında dayanan növbəti mərhələ üçün kollektiv hədəflərin müəyyənləşdirilməsində olduqca praktik və təsirli görsənir. Ona görə də Azərbaycan kimi dövlətlərin MDB-də fəaliyyəti bu qurumun daha da möhkəmləndirilməsinə xidmət edir, bu qurumun həqiqətən təmsil etdiyi regionda ölkələr arasında daha sağlam münasibətlərin qurulmasına xidmət etdiyini sübut edir. Amma əlbəttə ki Ermənistan kimi ölkələrin bu birlik daxilində hələ də davakar siyasəti və sülhə gəlməməsi MDB-nin bütün potensial imkanlarının üzə çıxarılmasına mane olan amildir.Fikrimcə, Azərbaycan Prezidentinin MDB-də sülh sazişinin imzalanması, bölgədə sülhün təmin olunması ilə bağlı səsləndirdiyi bəyanatlar ölkənin həm sülhsevər siyasətinin təqdimatı baxımından əhəmiyyətlidir, həm də bu bölgədə Azərbaycanın sülh naminə, təhlükəsizlik naminə atdığı addımların bütün MDB təhlükəsizlik sistemi üçün nə qədər əhəmiyyətli olduğunu bir daha nümayiş etdirdi”.

**Ayşən Vəli**

# Tengiz Cavaxadze: “Gürcüstan Qərbin göstərişlərinə kor-koranə tabe olmaqdan imtina etdiyinə görə cəzalandırılır”




*“Sual yaranır: MDB ölkələrinin siyasəti ilə bağlı Aİ qərarlarında niyə həmişə “Rusiya izi” var? Yəni, qiymətləndirmə konkret MDB ölkəsinin Rusiyaya qarşı hansı mövqe tutmasından asılı olaraq qurulur”*

Brüssel Gürcüstana qarşı “kökə və kötək” siyasəti yürütməkdə davam edir. Bu günlərdə Avropa Parlamenti “Gürcüstanda demokratiyanın tənəzzülü və siyasi plüralizmə təhdidlər haqqında” qətnamə layihəsini təsdiqləyib və bu təşəbbüsü 495 deputat dəstəkləyib. Qətnamədə xarici agentlər və LGBT təbliğatına qadağa haqqında qəbul edilmiş qanunlar, hakim partiyanın seçki bannerləri və Gürcüstan hakimiyyətinin Sergey Lavrovun Rusiya Federasiyasının Abxaziya və Cənubi Osetiya ilə barışığa kömək etməyə hazır olması barədə bəyanatına müsbət qiymət verməsi də tənqid edilib. Qəbul edilmiş qətnamədə AP deputatları sərt davranmağı– “qeyri-demokratik qanunlar” ləğv olunana qədər Aİ-nin Gürcüstan hökumətinə ayırdığı bütün maliyyə vəsaitlərinin dondurulmasını tələb edirlər.

Avropa Parlamentinin qərarı təbii olaraq Gürcüstanda narazılıq yaradıb. Hakim “Gürcü Arzusu– Demokratik Gürcüstan” partiyasının baş katibi, Tbilisi meri Kaxa Kaladzenin dediyi kimi, Avropa Parlamentinin yeni qətnaməsinin demokratiya və Avropa dəyərlərinə heç bir aidiyyəti yoxdur.

Gürcüstanın ekspert icması Avropa Parlamentinin təzyiqinə necə baxır? Fəlsəfə professoru və Siyasi İnnovasiyalar Mərkəzinin direktoru Tengiz Cavaxadzenin “Caliber” analitik mərkəzinə şərhini oxucularımıza təqdim edirik.

Ekspertin fikrincə, Gürcüstan Qərbin direktivlərinə kor-koranə tabe olmaqdan imtina etdiyinə görə açıq şəkildə cəzalandırılır.

“İkili standartlar var. Sual yaranır: MDB ölkələrinin siyasəti ilə bağlı Aİ qərarlarında niyə həmişə “Rusiya izi” var? Yəni, qiymətləndirmə konkret MDB ölkəsinin Rusiyaya qarşı hansı mövqe tutmasından asılı olaraq qurulur. Hakimiyyət Moskvaya qarşı çıxmırsa, o zaman ”qara siyahı”ya düşə və çoxlu sanksiyalar və qətnamələrdə boğula bilərsiniz. Amma əgər siz Moskvanın siyasətinə qarşısınızsa, onlar sizi alqışlayacaq, çiyninizdən sığallayacaq və AB-yə üzv olmaq üçün çox qeyri-müəyyən, lakin xoş təkliflə çıxış edəcəklər. Amma belə geniş jestlərə görə təşəkkür edirəm. Gürcüstandan nümunə götürərək bunun necə bitəcəyini görürük. Bəs onda nə üçün bütün postsovet dövründə insan hüquqlarını açıq şəkildə pozan bir çox qanunlar qəbul edən Baltikyanı ölkələr heç vaxt avropalı deputatlar tərəfindən tənqid olunmur? Nəyə görə indi Latviyada Sovet əsgərlərinin abidələrini, Qələbə bayramını qeyd etmək ənənələrini qoruyub saxlamağa çalışanları açıq şəkildə təqib edən dövlət məmurları cəzasız qalır, onların əməlləri avropalı deputatlar tərəfindən pislənmir?

Mənə elə gəlir ki, Gürcüstanın Avropa adlanan yolu daha çox “şirin aşiqləri şər cadugərin evinə sövq edən konfet yolu” haqqında nağılı xatırladır. Bildiyimiz kimi, yaxşı olan hər şeyin əvəzini ödəməlisən- bütün gürcü siyasətçiləri bu çox müdrik gündəlik həqiqəti xatırlamalıdırlar”- Tengiz Cavaxadze yekunlaşdırıb.

**Tərcümə - Elçin Bayramlı**



Lalə Mehralı

# Ay qızlar, vay qızlar!

***11 oktyabrı Ümumdünya Qız Uşaqları Günü kimi qeyd edirlər bütün cəmiyyətlərdə - şarlarla, posterlərlə, reklam çarxları ilə, güllərlə, sevinclə, gülərüzlə. Dünyada qız uşaqlarının yaşadıqları çətinlikləri, apardıqları mübarizəni, verdikləri qurbanı bilmədən, etina göstərmədən.***

Əslində Beynəlxalq Qızlar Günü bir çox ölkələr üçün aktual olan uşaq nigahlarına, qızların istismarına, təhsilsiz qalmalarına diqqət çəkir. Uşaq nigahı insan haqlarının pozulması deməkdir və qızların həyatının bütün aspektlərinə mənfi təsir göstərir. Onları zorla təhsildən yayındırır, təməl hüquqlarından məhrum edir. Beynəlxalq Qız Uşaqları Günü qızların təhsil, qidalanma, uşaq nikahı, hüquqi və tibbi hüquqlar istiqamətində bütün hüquqlarının təmin edilməsində, bu haqda məlumatlılığın artırılmasında böyük əhəmiyyət kəsb edir.

Yaxşı, bəs nə qədər insan bu günün əsl tarixçəsi, qeyd olunmasındakı məqsəd barədə məlumatlıdır? Bu gün qızlar bayramı deyil, qızların hüquqları uğrunda mübarizə günüdür. Dünyada hələ də vəhşicəsinə qətl edilən, istismar edilən qızların olduğunu bilə-bilə bu günü bayram eləmək olmaz axı.

Əgər beynəlxalq təşkilatlar qadın hüquqlarının bərpası uğrunda çalışırsa, azad qadın fiqurunu yaratmaq uğrunda bu qədər maraqlıdırsa, qızların gücündən, bacarığından, əldə etdiklərindən məmnundursa o zaman niyə dünyada qızlar zülüm görür? Bu nə təzaddır? Bir tərəfdən önü açılan qızların digər tərəfdən yolunu kim bağlayır?

Təhsili qızlardan qorxmayın. Savadlı qızlar güclü gələcək, savadlı nəsil deməkdir. Qızlarınıza bədəni ilə öyünməyi yox, ağılları, bilikləri, zəkaları və şəxsiyyətləri ilə var olmağı öyrədin. Arzularını həyata keçirən təhsilli, qərarlı, zəkalı qızlarla dünya daha da gözəlləşəcək. Etiraf etmək lazımdır ki, ölkəmizdə qızların təhsilinə, ziyasına olan diqqət bir çox müsəlman ölkəsində yoxdur. Bizim üçün normal olan haqlar başqa bir ölkədə qızların ancaq arzusu, xəyalıdır.

Dünyada təhsildən yayındırılan, məktəbə göndərilməyən qızların aqibəti bəlidir – ya nikah, ya istismar. UNİSEF dünyada uşaq nikahlarının getdikcə sayının azaldığını, lakin bu azalmanın arzuolunan səviyyədə olmadığını deyir və hesab edir ki, dünyada uşaq nikahlarının tamamilə aradan qaldırılması üçün daha 300 il gözləmək lazım gələcək. Təsəvvür edirsiniz? Hələ 300 il dözməlidir qızlar...

- Dünyada 15-19 yaş arasında olan hər 4 qızdan 1-i təhsil ala bilmir.
- Dünyada 600 milyon qız uşağının 130 milyonu məktəbə getmir.
- Dünyada 20 yaşınadək hər 10 gənc qızdan biri cinsi zorakılığa məruz qalır.
- Dünyada hər il 18 yaşına çatmamış 12 milyon uşaq və yeniyetmə qız uşaq gəlin olur.
- Dünyada hər il 50-60 milyon, hər gün 150 min, bir saat ərzində 6 mindən çox doğulmamış körpə qız olduğuna görə qətl edilir.
- Dünyanın 39 ölkəsində oğul və qızlar mirasda bərabər pay almırlar, qızların miras haqqı azaldılaraq haqları əks cinsdən olan qohumlarına verilir.
- Dünya qadınlarının 30 faizi əks cins tərəfindən fiziki və ya cinsi zorakılığa məruz qaldıqlarını bildirir.
- Azərbaycanda hər il 15-17 yaş arasında 1000 məktəbli qız aborta gedir.
- Azərbaycan selektiv abortda (qız uşaqlarının ana bətnində qətl edilməsi) dünyada birinci yerdədir.

Ümumdünya Qız Uşaqları Günü imiş...

Sizcə də absurd deyilmi?

TƏHLİL

# Kosmik sənayenin inkişafı Azərbaycana yeni uğurlar gətirir




***Azərbaycanda bütün sahələrdə olduğu kimi informasiya-kommunikasiya texnologiyaları sahəsində də böyük və uğurlu nailiyyətlər əldə olunur. Bu da qeyri-neft sektorunun inkişafına və bu sahədə daha böyük uğurlara imza atılmasına imkanlar yaradır.***

2003-cü ildə keçirilən prezident seçkilərində xalqın mütləq dəstəyini qazanaraq Azərbaycan Prezidenti seçilən Ulu Öndər Heydər Əliyevin ən layiqli siyasi varisi Cənab İlham Əliyev ölkəmizin bütün sahələrinə olduğu kimi informasiya-kommunikasiya texnologiyaları sahəsinin inkişafına da xüsusi önəm verdi və bu sahənin inkişafı üçün dövlət proqramları, fərman və sərəncamlar imzaladı. Prezident İlham Əliyevin 2005-ci il 22 oktyabrında imzaladığı "Azərbaycan Respublikasında rabitə və informasiya texnologiyalarının inkişafı üzrə 2005-2008-ci illər üçün Dövlət Proqramı (Elektron Azərbaycan)" fərmanı rabitə və informasiya texnologiyalarının geniş tətbiqinə yeni imkanlar açdı. Dövlət Proqramı ölkəmizin hər bir yerində rabitə və informasiya texnologiyalarının geniş yayılmasını təmin etmiş oldu. Azərbaycan Prezidentinin "Xüsusi iqtisadi zonaların yaradılması haqqında" 2007-ci il 6 mart tarixli Fərman isə İKT sektorunun inkişafına münbit zəmin yaratdı. Həyata keçirilən dövlət siyasətinin keyfiyyətcə yeni mərhələyə qədəm qoyduğunu göstərən "Azərbaycan Respublikasında rabitə və informasiya texnologiyalarının inkişafı üzrə 2010-2012-ci illər üçün Dövlət Proqramının (Elektron Azərbaycan)" təsdiq edilməsi haqqında ölkə başçısının məlum Sərəncamı Milli Strategiyadan irəli gələn vəzifələrin yerinə yetirilməsi, respublikanın informasiya cəmiyyətinə keçidinin təmin edilməsi baxımından əhəmiyyətli rol oynadı. 2013-cü ildə "Azerspace-1" telekommunikasiya, 2014-cü ildə "Azersky" Yerin məsafədən müşahidəsi, 2018-ci ildə isə "Azerspace-2" telekommunikasiya peyki orbitə çıxarılıb. Azərbaycan Prezident İlham Əliyev 27 aprel 2021-ci il tarixində "Azərbaycan Respublikasının Kosmik Agentliyi (Azərkosmos)" publik hüquqi şəxsin yaradılması haqqında Fərman imzalayıb. Sənədə əsasən, "Azərkosmos" Açıq Səhmdar Cəmiyyətinin əsasında Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin tabeliyində "Azərbaycan Respublikasının Kosmik Agentliyi (Azərkosmos)" publik hüquqi şəxs yaradılıb. Dünyanın, o cümlədən Azərbaycanın tanınmış mütəxəssislərinin birgə əməkdaşlığı ilə orbitə çıxarılan "Azərspase-1" telekommunikasiya peyki ölkəmizin dünyada mövqelərinin daha da möhkəmlənməsinə imkanlar yaratdı. Peyk üç rəngli Azərbaycan bayrağı ilə kosmosa gönərilmişdir. Bu, Azərbaycanın elmi-texniki və iqtisadi qüdrətinin təntənəsi idi. İstismar müddəti 15 il olan "Azərspase-1" peyki Avropa, Afrika, Mərkəzi Asiya, Qafqaz ölkələri və Yaxın Şərq regionunu əhatə edir. Eyni zamanda, Azərbaycanın ilk telekommunikasiya peyki informasiya müstəqilliyinin və təhlükəsizliyinin təmin edilməsi, ölkəmizdə kosmik sənayesinin inkişaf etdirilməsi ilə yanaşı, kommersiya xarakterli və gəlirli bir layihədir. Azərbaycan Prezidenti İlham Əliyev bu peykin fəaliyyətinin iqtisadi səmərəsi ilə bağlı demişdir: "Gələcəkdə bu sahənin hər bir ölkə üçün nə qədər vacib olduğunu, əminəm ki, hər kəs görəcəkdir. Hər bir ölkənin uğurlu, dayanıqlı inkişafı üçün informasiya-kommunikasiya texnologiyaları sahəsi həlledici rol oynayacaqdır. Mən buna əminəm. Mən çox şadam ki, biz bu istiqamətdə bütün işləri planlı, məqsədyönlü şəkildə aparırıq. Bütün addımları atırıq ki, ölkəmiz daha da güclənsin, Azərbaycan daha da müasir dövlətə çevrilsin". Artıq uğur əldə edilib. 2014-cü ildən "Azərspace-1" peyki vasitəsilə Azərbaycanın bütün televiziya və radio kanalları keyfiyyətli yayıma başlayıb. Həmçinin tələb və rəqabətin artması, peyk tutumlarının bazar qiymətlərinə uyğun təklif olunması "Azerspace-1" peykinin əhatə etdiyi regionlarla əməkdaşlığı gücləndirməyə, eləcə də Livan, əfqan, ərəb bazarında fəaliyyət göstərməsinə şərait yaradıb. Hazırda "Azərspace-1" peyki vasitəsilə Azərbaycan, türk, ingilis, gürcü, fars, əfqan və digər dillərdə 120-dən artıq televiziya kanalı yayımlanır. "Azerspace-1" peyki regionda kifayət qədər tanınıb. "Azərspace - 1" peyki vasitəsilə Azərbaycan, türk, ingilis, gürcü, fars, əfqan və digər dillərdə 121 televiziya kanalı yayımlanır. Ölkədə bu sahənin inkişafını daim diqqət mərkəzində saxlayan Cənab İlham Əliyev yeni texnologiyaların tətbiqinin vacibliyini önə çəkərək bu gün Azərbaycanın artıq kosmik sənayeyə malik olan ölkə olduğunu vurğulayıb. "Azərspace - 1" peykin orbitə çıxarılmasının ardınca 2018-ci il sentyabrın 26-da Fransanın Qvianasında yerləşən Kuru kosmodromundan Azərbaycanın "Azerspace-2" peyki orbitə buraxılıb. Bu peyklərin çox böyük əhəmiyyəti var. Prezident İlham Əliyev "Azərspace 2" peykinin orbitə buraxılması münasibətilə xalqa təbrikində demişdir: "Azərbaycan qısa müddət ərzində dünyanın kosmik klubunun dəyərli üzvünə çevrilibdir. Azərbaycan qarşıya qoyduğu bütün vəzifələri uğurla icra edir. Bizim yolumuz inkişaf yoludur, tərəqqi yoludur və bu gün Azərbaycan dünyada müasir texnologiyaların inkişafında öz dəyərli sözünü deyir. "Azerspace 2" telekommunikasiya peykinin orbitə çıxarılması bizim növbəti tarixi qələbəmizdir. Bundan sonra da Azərbaycan yalnız uğurlar, qələbələr yolu ilə gedəcək".



## "Azerspace-2" Azərbaycan iqtisadiyyatına 400 milyon dollar gəlir gətirəcək

Azərbaycanın orbitə buraxılan üçüncü peyki "Azerspace-2"-nin orbitdə yanacaq ömrü minimum 20 il təşkil edəcək. Fransız Qvianasında yerləşən Kuru kosmodromundan orbitə buraxlan peyk sentyabrın 26-na keçən gecə saat 2:38 radələrində orbitə qalxıb. "Azərkosmos" dan bildirilib ki, peykin dəyəri 190 milyon dollarıdır. Peykin Azərbaycan iqtisadiyyatına 400 milyon dolları gəlir gətirəcəyi proqnozlaşdırılır, qurum deyir."Azerspace-2" peyki Avropa, Mərkəzi və Cənub-Qərbi Asiya, Yaxın Şərq və Tropik Afrika ölkələrini əhatə edəcək.Yeni peyk birinci telekommunikasiya peyki - "Azerspace-1" peykinin orbitdəki ehtiyatı olacaq, qurumun məlumatında deyilir."Azərkosmos"dan bildirilib ki, dəyəri 233 milyon dolları olan və 5 ildir ki, fəaliyyət göstərən "Azerspace-1" peykinin gəlirlərinin 80 faizi, dəyəri 157 milyon avro olan "Azersky" peykinin gəlirlərinin 98 faizi xarici bazarlarda formalaşır: "Peyk regionda dövlət və özəl qurumlara şəbəkə xidmətləri sahəsində artmaqda olan tələbləri qarşılamaq üçün yüksək texniki imkanlar, əlverişli əhatə zonası və keyfiyyətli xidmət təklif edəcək. "Azerspace-2" peyki hələ orbitə buraxılmamış onun tutumlarının 46 faizi artıq dünyanın peyk xidmətləri üzrə aparıcı şirkəti olan "İntelsat" şirkətinə satılıb. Bu müqavilə üzrə ödənişlər layihə dəyəri və maliyyələşmə xərclərinin 60 faizinin geri qaytarılmasını təmin edəcək. Hazırda peykin qalan tutumlarının satışı ilə əlaqədar digər ölkələrlə aktiv biznes danışıqları aparılır".

ABŞ-ın peyk operatoru "İntelsat" şirkətinin orbitdəki 45 dərəcədəki mövqeyinə "Azerspace 2" peykinin buraxılmasına dair ilkin razılıq 2014-cü ildə əldə edilib.İntelsat 50-dən çox peyki ilə dünyanın ən böyük peyk operatorudur. "Arianspace" şirkəti 1980-ci ildən fəaliyyət göstərir. "Arianespace" dünyanın əksər ölkələrində mövcuddur: Fransada, Birləşmiş Ştatlarda, Yaponiyada və Sinqapurda şirkətin nümayəndəlikləri yerləşir. "Arianespace" kosmik aparatları Cənubi Amerikadan, ya da Mərkəzi Asiyadan orbitə göndərir. 3-cü peykimizin orbitdə istifadə müddəti "Azərspace-1" ilə müqayisədə 6 il çox olacaq. "Azərspace-2" Avropa, Mərkəzi və Cənubi-Qərbi,Asiya , Yaxın Şərq və tropik Afrika ölkələrini əhatə edəcək. Peyk regionda dövlət və özəl qurumlara şəbəkə xidmətləri sahəsində artmaqda olan tələbləri qarşılamaq imkanı yaradacaq.

## Azərbaycan kosmik sənayesi ölkəsinə çevrilir

Qazanılan uğurlar bir daha onu deməyə əsas verir ki, Azərbaycan dünyanın kosmik sənayesi ölkəsinə çevrilir. İnam və etimadın nəticəsi olaraq beynəlxalq təşkilatlar o cümlədən dünyanın aparıcı ölkələri bu istiqamət də Azərbaycanla əməkdaşlığa böyük maraq göstərilər. 2023-cü il oktyabrın 2-6 tarixlərində Bakıda Azərbaycanın Kosmik Agentliyinin ("Azərkomos") və Beynəlxalq Astronavtika Federasiyasının təşəbbüsü ilə 74-cü Bakı Beynəlxalq Astronavtika Konqresinin keçirilməsi qeyd olunanlara misal ola bilər. Tədbirdə kosmik agentliklərin, dövlət sektorunun, investorlar və özəl kosmik şirkətlərin nümayəndələri, yerli və beynəlxalq media qurumlarının təmsilçiləri, ümumilikdə 101 ölkədən 5 mindən çox nümayəndə iştirak etdi. Beynəlxalq Astronavtika Konqresində 150 şirkət sərgi pavilyonunda təmsil olunur. Sərgidə iştirak edən agentlik və şirkətlər arasında ABŞ-ın "Milli Aeronavtika və Kosmos Administrasiyası" (NASA), Yaponiyanın "JAXA" kosmik agentliyi, İtaliyanın "Agenzia Speziale Italiana" kosmik agentliyi, "AIR-BUS" şirkəti, Kanadanın innovasiya mərkəzi "INO", Fransanın Milli Kosmik Tədqiqatlar Mərkəzi "CNES", Hindistanın kosmik agentliyi "ISRO", Türkiyənin "Türkiye Uzay Ajansı" kosmik agentliyi və digər beynəlxalq şirkətlər iştirak edirdi.74-cü Beynəlxalq Astronavtika Konqresinin gündəliyi zəngin oldu: 5 gün ərzində 423 interaktiv təqdimat, 168 texniki, 7 plenar sessiya və 20 qlobal netvörkinq forumu keçirildi.Tədbirlərdə kosmosun tədqiqi, kosmosa əsaslanan naviqasiya sistemləri, xidmətləri və tətbiqlərində irəliləyişlər, Yerin müşahidəsi üzrə beynəlxalq əməkdaşlıq kimi bir çox trend mövzularda müzakirələr aparıldı. Bundan başqa ilk dəfə olaraq Bakı Konqresində ABŞ və Afrikadan olan nümayəndələrlə dəyirmi masalar keçirilməsinə nail olundu.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bakıda keçirilən 74-cü Beynəlxalq Astronavtika Konqresinin açılış mərasimində bildirib ki, Bakıda keçirilən Konqres Azərbaycanda kosmos sənayesinin, aparıcı texnologiyaların inkişafına və onun müasirləşdirilməsinə töhfə verəcəkdir: "Müasirləşmənin Azərbaycanın gələcəklə bağlı baxışlarını, gündəliyini və planlarını əks etdirdiyini vurğulayan dövlətimizin başçısı bildirib. Müstəqillik dövründə Azərbaycan beynəlxalq ictimaiyyətin fəal üzvünə çevrilib. Bizim siyasətimiz hər zaman aydın, şəffaf və birmənalı olub, dostların qazanılmasına və əməkdaşlığın gücləndirilməsinə xidmət edib".

Beynəlxalq Astronavtika Federasiyasının prezidenti Kley Mouri açılış mərasimində qeyd edib ki, konqres kosmik ictimaiyyətin nümayəndələri üçün unikal bir hadisədir. Onlar öz təcrübələrini paylaşmaq, həmkarları ilə görüşmək, yeni əlaqələr yaratmaq üçün yalnız ilin bu vaxtı bir araya gələ bilirlər.

Beynəlxalq kosmik icma adından Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə edilən sürpriz onun bu tədbirin təşkilinə birbaşa və böyük dəstəyinə minnətdarlığın ifadəsi idi. Prezident İlham Əliyevin Ulu Öndər Heydər Əliyevlə birgə 1973-cü il Bakı Konqresində çəkilmiş fotoşəkili kosmik stansiyaya göndərilib. Sonra həmin tarixi foto 24-cü konqresin digər 4 atributu ilə birlikdə Prezident İlham Əliyevə təqdim olundu.

Bakı Konqresində "Space X" şirkətinin təsisçisi İlon Mask onlayn formada çıxış etdi. İ.Mask onlayn çıxışı zamanı "SpaceX"in kosmik fəaliyyəti barədə sualları cavablandırdı, hazırda icrası davam edən layihələrinin təfərrüatlarını bölüşdü. O qeyd etdi ki, "Starship" kosmik gəmisi və "SpaceX"in "Starship" adlanan super ağır raketi ekipajı, həmçinin yükləri Yer orbitinə, Aya, Marsa və ondan kənara daşımaq üçün nəzərdə tutulmuş tamamilə təkrar istifadə edilə bilən nəqliyyat sistemidir. "Starship" dünyanın indiyə qədər hazırlanmış ən güclü buraxılış aparatıdır, 150 metrik tona qədər tamamilə təkrar istifadə edilə bilən və 250 metrik tona qədər sərf edilə bilən yük daşıya bilir. İ.Maskın sözlərinə görə, "Starship" gəmisi 3-4 ildən sonra Marsa maneəsiz enə, həmçinin kosmik laboratoriya kimi istifadə oluna bilər. Onun kosmosda istənilən müddətdə qalması mümkündür.

Görülən möhtəşəm işlər, həyata keçilən uğurlu siyasət onu təsdiq edir ki, Ulu Öndərimiz Heydər Əliyevin əsasını qoyduğu və Prezidentimiz İlham Əliyevin böyük bacarığı, müdrik fəaliyyəti ilə davam etdirilən siyasət Azərbaycan dövlətinə və xalqına yalnız qələbələr və zəfərlər gətirir. Bu qələbələrin davamlı olacağı şübhəsizdir. Çünki nə qədər Azərbaycan dövləti və xalqı var, Ulu Öndər Heydər Əliyevin əsasını qoyduğu xoşbəxtlik və firavanlıq rəmzi olan siyasət daim var olacaq.

***İLHAM ƏLİYEV***



# Dünya Ermənistanda kəsişəcəkmi?

***İndiki Ermənistan ərazisində yaşayan ermənilər yalan tarix uydurmağa, saxtakarcasına dünya insanlarını qandırmağa, dolandırmağa davam edirlər. Yalan millət, yalan torpaqlar, yalan dövlət, yalançı tarix bəstələyən ermənilər İrəvanın 2806 illiyini qeyd edərkən də kimsədən utanmayıblar, başqa xalqın tarixi üzərində özlərinin milli kimliklərini, pasportlarını formalaşdırmağa çalışırlar.***

Ermənistanın baş naziri Nikol Paşinyan sosial şəbəkələrdə 2018-ci ilə qədər lideri olduğu “Yelk” blokunun 2016-cı ildə qeydə alınmış seçkiqabağı videosunu yayıb. Bunun üzərinə gələcək baş nazir və onun tərəfdaşları “Erebuni-Yerevan” mahnısını oxuyurlar. O vaxtdan bəri Paşinyanın ən azı bir arzusu gerçəkləşib - o, hakimiyyətə gəlib. İndi Ermənistanın baş naziri “Dünyanın kəsişməsi” arzusundadır, lakin onu qurmaq daha çətin olacaq. Onun iddiasının arxasında duran fikir də budur.İndiki Ermənistan ərazisində yaşayan ermənilər yalan tarix uydurmağa, saxtakarcasına dünya insanlarını qandırmağa, dolandırmağa davam edirlər. Yalan millət, yalan torpaqlar, yalan dövlət, yalançı tarix bəstələyən ermənilər İrəvanın 2806 illiyini qeyd edərkən də kimsədən utanmayıblar, başqa xalqın tarixi üzərində özlərinin milli kimliklərini, pasportlarını formalaşdırmağa çalışırlar. Ermənistanın baş naziri Nikol Paşinyan



sı budur ki, Şərqlə Qərb, Şimalla Cənub kommunikasiyaları, nəqliyyat dəhlizləri Ermənistanın keçilməz dağlarında, dar cığırlarında kəsişsin. Əlbəttə, hər kəsin Tanrıdan bir arzu, bir niyyət istəməsi onun haqqıdır. Amma gərək elə şeylər istəyəsən ki, uca Tanrının da buna gücü yetsin Paşinyan Fransanın ABŞ-dan göndərilən sifarişin Ermənistanda, daha doğrusu Zəngəzurda həyata keçirilməsini təmin etməyə söz vermiş, öhdəlik götürmüş marionet erməni liderdir. Qərb ona bu iş üçün kifayət qədər para da verib. Hətta 26 oktyabrda Gürcüstanda keçiriləcək parlament seçkilərindən sonra ehtimal olunanları da nəzərə alsaq, ABŞ və Avropa İttifaqı Orta Dəhlizin keçəcəyi yolda Ermənistan-Gürcüstan kəməri yaratmaq istəyir.

Qərb Azərbaycan neft və qazının, dəmir yolu xəttinin keçdiyi Gürcüstanda nəzarəti ələ keçirməklə, parallel olaraq Azərbaycan və Türkiyəni seytnota salacağını düşünür. Əgər bu baş verərsə Şimal-Cənub Dəhlizi Azərbaycandan yox, Ermənistandan keçə bilər. Erməni baş naziri iştaha gətirən, onun “Dünyanın kəsişməsi” sərsəmləməsinin

sosial şəbəkələrdə 2018-ci ilə qədər lideri olduğu “Yelk” blokunun 2016-cı ildə qeydə alınmış seçkiqabağı videosunu yayıb. Bunun üzərinə gələcək baş nazir və onun tərəfdaşları “Erebuni-Yerevan” mahnısını oxuyurlar. O vaxtdan bəri Paşinyanın ən azı bir arzusu gerçəkləşib - o, hakimiyyətə gəlib. İndi Ermənistanın baş naziri “Dünyanın kəsişməsi” arzusundadır, lakin onu qurmaq daha çətin olacaq.

Onun iddiası budur ki, Şərqlə Qərb, Şimalla Cənub kommunikasiyaları, nəqliyyat dəhlizləri Ermənistanın keçilməz dağlarında, dar cığırlarında kəsişsin. Əlbəttə, hər kəsin Tanrıdan bir arzu, bir niyyət istəməsi onun haqqıdır. Amma gərək elə şeylər istəyəsən ki, uca Tanrının da buna gücü yetsin Paşinyan Fransanın ABŞ-dan göndərilən sifarişin Ermənistanda, daha doğrusu Zəngəzurda həyata keçirilməsini təmin etməyə söz vermiş, öhdəlik götürmüş marionet erməni liderdir. Qərb ona bu iş üçün kifayət qədər para da verib. Hətta 26 oktyabrda Gürcüstanda keçiriləcək parlament seçkilərindən sonra ehtimal olunanları da nəzərə alsaq, ABŞ və Avropa İttifaqı Orta

Dəhlizin keçəcəyi yolda Ermənistan-Gürcüstan kəməri yaratmaq istəyir. Qərb Azərbaycan neft və qazının, dəmir yolu xəttinin keçdiyi Gürcüstanda nəzarəti ələ keçirməklə, parallel olaraq Azərbaycan və Türkiyəni seytnota salacağını düşünür. Əgər bu baş verərsə Şimal-Cənub Dəhlizi Azərbaycandan yox, Ermənistandan keçə bilər. Erməni baş naziri iştaha gətirən, onun

bildirib ki, Paşinyan “reallığı təhrif etməyə” çalışır. “Azərbaycanın ərazi bütövlüyünü şifahi olaraq tanıdığını bəyan edən Ermənistan tərəfinin Azərbaycan ərazisində qanunsuz rejimin təbliğatını apardığını və Ermənistanın baş nazirinin 2023-cü il sentyabrın 2-də separatçı rejimi qondarma müstəqillik münasibəti ilə təbrik etdiyini heç kim unutmayıb”. Bununla paralel olaraq




“Dünyanın kəsişməsi” sərsəmləməsinin arxasında duran fikir də budur.Görün Paşinyan nə deyir: “Əslində, Ermənistan sərhədlərinin 70 faizində və ya daha çoxunda bizim stasionar vəziyyətimiz var, yəni sərhədlərimiz mal axınını təmin etməyə xidmət etmir. “Dünyanın kəsişməsi” layihəsinin məqsədi ondan ibarətdir ki, Ermənistan öz ərazilərini təmin etsin və geniş iqtisadi fəaliyyətə xidmət etmək baxımından öz töhfəsini versin”. Eyni zamanda Ermənistan lideri bildirib ki, Azərbaycan bu layihənin həyata keçirilməsində ölkəsinə kömək etmək niyyətində deyil, çünki İrəvanın on milyardlarla gəlir əldə edə biləcəyindən narahatdır. Bakının nöqteyi-nəzərindən bu pul Ermənistan ordusunu gücləndirmək üçün istifadə oluna bilər. “Deyə bilərəm ki, Ermənistanın Azərbaycana və ümumilikdə region ölkələrinə qarşı heç bir təcavüzkar niyyəti yoxdur. Biz bütün qonşu dövlətlərimizin ərazi bütövlüyünü tanıyırıq və de-yure öhdəliklər götürməyə hazırıq. Bundan başqa, Ermənistan bəyan edib ki, hətta işğal olunmuş ərazilərini geri qaytarmaq üçün belə, qarşısına hərbi yolla geri qaytarmaq vəzifəsi qoymur, ona görə də demarkasiya prosesi zamanı Azərbaycanla imzaladığımız sənəd demarkasiya prosesinin hüquqi, hüquqi əsaslarla həyata keçirilməsi üçün hər cür imkan yaradır” , Paşinyan vurğulayıb. Lakin baş nazirin sözlərinə görə, hazırda Bakı Ermənistanın yollarından özü üçün istifadə etmək istəyir, blokadanı götürmək istəmir.Eyni zamanda Paşinyan əmin edib ki, İran və Gürcüstan onun layihəsini dəstəkləyir və müxtəlif səbəblərdən Türkiyənin mövqeləri erməni mövqeləri ilə üst-üstə düşə bilər. “Rusiya üçün tranzit marşrutlarının həm iqtisadi, həm də siyasi əhəmiyyəti var. Əgər Moskva yük axınlarının idarə olunmasına müəyyən təsir göstərməkdə davam edərsə, bu, onun üçün məqbul ola bilər”, - Paşinyan əlavə edib.

Bakının reaksiyası özünü çox gözlətməyib. Belə ki, Azərbaycan Xarici İşlər Nazirliyinin mətbuat katibi Ayxan Hacızadə

Azərbaycanın müdafiə naziri Zakir Həsənov rəsmi müşavirə keçirərək Ermənistanla sərhəddə “bütün mümkün təxribatlara qarşı” tapşırıqlar verib. Azərbaycan mətbuatının yazdığına görə, nazir “qoşunların döyüş effektivliyinin yüksək səviyyədə saxlanılması, sayıqlığın artırılması, o cümlədən şərti sərhəddə revanşist qüvvələrin bütün mümkün təxribatlarına qarşı qabaqlayıcı tədbirlərin görülməsinə hazır olmaq üçün konkret tapşırıqlar verib”.Azərbaycanlı politoloq İlqar Vəlizadənin fikrincə, Bakı “Dünyanın qovşağı”nda iştirak etməyə hazırdır, lakin bunun üçün Ermənistan ilk növbədə öz öhdəliklərini yerinə yetirməlidir, o cümlədən Zəngəzur dəhlizinin blokunu açmalıdır. “Bu, həyata keçirilən kimi Azərbaycan öz nəqliyyat kommunikasiyalarını Ermənistana açacaq. O vaxta qədər nəinki Bakı, heç Ankara da layihədə iştirak etməyəcək”, - Vəlizadə əmindir.Öz növbəsində, MDB Ölkələri İnstitutunun Ermənistan bölməsinin rəhbəri Aleksandr Markarov hesab edir ki, “Dünyanın kəsişməsi” yalnız Türkiyə və Azərbaycan İrəvandan blokadanı götürəcəyi təqdirdə tam fəaliyyət göstərə bilər. Buna baxmayaraq, Ermənistan hakimiyyəti respublikanı Gürcüstan və İranla birləşdirən infrastrukturun təkmilləşdirilməsini davam etdirir. “Kommunikasiyaların açılması Ermənistandan yox, Azərbaycandan asılıdır. Hələlik “Dünyanın kəsişməsi” niyyət bəyannaməsi olaraq qalır.

Buna baxmayaraq, Paşinyan hökuməti bu layihəyə böyük ümidlər bəsləyir. Hakimiyyət bütün beynəlxalq görüşlərdə də bunu qeyd edir. İrəvan regionun dinc və davamlı inkişafı üçün model təklif edir”, - deyə Markarov bildirib.Əlbəttə, Ermənistanın iqtisadi, maliyyə imkanları ilə “Dünyanın kəsişməsi”ni inşa etmək mümkün deyil, bunu onun əvəzinə Fransa avropalıların cibinin pulu ilə etmək istəyir. Məqsəd birdir, hər iki dəhlizdə lövbərlənmək.

***V.VƏLİYEV***

# Qürur və iftixarımız: Laçın



"Qarabağın qapısı" adlandırılan Laçın şəhərinin 2025-ci ildə MDB-nin mədəniyyət mərkəzi elan edilməsi həm də haqq savaşımıza, qazanılan Zəfərimizə ehtiram nümunəsidir

**Xəbər verildiyi kimi, MDB Humanitar Əməkdaşlıq Şurasının qərarına əsasən, Azərbaycanın Şərqi Zəngəzur rayonunun Laçın şəhəri 2025-ci ildə MDB-nin mədəniyyət mərkəzi elan edilib.**

Bu barədə Prezident İlham Əliyev Moskvada keçirilən MDB Dövlət Başçıları Şurasının məhdud tərkibdə iclasındakı çıxışında söyləyib. "MDB Humanitar Əməkdaşlıq Şurasının qərarına əsasən, Azərbaycanın Şərqi Zəngəzur rayonunun Laçın şəhəri 2025-ci ildə MDB-nin mədəniyyət mərkəzi elan edilib. Laçın 30 ilə yaxın müddətdə Ermənistanın işğalı altında olmuş Azərbaycan şəhərlərindən biridir və demək olar ki, tamamilə dağıdılıb. Bu gün Laçın artıq bərpa olunub. Burada yeni həyat başlayıb, keçmiş məcburi köçkünlər qayıdıblar", - deyə dövlətimizin başçısı vurğulayıb.

Bu xəbər həm laçınlılar, həm də bütün Azərbaycan xalqı tərəfindən böyük minnətdarlıq və sevinc hissi ilə qarşılandı. Məlumdur ki, müharibədən az sonra azad ərazilərimizdə müxtəlif mədəni tədbirlərə start verildi. Həmin dövrdən etibarən milli-mədəni və tarixi irsimizin qorunması və təbliğ olunması istiqamətində əstetik bir dönəm başlandı. 2021-ci il "Nizami Gəncəvi İli" elan olundu. O zaman il girər-girməz dövlətimizin başçısının bizi "Nizami Gəncəvi İli" sevinci ilə müjdələməsi mədəni iqlimə köklənməyə gözəl bir vəsilə oldu. 2022-ci il "Şuşa İli" elan edildi. 2023-cü il sentyabrın 25-də Qətər Dövlətinin paytaxtı Doha şəhərində keçirilən İslam Dünyası Mədəniyyət Nazirlərinin 12-ci Konfransında Azərbaycanın mədəniyyət paytaxtı Şuşa şəhəri 2024-cü il üçün "İslam dünyasının mədəniyyət paytaxtı" elan edildi. Bununla bağlı Sərəncam bizim bir xalq, dövlət kimi varlığımızın siması – sülhün və mədəniyyətin çağırışçısı statusunda tanıdılmağımız üçün mühüm dəyər kəsb edirdi. İndi də Laçın şəhərinin 2025-ci il MDB-nin mədəniyyət paytaxtı elan edilməsi xəbəri hər bir azərbaycanlıya qürur hiss yaşatdı. Bu qərar həm də haqq savaşımıza, qazanılan Zəfərimizə ehtiram nümunəsi kimi səciyyələnir.

Xatırladaq ki, hələ sovetlərin dövründə Ermənistanla həmsərhəd ərazilərimizin hər birində olduğu kimi, Laçının da taleyinə yazılan ağ günlər az olub. İllərlə onun maddi-mədəniyyət abidələrinə biganəlik göstərilib. Ucqar kəndlərinə avtomobil yolları çox gec çəkilən, gözdən-könüldən iraq düşən Laçının da tarixinə vaxtilə "əl uzadılıb". 1923-cü ildə Şuşa qəzası ləğv olunaraq Dağlıq Qarabağ Muxtar Vilayəti yaradılıb. Vaxtilə Şuşa qəzasının tərkibində olan Laçın bir ildən sonra inzibati rayon mərkəzinə çevrilib. Qəsəbə statuslu Laçın şəhərinin yerinin seçilməsi məsuliyyəti isə böyük ədibimiz Tağı Şahbazi Simurqa həvalə edilib. O, yeni şəhərə yaxınlıqdakı Laçın dağının adını verib. Qarabağla mənfur qonşuların arasında mərdlik qalası sayılan Laçını tarix boyu torpaqlarımıza göz dikən yağılar, daşnak quldurları "Qarabağın qapısı" adlandırıblar. Laçının şimalında Kəlbəcər, şərqində Xocalı, Şuşa və Xocavənd, cənubunda Qubadlı yerləşir. Qərbdən "qonşusu" olan mənfur ermənilərin illərlə gizli şəkildə apardığı işğalçılıq siyasəti nəticəsində təcavüzün qurbanı olan Laçın və onun əlçatmaz zirvələri zamanın sərt sınaqlarına dözməli olub. Laçın dağlarında qədim və möhtəşəm mədəniyyət abidələri ilə təbiət bir-birini sanki tamamlayırdı. Cicimli, Zeyvə, Malxələf, Malıbəy, Güləbird, Soltanlar, Yənqıça, Bülövlük, Araflı, Əliqululu, Hüsülü, Kosalar, Seyidlər, Pircahan, Kürdhacı və digər kəndlərdəki 12 qoç, 28 at fiquru, rəsmlər, müxtəlif dövrlərdə ərəb əlifbası ilə sal daş üzərində həkk edilən 36 müxtəlif süjetli yazılar, bir-birinə bənzəməyən sənət rəmzləri, qəbirüstü daşlar, məşhur Sarı Aşığın sevgilisi Yaxşının məzarı kimi tarixi abidələr bu torpaqlarda min illər boyu yaşayan əcdadlarımızın bizə yadigar qoyduğu nişanələr idi. Rayonun Cicimli kəndindəki məbəd, qədim anbar, Güləbirddə Sarı Aşığın qəbirüstü ziyarətgahı rayonun tarix-diyarşünaslıq muzeyi əsrlərin canlı salnaməsi idi. Muzeydə toplanmış nadir eksponatlar Laçının zəngin tarixi keçmişi haqqında dolğun təsəvvür yaradırdı. Təəssüf ki, otuz ilə yaxın işğal dövründə bu tarixi incilər də təcavüzün qurbanına çevrildi. Bütün bunlar az imiş kimi, tarixin yadigarları, milli mədəniyyət abidələrimiz olan qala və məbədlər saxtakarcasına erməniləşdirildi.

Ordumuzun şücaəti və Prezident İlham Əliyevin mahir diplomatiyası sayəsində Laçın rayonu 2020-ci il dekabrın 1-də döyüşsüz təhvil alındı. Rəşadətli Azərbaycan Ordusunun yenilməz iradəsi nəticəsində 2022-ci ilin 26 avqust tarixində Laçın şəhəri, Zabux və Sus kəndləri nəzarətə götürüldü və bununla Laçının tarixində yeni bir səhifə açıldı. Bu, təkcə müzəffər ordumuzun qazandığı növbəti hərbi uğur deyildi, həm də Azərbaycanın tarixi ədalətinin bərpası idi. Hazırda dayanmadan aparılan abadlıq-quruculuq işlərinin nəticəsində Laçın öz füsunkar simasını bərpa etməkdədir. Prezident İlham Əliyev mayın 28-də Laçına növbəti səfəri zamanı aparılan quruculuq işlərindən danışaraq deyib: "Biz öz doğma torpaqlarımızı işğalçılardan azad edəndən sonra mən demişdim ki, Qarabağı və Şərqi Zəngəzuru cənnətə çevirəcəyik. Cənnətin əgər təsviri varsa, bu gün bax, budur. Gözəl təbiət, əzəmətli dağlar, gözəl binalar, evlər – hər şey çox böyük zövqlə yaradılır ki, həm insanlar burada rahat yaşasınlar, həm də Laçın şəhərinin müasir siması Azərbaycanın əldə etdiyi uğurları ilə eyni səviyyədə olsun".




Bu gün Laçında həyata keçirilən genişmiqyaslı quruculuq işləri yüksək zövq və keyfiyyətlə aparılır. Təbii yaşıllıqlarla əhatələnmiş şəhərin tarixən mövcud olmuş təxminən 258 hektar məskunlaşma ərazisində həyətyanı sahəsi olan fərdi evlərə üstünlük verilir. Bununla yanaşı, çoxfunksiyalı zonalarda və digər yaşayış ərazilərində çoxmənzilli binaların tikilməsi təklif edilir. Şəhərdə xəstəxana, İşğal və Zəfər muzeylərinin yerləşəcəyi Memorial Park, məktəbəqədər və tam orta təhsil müəssisələri, peşə məktəbi, həmçinin mədəniyyət və turizm obyektləri də yaradılacaq. Planlaşdırmada tətbiq edilmiş "15 dəqiqəlik şəhər" prinsipi isə yaşayış məhəllələrinin, gündəlik tələbat obyektlərinin yaxın məsafədə olmasını və aşağı sürətli yol infrastrukturunun təşkilini nəzərdə tutaraq sakinlərin və qonaqların şəhər daxilində rahat hərəkətini təmin edəcək. Şəhərin giriş hissəsindəki körpünün sol istiqamətində salınan çaykənarı bulvar Laçın sakinlərinin və qonaqların sevimli istirahət məkanlarından birinə çevrilib. Artıq Həkəri çayı üzərində göl yaradılıb. Burada asma körpü inşa edilib, ətrafda yaşıllıqlar salınıb, kotteclər tikilib. Göldə çimərlik də fəaliyyət göstərəcək. Rayon sakinlərinin və qonaqların rahat istirahət etməsi üçün çimərliyin ətrafında əyləncə mərkəzinin yaradılması nəzərdə tutulub. Keçmiş məcburi köçkünlərin öz doğma yurdlarına dönüşü üçün Azərbaycan Prezidentinin 2022-ci il 16 noyabr tarixli 3587 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı" uğurla icra olunur. Artıq Laçın şəhəri, Zabux və Sus kəndləri də daxil olmaqla işğaldan azad edilmiş ərazilərin bir çoxunda məcburi köçkünlərin qayıdışı təmin olunur, sakinlərin doğma yurd-yuvasına köçürülməsi davam edir. Ötən il mayın 28-dən başlayaraq laçınlıların doğma yurda dönüşünə start verilib. İndiyədək Laçına 3200-ə yaxın əhali köçürülüb. Onlardan 2100-ü Laçın şəhərində, 1100 nəfəri isə Sus və Zabux kəndlərində məskunlaşıb. Sus kəndinin yaxınlığındakı Bəylik kəndinə də 2025-2026-cı illərdə 91 ailənin köçürülməsi planlaşdırılır. Xatırladaq ki, Prezident İlham Əliyevin 2023-cü il iyulun 31-də imzaladığı Sərəncama əsasən Laçın şəhərinin işğaldan azad edildiyi 26 avqust tarixi Laçın Şəhəri Günü kimi qeyd olunur. Bu gün laçınlılar şəhər gününü doğma evlərində sonsuz qürur və sevinc hissi ilə bayram edirlər.

***Sevinc Azadi***





# Gürcüstanın taleyi həll olunur

## Yaxud Qərb ikinci Maydana hazırlaşır

***Oktyabrın 26-da Gürcüstanda keçiriləcək parlament seçkiləri ölkə üçün 1991-ci ildən bəri ən mühüm seçki olacaq. Qərb jurnalistləri, ölkənin indiki rəhbərliyini "rusiyapərəst" və seçkiləri isə "fırıldaqçılığa hazırlıq" kimi qeyd edirlər. Onlar hətta iddia edirlər ki, Qərb Gürcüstanda Maydan təşkil etməlidir. ABŞ və Avropa ölkələrində hakim partiyanın Rusiyaya açıq rəğbət bəslədiyi və antidemokratik davranışlardan çəkinmədiyi ölkədə azad və ədalətli rəqabət gözləyənlər azdır. Bu gün Tbilisidə siyasi atmosfer məşum dərəcədə gərgindir. Gürcüstanda keçiriləcək parlament seçkiləri 1991-ci ildə Sovet İttifaqının küllərindən müstəqil dövlət kimi çıxan Cənubi Qaqaz ölkəsi üçün ən mühüm seçki olacaq.***

İlk baxışdan belə görünə bilər ki, Gürcüstanı iki mümkün gələcək gözləyir: hakim "Gürcü arzusu" partiyası hakimiyyətdə qalarsa, avtoritarizmə sürüşmək və Rusiya ilə ittifaq və ya qalib müxalifət hakimiyyətə gələrsə, demokratiya və Avropayönlü yol. Ancaq bu ağ-qara şəkil çox sadələşdirir, həqiqət isə daha mürəkkəbdir.

### Nə təhlükə var

2022-ci ilin fevralında Kremlin Ukraynada xüsusi əməliyyatına başlaması ilə Gürcüstan bir anda iki cəbhədə döyüş meydanına çevrildi: bir tərəfdən "Gürcü arzusu" ilə onun əleyhdarları arasında, digər tərəfdən isə Rusiya və Qərb müttəfiqləri və himayədarları arasında. Tiflisdə siyasi parçalanmanın dərəcəsi o qədər böyükdür ki, seçki kampaniyası zamanı iqtidar və müxalifət nümayəndələrinin televiziya, radio və ya digər KİV-də bir-biri ilə mübahisə etməsi hallarına rast gəlinməyib. Qarşılıqlı etimadın kölgəsi yoxdur. Müxalifətdə müasir dövrün ilk müstəqil Gürcüstan dövlətinin taleyi ilə bağlı ağrılı xatirələr qalıb. 1918-ci ildən 1921-ci ilə qədər demək olar ki, Gürcüstan adlı dövlət mövcud olmayıb, Sovet İttifaqı tərəfindən mənimsənilib.

Müxalifət indi ehtiyat edir ki, "Gürcü Arzusu" hakimiyyəti əlində saxlayarsa, ölkə tamamilə Rusiyanın təsiri altına düşəcək və öz qiymətli və kövrək demokratiyasını və vətəndaş azadlıqlarını itirəcək. Belə bir nəticə Qərbin maraqlarına və nüfuzuna ağrılı zərbə olacaq. ABŞ və onun Avropadakı müttəfiqləri isə özlərini elə aparırlar ki, guya Gürcüstanın müstəqilliyini dəstəkləyirlər. Avropa İttifaqı hətta Gürcüstana namizəd üzvlük statusu da vermişdi. Amma sonradan "Gürcü Arzusu" hökumətinin demokratiyadan geri çəkilməsi və Rusiyayönlü rəğbətin artmasını bəhanə edən Qərb inteqrasiya prosesinə "stop" qoydu, onu dayandırdı.

### Rusiyanın Gürcüstandakı rolu

Moskva isə öz növbəsində Gürcüstanı Rusiyanı Qərbdən ayıran postsovet sərhədlərində özünün qanuni təsir dairəsinin bir hissəsi hesab etməkdə davam edir. Ruslar hətta fikirlərində belə heç vaxt Gürcüstanı tərk etməyiblər. 2008-ci ildəki qısamüddətli müharibədə Rusiya faktiki olaraq Gürcüstanın iki regionunu, Abxaziya və Cənubi Osetiyanı nəzarətə götürdü və burada 10 minə yaxın əsgər və təhlükəsizlik işçisi yerləşdirdi. Cənubi Osetiya Tbilisidən avtomobillə cəmi bir saatlıq məsafədədir. Hazırda Rusiyanın Gürcüstana hərbi müdaxiləsinin heç bir əlaməti yoxdur. Bununla belə, Tbilisidə qərbyönlü hökumətin hakimiyyətə gələcəyi təqdirdə Kremlin seçkinin nəticələrini qərəzsiz qəbul edəcəyini düşünmək olmaz. Gürcüstan indi 1991-ci ildə müstəqillik əldə etdikdən sonra bəlkə də ən çox rusiyapərəst hökumətə sahibdir və bəzi hallarda "Gürcü Arzusu" belə fəaliyyət göstərir. Demokratiyanı sarsıtmaq cəhdlərində Putinin əsas məqsədi bu rusiyayönlü qüvvələrin, xüsusən də partiyanın qurucusu və faktiki lideri Bidzina İvanişvilinin sabitliyini təmin etməkdir.

### Demokratiyadakı uğursuzluqlar

Bununla belə, bu seçkiləri despotizmlə azadlıq arasında və ya Rusiya ilə Qərb arasında birbaşa rəqabət kimi qələmə vermək Gürcüstanın son 30 ildəki siyasi trayektoriyasının əsas xüsusiyyətlərini qaçırmaq deməkdir. Stokholm Şərqi Avropa Araşdırmaları Mərkəzi üçün şərhində Markus Qreyş müstəqillik əldə etdikdən sonra Gürcüstanı narahat edən üç uzunmüddətli problemi müəyyənləşdirib: Birinci problem dərin siyasi və sosial uçurumdur. İkincisi, bütün Gürcüstan hökumətlərinin gec-tez avtoritarizmə düşməsidir. Üçüncüsü, xalqın paradoksal olaraq həm Aİ-ni, həm də "Gürcü Arzusu"nu eyni zamanda dəstəkləməsidir. Bu, Qərb liderlərini məyus edir və gürcülərin Aİ üzvlüyünün nə ilə nəticələnəcəyini yaxşı başa düşüb-düşməməsinə şübhə yaradır.

1991-ci ildən bəri milli müstəqilliyin müdafiəçiləri və siyasi azadlığın müdafiəçiləri kimi fəaliyyətə başlayan bütün hökumətlər gec-tez korrupsiya və qanunun aliliyindən sui-istifadə ilə çirklənmiş avtokratiyanın dərin qüsurlu formalarına düşdülər. Bu, Gürcüstanın ilk post-kommunist prezidenti Zviad Qamsaxurdiyaya aiddir. Bir vaxtlar Qərbdə Mixail Qorbaçovun dövründə SSRİ-nin uzaqgörən xarici işlər naziri kimi hörmət edilən Eduard Şevardnadze, islahatçı diktator Mixail Saakaşvili, indi isə İvanişvili.

### Müxalifətin zəif tərəfləri

Gürcüstanın Saakaşvili dövründən qalma dörd əsas müxalifət partiyası ciddi problemlər yaşamaqdadırlar. "Həm "Gürcü Arzusu"nun, həm də müxalifətin xalqın əksəriyyəti ilə əlaqəsi kəsilib və insanlar özlərini siyasi proseslərdən uzaq hiss edirlər. Hakimiyyəti dövründə Saakaşvili və onun partiyası seçicilərin kritik kütləsini özlərindən uzaqlaşdırıblar, onlar səs verməkdən qəti şəkildə imtina edirlər. Oxşar arqumentləri Avropa Siyasətinin Təhlili Mərkəzi üçün Beka Çedia da irəli sürür: "Müxalifətin parçalanma ilə yanaşı, şəxsiyyət və özünüdərk problemi də var ki, kiçik partiyalardan hansının bir hissəsi olduğunu anlamaq seçicilər üçün çətindir". Qarşıdan gələn seçkilərə qərbyönlü və rusiyayönlü qüvvələrin qarşıdurması kimi baxmaq kifayət deyil. Paytaxtdan uzaqda yerləşən periferiyada seçicilər də bunu bir növ Saakaşvili ilə İvanişvili arasında döyüş hesab edirlər. Başqa sözlə, Gürcüstan siyasətinin avtokratların arenası kimi imici qalmaqdadır.

Azad seçki şansları azdır

Gürcüstanda seçkilərlə bağlı ictimai rəy sorğularına ehtiyatla yanaşmaq lazımdır. Bununla belə, müstəqil ekspertlərdən birinin fikrincə, "Gürcü arzusu"nun şəxsi sorğusu onun 40%-dən çox səs toplamaq üçün mübarizə aparacağını göstərib. Lakin fakt budur ki, proporsional seçki sistemi ilə "Gürcü arzusu" hətta 37-38 faiz səslə də parlamentdəki yerlərin yarısından bir qədər çoxunu ala bilər. Əgər bir və ya bir neçə müxalifət partiyası beş faizlik baryeri keçməsəydi, hakim partiya çox faydalı olardı.

"Gürcü arzusu"nun ölkənin seçki komissiyalarına təsirini, məhkəmə sisteminə nəzarəti, seçicilərin rüşvətxorluğunu və müxalifət fəallarının qorxudulmasını nəzərə alsaq, partiyanın qələbəsini təmin etmək üçün hansısa manipulyasiyalara gedəcəyini təsəvvür etmək çətindir. Gürcüstanın keçmiş səfiri və milli təhlükəsizlik üzrə mütəxəssis Şota Qineriya deyib ki, rejim dövlət resurslarından sistematik olaraq seçicilərə təsir göstərmək üçün insanlara dəstək müqabilində əfv, həbsdən vaxtından əvvəl azad edilmə və cərimələrin bağışlanması kimi imtiyazlar təklif edib.

### Mümkün nəticələr

Seçkilərin mümkün nəticələrinin siyahısı yaxşıdan dəhşətə qədər bütün spektri əhatə edir. Polşa ssenarisi ən az ehtimaldır. Bir il əvvəl Varşavada mühafizəkarların və millətçilərin qeyri-liberal hökuməti keçmiş baş nazir Donald Tuskun rəhbərlik etdiyi müxalifətə seçkilərdə məğlub olmuşdu. Bəzi çətinliklərə baxmayaraq, Tusk və müttəfiqləri sülh yolu ilə vəzifəsinin öhdəsindən gələ bildilər. Gürcüstanda belə nəticə çətin görünür. Hakim partiya öz mövqeyindən əl çəkmək fikrində deyil, o, dövlət hakimiyyətinin demək olar ki, bütün rıçaqlarını öz əlində cəmləyib və bütün imkanlara malikdir.

Spektrin əks ucunda Belarus ssenarisi var. 2020-ci ildə Aleksandr Lukaşenkonun prezident seçkilərində qalib gəldiyini bəyan etməsindən sonra kütləvi etirazlar başlamışdı. Lukaşenko nümayişçilərlə uğurla mübarizə apardı və bu gün Belarus da Rusiya qədər azaddır.

Üçüncü serb variantıdır. Prezident Aleksandar Vucic və onun hakim partiyası Serbiyada keçirilən seçkilərdə müntəzəm olaraq qalib gəlir. Lakin Qərb hər zaman özünü yalnız Vuçiçi danlamaqla məhdudlaşdırır, çünki əsas məqsədi Serbiya ilə işgüzar münasibətləri saxlamaqda görür.

### Qeyri-sabitlik və ya zorakılıq riski

Əgər "Gürcü arzusu" seçkilərdə qalib gəlsə hakimiyyətə qarşı küçə etirazları mümkündür. Post-kommunist Gürcüstanın tarixi nə gözləyəcəyinə dair ipuçları ilə doludur. 2003-cü ildə seçkilərlə bağlı ictimai qəzəb o vaxtkı prezident Şevardnadzeni devirən nümayişlərə səbəb oldu. Şevardnadze istefa verməklə hadisələrin daha sonra adlandırılacağı kimi "Qızılgül İnqilabı"nın əsasən dinc şəraitdə qalmasını təmin etdi. Oktyabrın 26-dan sonra da eyni şey ola bilərmi? Buna şübhə etmə olmaz. Temperament və motivasiya baxımından İvanişvili Şevardnadzedən çox fərqlənir. Kreml onu açıq şəkildə dəstəkləyir.

İdeal olaraq, seçkinin mübahisəli nəticəsi olduğu halda, ABŞ və Avropa hökumətləri 2014-cü ildə Ukrayna Maydan inqilabı zamanı olduğu kimi, vasitəçilik rolunu oynamaq üçün müdaxilə edəcəklər. Lakin Ukraynanın yeni hökuməti və onun qərbli dostları bu hakimiyyət dəyişikliyi üçün yüksək qiymət ödədilər - Krımı itirdilər, Donbassda üsyan qızışdırıldı və 2022-ci ildə Rusiya bu ölkəyə qoşun yeritdi. Bu gün Gürcüstanın taleyi həll olunur.

**V.VƏLİYEV**

RAKURS

# Anatomiya ilə tərs mütənasib GÖZƏLLİK...



***İnsan anatomiyası onun zahiri görünüşünü, orqanizmin quruluşunu, formasını və onu təşkil edən toxumaların, orqanların bir-biri ilə və eyni zamanda xarici mühitlə orqanizmin qarşılıqlı əlaqəsini öyrənir. Anatomiya morfoloji elmlərdəndir, ( "morfo" - forma, "logos" - elm) deməkdir. 15 oktyabr-Dünya Anatomiya Günü fonunda gözəl görünmək üçün anatomiyasını təhlükə ilə üz-üzə qoyan, "gözəlliyi" ilə təbii anatomiyası arasında tərs mütənasiblik yaradanlardan danışaq.***



### Necə doğulmusansa, elə də ölməlisən?..

İnsan Allahın yaratdığı, yer üzərinə gəlməsini əmr etdiyi bəndədir. Allahın məsləhəti ilə gözəl, yaraşıqlı da yarana bilirik, bir qədər əksinə də. Lakin çirkin insan yoxdur, gözəllik insanın daxilindədir, deyimləri ilə çox razılaşıram. Həqiqətən də çirkin insan, xüsusilə də qadın yoxdur. Lakin baxımsız qadın, həmçinin də kişi var. Həm də hər kəsin gözəl bir tərəfi var: xarici görünüşdə və ya daxili aləmdə.

Lakin zamanla nədənsə biz öz gözəlliyimizlə, Allahın bizə məsləhət bilib bəxş etdikləri ilə kifayətlənmirik. Belə ki, dünyamızın müasirləşməsi bəlli məsələdir. İllər bir-birindən fərqli gəlir. Həyatımıza yeniliklər daxil olur. Texnologiyalar inkişaf edir, tibb elmi inkişafın zirvəsinə qalxır. Bütün bunlar isə insan həyatından təsirsiz ötmür. Texnologiyanın inkişafı ilə hələ illər öncə insanlar bütün dünya ilə tanış oldular. Dünyanın yeniliklərini bir anın içində evlərinin içərisinə, əllərindəki telefonlara gətirdilər. Beləliklə də bütün dünyada olanlarla, tibbi, kosmetik yeniliklərlə, mümkünsüz olmayanların hər biri ilə tanış oldular. Və bir də gördük ki, həmin yeniliklərin hər biri, budur ölkəmizdə, qapımızın ağzındadır. Biz nə etdik? Başladıq həmin yeniliklərdən istifadə etməyə. Başladıq Allahın bizə məsləhət bilib verdiyi orqanlarımıza düzəlişlər etməyə. Söhbət estetik əməliyyatlardan və kosmetik toxunuşlardan gedir.

Bəzi insanlar, əsasən də orta yaş qrupunda olanların əksəriyyəti bu fikirdədir ki, Allah səni necə yaradıbsa, ömrünün sonunadək o cür də qalmalısan. Daha doğrusu, necə doğulmusansa, elə də ölməlisən. Lakin çoxları da bu fikirdə deyil. Çünki indi mümkün olanların heç biri əvvəlki illərdə mümkün deyildi. Onlar da həmin mühitdə yaşadıqları üçün indiki mümkünlərlə barışa bilmirlər. Lakin eybəcər burun bir qızın taleyinə mənfi təsir göstərirsə, onunla heç kim bu görünüş üçün ailə qurmursa, o burnu əməliyyatla formaya salıb həmin qızın həyatındakı maneəni aradan qaldırmaq əsla pis iş deyil.

İstər qız, istərsə də oğlan olsun, sızanaqla dolu üzü ilə insanlardan utanır, çəkinir, çox halda depressiyaya qapılır. Bunu aradan qaldırmaq üçün müəyyən kosmetik müalicələr əgər yaxşı nəticə verirsə, o sifət nə üçün əvvəlki kimi qalmalıdır?

Saçlarımızdakı kəpək və yaxud başımızın hansısa bir hissəsində keçəlləşmə bizi utandırırsa, nə üçün onu aradan qaldırmayaq. Və yaxud da mümkün olan təqdirdə üzümüzdəki qırışlardan nə üçün yaxa qurtarmayaq? Düşünürəm ki, oxucularımız da bizimlə razılaşar ki, bəli, bir sıra estetik əməliyyatlar və kosmetik toxunuşlar lazımdır, bəzi halda isə vacibdir.

Lakin məsələnin digər tərəfi-lüzumsuz əməliyyatlar, gərəksiz dolğular qətiyyən lazım deyil. Bu, birinci, insan sağlamlığına ziddir. İkinci, uğursuz olma təhlükəsi var ki, bizi gülünc vəziyyətə sala bilər. Belə olanda biz Allah bəndələrini nə gözləyir?..

### Çirkinliyə xidmət edən gözəllik

Beləliklə də biz Allahın bəndələri ola-ola, işini bacarmayan, peşəsinin sahibi olmayanların bəndinə düşürük. Özümüzü çirkin bilib gözəlləşdirməyə çalışdığımız təqdirdə böyük vəsait sərf etməyə baxmayaraq əvvəlkindən də bərbad vəziyyətə düşürük. Məsələn, qarşılaşdığım faktlardan bir neçəsi haqqında danışmaq istəyirəm. Yaxın tanışlarımızdan birinin qızının burnu anadangəlmə xoşagəlməz vəziyyətdə idi. Bütün qohumlar, yaxınlar qızın valideynlərinə məsləhət bildilər ki, bu burun hökmən əməliyyat olunmalıdır. Çünki qız burnundan utanır, xəcalət çəkirdi. Böyüdükcə tamamilə özünə qapılırdı. Sual olunur, əgər yaşadığımız dövrdə bu, mümkündürsə, həmin qızı depressiyadan çıxarmaq olarsa, nə üçün olmasın ki? Bunu onun valideynləri də qəbul etdilər və övladlarının burnunun əməlyyat olunmasını planlaşdırdılar. Beləliklə, qız əməliyyat olundu, lakin nəticə yaxşı olmadı. Əməliyyatı məşhur həkimlərdən birinin etməsinə baxmayaraq əvvəlki burunla yeni burun arasında azacıq fərq hiss olundu. Deməli, bu işdə heç də bütün həkimlərə ümid etmək olmaz. Onlar lazım olan məbləği almağı yaxşı bacarır, lakin gördükləri işin pis nəticəsini boyunlarına götürmürlər: ay nə bilim dəridə, ay nə bilim sümükdə problem var, nə edim, belə alındı.

Və yaxud, bu günlərdə küçədə bir qadınla rastlaşdım. Təsadüfən başımı qaldırıb üzünə baxanda, "Bismillahir rəhmanir rəhim",- dedim. Elə xoflandım ki, bədənim əsməyə başladı. Qadının dodaqları üzünün dörddə iki hissəsini əhatə edirdi. Bir anlığa düşündüm ki, İlahi, yazıq, buna nə olub belə, görəsən? Lakin daha bir nəzər saldıqda bu dodaqlara dolğu vurulduğunu açıqca anladım. Burada iki variant var: ya qadın "dəbdir",- deyib, özü istəyib dodaqlarını bu günə saldırıb, ya da müraciət etdiyi kosmetoloq-işinin sahibi olmayan kosmetoloq onu bu günə qoyub. Heç inana bilmirəm ki, hansısa bir qadın özünü belə eybəcər vəziyyətə salmağa çalışa. Sadəcə bir qədər dolğu istəyib, lakin düzgün ünvan, düzgün həkim seçmədiyindən bu günə qalıb.

Dodaqlardan söz düşmüşkən, iş yoldaşım Lalə Mehralı bu günlərdə şəhərimizdəki gözəllik salonlarından birinə gedibmiş. Burada qəribə bir mənzərə ilə qarşılaşıb. Deməli, salonda çalışan beş qadın bir-birinin dodağına dolğu vurur. Bunun üçün lazım olan preparatı isə internet üzərindən əldə edirlər. Lalə xanım bu preparatın tərkibinin nə olduğunu bilirsiniz, sizin üçün təhlükəli ola bilər deyəndə, qadınlar "ey, nə qorxmaq, heç nə olmaz..."- deyə cavab veriblər.



Həqiqətən də göründüyü kimi, həyat və sağlamlığını təhlükə ilə üz-üzə qoyan qadınlar var.

Bu yaxınlarda metroda bir qadınla rastlaşdım. Qaşları kənardan çağırırdı ki, mən bacarıqsız kosmetoloqun uğursuz işiyəm. Vallah, mən həyatda elə qaş görməmişdim. Rəngi açıq bənövşəyi idi. Quruluşu da, necə deyərlər, "qaşlar kamana dartılmışdı" misalı kimi. Bu deyim təbii gözəllərimiz üçün deyilib, düzdür. Gördüyüm bu qaşlar da kamana dartılmışdı, amma ikiqat kamana. Ümumiyyətlə, son vaxtlar bu qaş məsələsi çox dəbdədir. Təsadüfi qadın tapılar ki, öz qaşını daşısın. Əksər qadınlarımız isə saxta qaşlarla özləri üçün gözəllik yaradırlar. Əslində buna gözəllik demək olarsa. Bu qaşların ya rəngində, ya qalınlığında, uzunluğunda elə bir səhvə yol verilir ki, vallah, məəttəl qalırsan.

Lakin onu da vurğulayaq ki, uğurlu qaşlar da var. Kənardan saxtalığı hiss olunmayan qaşlar. Belə olan təqdirdə qaşları nazik, əyri-üyrü olan qadınlar yaxşı ustalara müraciət edə bilərlər, təbii ki. Lakin necə deyərlər, elə bir dövrə gəlib çıxmışıq ki, indi qaşı gözəl olan da, çirkin olan da, hamı Allahın verdiyini silib, yenisini çəkdirir.

Son vaxtlar ceyrangöz qadınlarla da qarşılaşırıq. Sözün həqiqi mənasında, işini yaxşı bilən həkimlərimiz var, yaxşı da əl işləri var. Amma görünür bütün bunların əksi olan həkimlərimiz də var ki, qadınları bu vəziyyətə salırlar. Bilmirəm bu gözü hara dartırlar, haradan asırlar, lakin baxırsan ki, qaş kamana çəkilib, altında da göz onunla birlikdə kamandadır. Bax, burnu anladıq, qırışları, sızanaqları, keçəlliyi də anladıq, gözlərin ceyran gözünə bənzədilməsini anlamaq mümkün deyil axı. Bu göz durub da yerində, niyə onu dartıb kamana çəkməliyik ki? Həm də işini bilməyən həkimin əli ilə. Nəticədə isə gözlərimiz ceyranın yox, qurbağanın gözlərinə oxşayır.

### Gördük ki...

Elə ki, texnologiyalar həyatımıza yol açdı, müasirlik qapımızı döydü, biz başladıq onlardan yetərincə istifadə etməyə. Həm də ehtiyacımız olduğu və olmadığı halda. Öyrəndiklərimiz və ya başımıza yeridilənlər, sözün həqiqi mənasında, zamanla bir dəbə çevrildi. Bizlər də dəblərə meylli olduğumuzdan, təbii ki, bunların hər birini böyük həvəs və şövqlə həyatımıza daxil etdik.

Tələbat artdıqca, qadınlarımız öz gözəlliyini silib yeni bir gözəlliyin ardınca getdikcə, heç bir tibbi təhsili, təcrübəsi olmayan insanlar da bir "obyekt" açıb başladılar insanlara "gözəllik" paylamağa. Yaxşı həkimlərimizdən fərqli olaraq onlar bu prosedurları daha ucuz qiymətə, ucuz preparatlarla etdikləri üçün əksər qadınlarımız onlara müraciət etdi. Nəticə isə bu gün göz qabağında gördüklərimiz oldu. Gördük ki, bu qadın dünən bugünkündən daha gözəl, təbii idi. Gördük ki, bu qaş bu qadına əsla yaraşmayıb. Gördük ki, bu burun üçün bu qədər xərc çəkməyə dəyməzmiş, çünki heç bir dəyişiklik olmayıb. Gördük ki, bu dodaqlar ətrafa qorxu saçır. Gördük ki, səhv dolğu bu qadının üzünün bütün mimikasını dəyişib, o bizim tanıdığımız qadın deyil. Gördük ki, bu gözlər heç də ceyranın gözlərinə oxşamır, bilmədiyimiz, qarşılaşmadığımız bir göz formasıdır.

Bütün gördüklərimizin fonunda isə deyə bilərik ki, özünüzü bu vəziyyətə salmayın, əziz qadınlar. Pulunuzu sizi gözəlləşdirən deyil, çirkin görkəmə salan həkimlərə verməyin. Deməyin ki, bu cür qaşlar, bu cür gözlər indi dəbdədir, məndə də olmalıdır. Unutmayın ki, ən yaxşı dəb bizə yaraşandır. İnanın, bəlkə də kimlərsə sizin könlünüzün xoş olması üçün, "ay, nə gözəl olmusan",- deyir. Lakin inanın, kənardan özünüzə çıxsanız "mən ki gözəl deyiləm",- deyərsiniz...

### Gözəlliyə, gözəlləşməyə doğru düşünülmüş addımlarla...

Gözəllik elə bir anlayışdır ki, onu düşünən zaman gözlərin önündə yalnız gözəl olan şeylər canlanır. Və yaxud gözəllik elə bir görüntüdür ki, onu görən kimi munis duyğular ruhuna hakim kəsilir. Odur ki, biz insan övladı gözəl olmaq, gözəl görünmək istəyirik. Əksər hallarda gözəl sözlər danışmasaq da, lakin gözəl görünməyi çox istəyirik. Hansı ki, gözəl görünməklə gözəl danışmağın harmoniyası dünyanı xilas etmək iqtidarındadır. Belə isə həm gözəl görünək, həm də gözəl danışaq. Gözəl danışmaq da, gözəl görünmək də öz əlimizdədir. Danışmaq istəsək, danışarıq. Ağzımızı açmaqla hər kəsi o gözəlliyin tamaşaçısına çevirə bilərik.

Bəs gözəl görünmək necə? Bəli, bu da bizim öz əlimizdədir. Sadəcə nə etməli olduğumuzu bilməliyik. Təəssüf ki, gözəl görünmək üçün bəzən elə səhvlərə yol veririk ki, o bizim gözəlliyimizə yox, çirkinliyimizə, xoşagəlməz görünməyimizə gətirib çıxarır. Bu səbəbdən də gözəlliyimizi belə qurbanlara çevirməyək.

İnsan anatomiyasısa zəncirvari bir sistemlə qurulub. Ona azacıq müdaxilə bu prosesə zərbə vurur. Bu gün gənc olan qadın sümüklərinə, toxumalarına "əl gəzdirir", lakin yaşlandıqca bunun nə ilə nəticələnəcəyindən xəbəri yoxdur.

Onlarla qadın və kişi kosmetoloji əməliyyatların qurbanı olub. Bunları eşidirik, lakin eşitməmiş kimi gözəl görünmək üçün davam edirik. Allahın bizə verdiyi anatomiyanı zədələyirik. Bu isə ömrümüzün qısalmasına, yaşlananda ağır işgəncələrlə üz-üzə qalacağımıza xidmət edir. Heç olmasa, bunları düşünək.

***Mətanət Məmmədova***





# Gürcüstanın taleyi həll olunur

## Yaxud Qərb ikinci Maydana hazırlaşır

***Oktyabrın 26-da Gürcüstanda keçiriləcək parlament seçkiləri ölkə üçün 1991-ci ildən bəri ən mühüm seçki olacaq. Qərb jurnalistləri, ölkənin indiki rəhbərliyini "rusiyapərəst" və seçkiləri isə "fırıldaqçılığa hazırlıq" kimi qeyd edirlər. Onlar hətta iddia edirlər ki, Qərb Gürcüstanda Maydan təşkil etməlidir. ABŞ və Avropa ölkələrində hakim partiyanın Rusiyaya açıq rəğbət bəslədiyi və antidemokratik davranışlardan çəkinmədiyi ölkədə azad və ədalətli rəqabət gözləyənlər azdır. Bu gün Tbilisidə siyasi atmosfer məşum dərəcədə gərgindir. Gürcüstanda keçiriləcək parlament seçkiləri 1991-ci ildə Sovet İttifaqının küllərindən müstəqil dövlət kimi çıxan Cənubi Qafqaz ölkəsi üçün ən mühüm seçki olacaq.***

İlk baxışdan belə görünə bilər ki, Gürcüstanı iki mümkün gələcək gözləyir: hakim "Gürcü arzusu" partiyası hakimiyyətdə qalarsa, avtoritarizmə sürüşmək və Rusiya ilə ittifaq və ya qalib müxalifət hakimiyyətə gələrsə, demokratiya və Avropayönlü yol. Ancaq bu ağ-qara şəkil çox sadələşdirir, həqiqət isə daha mürəkkəbdir.

### Nə təhlükə var

2022-ci ilin fevralında Kremlin Ukraynada xüsusi əməliyyatına başlaması ilə Gürcüstan bir anda iki cəbhədə döyüş meydanına çevrildi: bir tərəfdən "Gürcü arzusu" ilə onun əleyhdarları arasında, digər tərəfdən isə Rusiya və Qərb müttəfiqləri və himayədarları arasında. Tiflisdə siyasi parçalanmanın dərəcəsi o qədər böyükdür ki, seçki kampaniyası zamanı iqtidar və müxalifət nümayəndələrinin televiziya, radio və ya digər KİV-də bir-biri ilə mübahisə etməsi hallarına rast gəlinməyib. Qarşılıqlı etimadın kölgəsi yoxdur. Müxalifətdə müasir dövrün ilk müstəqil Gürcüstan dövlətinin taleyi ilə bağlı ağrılı xatirələr qalıb. 1918-ci ildən 1921-ci ilə qədər demək olar ki, Gürcüstan adlı dövlət mövcud olmayıb, Sovet İttifaqı tərəfindən mənimsənilib.

Müxalifət indi ehtiyat edir ki, "Gürcü Arzusu" hakimiyyəti əlində saxlayarsa, ölkə tamamilə Rusiyanın təsiri altına düşəcək və öz qiymətli və kövrək demokratiyasını və vətəndaş azadlıqlarını itirəcək. Belə bir nəticə Qərbin maraqlarına və nüfuzuna ağrılı zərbə olacaq. ABŞ və onun Avropadakı müttəfiqləri isə özlərini elə aparırlar ki, guya Gürcüstanın müstəqilliyini dəstəkləyirlər. Avropa İttifaqı hətta Gürcüstana namizəd üzvlük statusu da vermişdi. Amma sonradan "Gürcü Arzusu" hökumətinin demokratiyadan geri çəkilməsi və Rusiyayönlü rəğbətin artmasını bəhanə edən Qərb inteqrasiya prosesinə "stop" qoydu, onu dayandırdı.

### Rusiyanın Gürcüstandakı rolu

Moskva isə öz növbəsində Gürcüstanı Rusiyanı Qərbdən ayıran postsovet sərhədlərində özünün qanuni təsir dairəsinin bir hissəsi hesab etməkdə davam edir. Ruslar hətta fikirlərində belə heç vaxt Gürcüstanı tərk etməyiblər. 2008-ci ildəki qısamüddətli müharibədə Rusiya faktiki olaraq Gürcüstanın iki regionunu, Abxaziya və Cənubi Osetiyanı nəzarətə götürdü və burada 10 minə yaxın əsgər və təhlükəsizlik işçisi yerləşdirdi. Cənubi Osetiya Tbilisidən avtomobillə cəmi bir saatlıq məsafədədir. Hazırda Rusiyanın Gürcüstana hərbi müdaxiləsinin heç bir əlaməti yoxdur. Bununla belə, Tbilisidə qərbyönlü hökumətin hakimiyyətə gələcəyi təqdirdə Kremlin seçkinin nəticələrini qərəzsiz qəbul edəcəyini düşünmək olmaz. Gürcüstan indi 1991-ci ildə müstəqillik əldə etdikdən sonra bəlkə də ən çox rusiyapərəst hökumətə sahibdir və bəzi hallarda "Gürcü Arzusu" belə fəaliyyət göstərir. Demokratiyanı sarsıtmaq cəhdlərində Putinin əsas məqsədi bu rusiyayönlü qüvvələrin, xüsusən də partiyanın qurucusu və faktiki lideri Bidzina İvanişvilinin sabitliyini təmin etməkdir.

### Demokratiyadakı uğursuzluqlar

Bununla belə, bu seçkiləri despotizmlə azadlıq arasında və ya Rusiya ilə Qərb arasında birbaşa rəqabət kimi qələmə vermək Gürcüstanın son 30 ildəki siyasi trayektoriyasının əsas xüsusiyyətlərini qaçırmaq deməkdir. Stokholm Şərqi Avropa Araşdırmaları Mərkəzi üçün şərhində Markus Qreyş müstəqillik əldə etdikdən sonra Gürcüstanı narahat edən üç uzunmüddətli problemi müəyyənləşdirib: Birinci problem dərin siyasi və sosial uçurumdur. İkincisi, bütün Gürcüstan hökumətlərinin gec-tez avtoritarizmə düşməsidir. Üçüncüsü, xalqın paradoksal olaraq həm Aİ-ni, həm də "Gürcü Arzusu"nu eyni zamanda dəstəkləməsidir. Bu, Qərb liderlərini məyus edir və gürcülərin Aİ üzvlüyünün nə ilə nəticələnəcəyini yaxşı başa düşüb-düşməməsinə şübhə yaradır.

1991-ci ildən bəri milli müstəqilliyin müdafiəçiləri və siyasi azadlığın müdafiəçiləri kimi fəaliyyətə başlayan bütün hökumətlər gec-tez korrupsiya və qanunun aliliyindən sui-istifadə ilə çirklənmiş avtokratiyanın dərin qüsurlu formalarına düşdülər. Bu, Gürcüstanın ilk post-kommunist prezidenti Zviad Qamsaxurdiyaya aiddir. Bir vaxtlar Qərbdə Mixail Qorbaçovun dövründə SSRİ-nin uzaqgörən xarici işlər naziri kimi hörmət edilən Eduard Şevardnadze, islahatçı diktator Mixail Saakaşvili, indi isə İvanişvili.

### Müxalifətin zəif tərəfləri

Gürcüstanın Saakaşvili dövründən qalma dörd əsas müxalifət partiyası ciddi problemlər yaşamaqdadırlar. "Həm "Gürcü Arzusu"nun, həm də müxalifətin xalqın əksəriyyəti ilə əlaqəsi kəsilib və insanlar özlərini siyasi proseslərdən uzaq hiss edirlər. Hakimiyyəti dövründə Saakaşvili və onun partiyası seçicilərin kritik kütləsini özlərindən uzaqlaşdırıblar, onlar səs verməkdən qəti şəkildə imtina edirlər. Oxşar arqumentləri Avropa Siyasətinin Təhlili Mərkəzi üçün Beka Çedia da irəli sürür: "Müxalifətin parçalanma ilə yanaşı, şəxsiyyət və özünüdərk problemi də var ki, kiçik partiyalardan hansının bir hissəsi olduğunu anlamaq seçicilər üçün çətindir". Qarşıdan gələn seçkilərə qərbyönlü və rusiyayönlü qüvvələrin qarşıdurması kimi baxmaq kifayət deyil. Paytaxtdan uzaqda yerləşən periferiyada seçicilər də bunu bir növ Saakaşvili ilə İvanişvili arasında döyüş hesab edirlər. Başqa sözlə, Gürcüstan siyasətinin avtokratların arenası kimi imici qalmaqdadır.

Azad seçki şansları azdır

Gürcüstanda seçkilərlə bağlı ictimai rəy sorğularına ehtiyatla yanaşmaq lazımdır. Bununla belə, müstəqil ekspertlərdən birinin fikrincə, "Gürcü arzusu"nun şəxsi sorğusu onun 40%-dən çox səs toplamaq üçün mübarizə aparacağını göstərib. Lakin fakt budur ki, proporsional seçki sistemi ilə "Gürcü arzusu" hətta 37-38 faiz səslə də parlamentdəki yerlərin yarısından bir qədər çoxunu ala bilir. Əgər bir və ya bir neçə müxalifət partiyası beş faizlik baryeri keçməsəydi, hakim partiya çox faydalı olardı.

"Gürcü arzusu"nun ölkənin seçki komissiyalarına təsirini, məhkəmə sisteminə nəzarəti, seçicilərin rüşvətxorluğunu və müxalifət fəallarının qorxudulmasını nəzərə alsaq, partiyanın qələbəsini təmin etmək üçün hansısa manipulyasiyalara gedəcəyini təsəvvür etmək çətindir. Gürcüstanın keçmiş səfiri və milli təhlükəsizlik üzrə mütəxəssis Şota Qineriya deyib ki, rejim dövlət resurslarından sistematik olaraq seçicilərə təsir göstərmək üçün insanlara dəstək müqabilində əfv, həbsdən vaxtından əvvəl azad edilmə və cərimələrin bağışlanması kimi imtiyazlar təklif edib.

### Mümkün nəticələr

Seçkilərin mümkün nəticələrinin siyahısı yaxşıdan dəhşətə qədər bütün spektri əhatə edir. Polşa ssenarisi ən az ehtimaldır. Bir il əvvəl Varşavada mühafizəkarların və millətçilərin qeyri-liberal hökuməti keçmiş baş nazir Donald Tuskun rəhbərlik etdiyi müxalifətə seçkilərdə məğlub olmuşdu. Bəzi çətinliklərə baxmayaraq, Tusk və müttəfiqləri sülh yolu ilə vəzifəsinin öhdəsindən gələ bildilər. Gürcüstanda belə nəticə çətin görünür. Hakim partiya öz mövqeyindən əl çəkmək fikrində deyil, o, dövlət hakimiyyətinin demək olar ki, bütün rıçaqlarını öz əlində cəmləyib və bütün imkanlara malikdir.

Spektrin əks ucunda Belarus ssenarisi var. 2020-ci ildə Aleksandr Lukaşenkonun prezident seçkilərində qalib gəldiyini bəyan etməsindən sonra kütləvi etirazlar başlamışdı. Lukaşenko nümayişçilərlə uğurla mübarizə apardı və bu gün Belarus da Rusiya qədər azaddır.

Üçüncü serb variantıdır. Prezident Aleksandar Vucic və onun hakim partiyası Serbiyada keçirilən seçkilərdə müntəzəm olaraq qalib gəlir. Lakin Qərb hər zaman özünü yalnız Vuçiçi danlamaqla məhdudlaşdırır, çünki əsas məqsədi Serbiya ilə işgüzar münasibətləri saxlamaqda görür.

### Qeyri-sabitlik və ya zorakılıq riski

Əgər "Gürcü arzusu" seçkilərdə qalib gəlsə hakimiyyətə qarşı küçə etirazları mümkündür. Post-kommunist Gürcüstanın tarixi nə gözləyəcəyinə dair ipuçları ilə doludur. 2003-cü ildə seçkilərlə bağlı ictimai qəzəb o vaxtkı prezident Şevardnadzeni devirən nümayişlərə səbəb oldu. Şevardnadze istefa verməklə hadisələrin daha sonra adlandırılacağı kimi "Qızılgül İnqilabı"nın əsasən dinc şəraitdə qalmasını təmin etdi. Oktyabrın 26-dan sonra da eyni şey ola bilərmi? Buna şübhə etmə olmaz. Temperament və motivasiya baxımından İvanişvili Şevardnadzedən çox fərqlənir. Kreml onu açıq şəkildə dəstəkləyir.

İdeal olaraq, seçkinin mübahisəli nəticəsi olduğu halda, ABŞ və Avropa hökumətləri 2014-cü ildə Ukrayna Maydan inqilabı zamanı olduğu kimi, vasitəçilik rolunu oynamaq üçün müdaxilə edəcəklər. Lakin Ukraynanın yeni hökuməti və onun qərbli dostları bu hakimiyyət dəyişikliyi üçün yüksək qiymət ödədilər - Krımı itirdilər, Donbassda üsyan qızışdırıldı və 2022-ci ildə Rusiya bu ölkəyə qoşun yeritdi. Bu gün Gürcüstanın taleyi həll olunur.

**V.VƏLİYEV**

# “Əlaqələr Cənubi Qafqazın inkişafında xüsusi önəmə malikdir”



“Azərbaycan-Gürcüstan əlaqələri hər zaman strateji xarakter daşıyıb, hər iki dövlətin müstəqillik əldə etdiyi ilk illərdə, Ulu Öndər Heydər Əliyev və Gürcüstan Prezidenti Eduard Şevarnadzenin dövründə iki ölkə arasında əlaqələrin güclü təməli qoyulub. Məhz hər iki xalqın liderləri Gürcüstan və Azərbaycanın ilk enerji layihəsi olan Bakı-Tiflis-Ceyhan boru xəttinin əsasını qoyublar. Bu layihələr Cənubi Qafqazın inkişafına, xalqlarımız arasında dostluq və qardaşlıq əlaqələrinin daha da inkişaf etdirilməsinə və regionun enerji təhlükəsizliyi və rifahına öz töhfəsini verib”. Bu sözləri SİA-ya açıqlamasında siyasi şərhçi Vüqar Əhmədov deyib.O bildirib ki, Gürcüstanın ilk müstəqillik illərində, məhz Ulu Öndər Heydər Əliyevin dəstəyi sayəsində Gürcüstan enerji blokadasından çıxa bilmiş və enerjiyə olan tələbatını təmin edə bilmişdir: “Gürcüstan-Azərbaycan əlaqələri ümumilikdə Cənubi Qafqazın inkişafında xüsusi önəmə malikdir və bu gün Azərbaycandan Gürcüstan vasitəsi ilə keçən enerji və qaz boru xətləri və kəmərləri Cənubi Qafqazın həyati əhəmiyyətə malik arteriyaları sayıla bilər. Gürcüstan da ilk növbədə Azərbaycana hər zaman dost və qardaş münasibət göstərmiş, Ermənistanın Azərbaycan torpaqlarını işğalda saxladığı zaman ölkəmizə öz dəstəyini nümayiş etdimişdir.Bu gün müxtəlif sahələrdə, elm, təhsil, mədəniyyət və humanitar sahədə Gürcüstanla-Azərbaycan arasında əlaqələr uğurla inkişaf edir, dost xalqlar arasında geniş şəkildə mübadilə həyata keçirilir, ticari-iqtisadi baxımdan da Gürcüstan Azərbaycanın əsas və etibarlı tərəfdaşlarından biridir. Gürcüstanda yaşayan azərbaycanlıların təhsil və humanitar hüquqları hər zaman Azərbaycan hökumətinin diqqət mərkəzində olmuşdur.

Bu gün uğurla inkişaf edən Gürcüstan-Azərbaycan əlaqələri tək iki ölkə deyil, ümumilikdə regionun, Şərqi Avropanın enerji təhlükəsizliyinin təminatında mühüm rola malikdir. Buna misal olaraq Gürcüstanın da iştirakı ilə Avropa İttifaqının dəstəyi ilə Azərbaycanın yaşıl enerjinin Qara Dəniz vasitəsi ilə Şərqi Avropaya çatdırılması layihəsini qeyd etmək olar.Müasir Gürcüstan-Azərbaycan əlaqələrində şübhəsiz ki, Azərbaycan hökuməti və “Gürcü Arzusu - Demokratik Gürcüstan” partiyası arasında formalaşan müsbət münasibətlərin böyük rolu vardır. Azərbaycan Respublikasının Prezidenti Cənab İlham Əliyev son illərdə bir neçə dəfə Gürcürstana uğurlu səfərlər etmiş, qarşılıqlı əlaqələrin inkişafı və regional əməkdaşlıq məsələləri müzakirə olunmuşdur. Bu xüsusda Gürcüstan hər zaman Azərbaycanın ərazi bütövlüyünə öz dəstəyini nümayiş etdirmiş, təhlükəsiz və sabit Ümumqafqaz evinin formalaşmasına öz töhəsini vermişdir. Azərbaycan Prezidentinin Gürcüstana səfərləri hər zaman dövlətlərarası razılaşmaların əldə olunmasında öz rolunu oynamışdır.Eyni zamanda beynəlxalq təşkilatlar çərçivəsində də biz uğurlu Gürcüstan-Azərbaycan əlaqələrinin inkişafının şahidi olmuşuq və əminəm ki, bu əlaqələr bundan sonra da regionun inkişafında öz çəkisini qoruyub saxlayacaq”.

***Səbinə Hüseynli***

# SƏS TV “SOS” deyəcək: yeni tele-layihə başlayır

***SƏS MEDİA QRUP-un nəzdində fəaliyyət göstərən SƏS TV bu həftədən etibarən yeni proqram yayımlayacaq. Aparıcılar əməkdar jurnalist Mətanət Məmmədova və jurnalist Lalə Mehralının təqdim edəcəyi ”SOS” adlı yeni tele-layihə sosial-ictimai xarakterli olacaq. Layihənin yaradıcıları da aparıcılardır.***




*Proqram həftədə 1 gün, çərşənbə günü, saat 12.00-da SƏS TV-də yayımlanacaq*

Əməkdar jurnalist Mətanət Məmmədova SİA-ya açıqlamasında bildirib ki, proqram milli dəyərlərə xidmət edəcək: ”İllərdir Avropaya açdığımız qapıdan içəriyə daxil olanlar mentalitetimizə, milli-mənəvi və ailə dəyərlərimizə elə zərbə vurub ki, cəmiyyətimizdə artıq çoxsaylı problemlər yaranıb. Bu problemləri həll edib özümüzə qayıda da bilərik, biganə yanaşıb sabah baş verənlərin bugünkündən daha dəhşətli olacağını seyr də edə bilrik. Odur ki, “SOS”la hər kəsi təcili özümüzə qayıtmağa çağırırıq. Cəmiyyətdə baş verən bütün ictimai-sosial problemlərin müzakirəsi aparılacaq, həlli yolları göstəriləcək bu veriliş dünənimizin yaşadılması, müasirliyin özünəməxsus dəyərlərimiz fonunda inkişafı məqsədinə xidmət edəcək”.

Proqramın həmmüəllifi Lalə Mehralının sözlərinə görə, kimliyindən və efirdə olub-olmamasından asılı olmayaraq hər kəs öz cəbhəsində mübarizə aparmalıdır: ”Elə bir dövrdür ki, yad mədəniyyətlər yerli mədəniyyətimizi, milli kimliyimizi udmağa çalışır. Biz hər ikimiz illərdir qəzetdə, saytlarda milli-mənəvi doğruları müdafiə etmişik, sosial-ictimai məsələlərdən yazmışıq. Təəssüf ki, qəzet oxuyanların sayı günü-gündən azalır, biz jurnalistlər də səsimizi daha geniş auditoriyaya çatdıra bilmək üçün fərqli üsullar yoxlamalı oluruq. Hər ikimiz ”SƏS” qəzetinin yazarıyıq, bu layihənin üzərində uzun müddətdir işləyirik. Necə bir proqram etmək istədiyimizi baş redaktorumuz Bəhruz Quliyevə də danışdıq, bizi dəstəklədi, efir üçün şərait yaratdı və beləcə proqram bu həftə efir üzü görəcək. İstəyimiz cəmiyyət üçün faydalı iş görməkdir”.

Layihənin müəllifləri bildirdilər ki, proqramın adını məxsusi olaraq ”SOS” seçiblər: ”Bizi, eləcə də cəmiyyəti narahat edən çox məsələ var ki, haqqında ”SOS” demədən danışmaq olmur. Çox həll olunası problem var, çox narahatlıq yaradan məsələ var ki, onların hamısı haqqında efirdən ”SOS” deyəcəyik. Bizi izləyənlər də öz narahatlıqlarını bizimlə bölüşə, hansı məsələ haqqında istəsələr canlı efirimizə qoşulub ”SOS” deyə biləcəklər”. Qeyd edək ki, proqram həftədə 1 gün, çərşənbə günü, saat 12.00-da SƏS TV-də yayımlanacaq.

## “Bakcell”in baş icraçı direktoru “INMerge” İnnovasiya Sammitində çıxış edib




İnnovasiya və sürət lideri “Bakcell”in tərəfdaşı olduğu “INMerge” İnnovasiya Sammiti uğurla davam edir. Tədbirin ilk günündə “Bakcell”in baş icraçı direktoru KlausMüller ”Aparıcı telekom şirkətlərinin uğurlu strategiyaları” adlı panel müzakirəsinə qatılıb. Tədbirdə KlausMüller ilə yanaşı, “VodafoneGroup”un regional direktoru YohannesHummer, “GSMA”nın strateji əlaqələr üzrə direktoru Tairİsmailov və “Silknet”in İT direktoru CheibannyNagi də iştirak edib. Sessiyada çıxışı zamanı KlausMüller “Bakcell” həyata keçirdiyi innovativ layihələr və məhsullar, gələcək planlar, həmçinin şirkətin “VodafoneGroup”la olan strateji tərəfdaşlığının əhəmiyyəti barədə ətraflı məlumat verib. Bildirilib ki, “Bakcell” və “VodafoneGroup” arasında əməkdaşlıq ölkəmizdə abunəçilərə süni intellekt əsaslı innovativ həllər və texnologiyalar təqdim etməyə imkan verəcək. Qeyd olunub ki, “VodafoneGroup”la əməkdaşlıq çərçivəsində artıq “Bakcell” Azərbaycanda ilk dəfə süni intellekt əsaslı tarif məsləhətçisini istifadəyə verib. İştirakçılara “Bakcell”in “Kapital Bank” və “Uber”lə birgə həyata keçirdiyi layihələr barədə məlumatlar təqdim olunub.

Bundan əlavə, “Bakcell” “INMerge” İnnovasiya Sammitində olan stendi qonaqların böyük marağına səbəb olub. Ziyarətçilər stenddə “Bakcell”in ultrasürətli şəbəkəsini sınaqdan keçirib, virtual reallıq (VR) texnologiyası, şirkətin müxtəlif məhsul və xidmətləri ilə tanış olublar. Tədbir çərçivəsində, həmçinin “Bakcell”in süni intellekt dəstəkli çat-botu təqdim edilib.

# Qəbir

***FELYETON***

Allahverdi kişi: - Ə, gördünüz Həsən kişinin qəbrini? Halal olsun oğluna. Atasının qəbrinin üstündə bir minarə yaradıb ki, gəl görəsən, adam baxanda papağı başından düşür. Oğul belə olar ey. Bizim də oğlumuz var. Allah bilir ki, bizi harada basdıracaq, heç baş daşı, sinə daşı qoymağa imkanı çatacaq, ya yox. Vaxtında dedim ki, ay bala, sən də Həsənin oğluna qoşul get urusetə, qazan, gətir. Mən dedim, mən eşitdim. Getmədi. Amma Həsənin oğlu budur ey, bəlkə 20 ildir ordadır. İndi də gəlib atasına bax belə yaraşıqlı qəbir ucaldıb. Mənimki də yanımdan bir addım o yana çəkilmədi.

Tanrıverdi kişi: - Ay Allahverdi, deyirsən ey, Həsən kişini mən də tanıyırdım da. İllərdir xəstədir, qalıb arvadı ilə o damın altında. Oğlu bircə dəfə maraqlanmadı ki, gedim görüm, atam niyə xəstədir, dərdi nədir. Hə, nə olsun, mən öləndən sonra gəl, özünü camaata göstər.

Allahverdi kişi:- Ə, nə olsun ki, pul göndərirdi də. Ta neynəməli idi ki? Həsən 10 ildir, xəstədir, o da puldur ki, göndərir. Yəqin işi elədir ki, qoyub gələ bilmir də, nə eləsin? Vallah, Tanrıverdi, nə deyirsən de, mən Həsənin oğlunun xətrini çox istəyirəm, halal olsun ona. Yadında, onun dədəsinə verdiyi ehsan. Süfrədə quş südü də var idi. Övlad belə olar ey...

Tanrıverdi kişi ta heç nə demədi. Başını bulayıb aşağı saldı.

Xudaverdi kişi:- Mən oğluma tapşırmışam ki, qəbrim üçün elə yer seçsin, şəhərin ən gözəl mənzərəsi ilə üz-üzə olsun. Boynuna babal qoymuşam, o da söz verib ki, ata, əlimdən gələni edəcəyəm. Mən oğlumdan razıyam, həm yanımdadır, xəstələnirəm başımın üstünü kəsir, xəstəxanaya aparır, həkimə göstərir, dava-dərmanımı alır. Qəbrimə də ki, söz verib, mənzərəli, gözəl bir yer seçəcək.



Tanrıverdi kişi:- Maşallah sənə Xudaverdi, uşağa qəribə iş tapşırmısan. Ə, heç utanırsan dediyin sözdən? Ə, yazıq uşaq sənə haradan tapacaq o yeri? Bilirsən elə yerlərin qiymətini? Uşağı niyə belə çətin işlərə təhrik edirsən? Bizim də sənin kimi bir qohum vardı, onun dədəsi tapşırmamışdı, oğlu yekəxana idi. Kişinin sağlığında bircə dəfə qapısını açıb gəlib demirdi, ay ata, necəsən. Öləndən sonra başladı özünü dost-tanışına göstərməyə. Bir ehsan verdi, gəl görəsən, qəbir yerini də sən demə əvvəlcədən satın alıbmış ki, desinlər, ə, gör nə oğuldur ey, atasını dəfn etdiyi yerə bax... Sonra maraqlandım, dedim görüm o yeri neçəyə alıb, vallah, elə qiymət eşitdim ki, dilim qurudu. Ona görə sənə deyirəm ki, yazıqdır o uşaq, qazancı nədir ki, onun, bu qədər yükün altına girə.

Xudaverdi kişi:- Ə, mənə nə var, qazancı nədir, canı çıxsın, saxlayıb böyütmüşəm, toyunu eləmişəm, o da məni ağır-əziz etməlidir, vəssalam.

Tanrıverdi kişi bu dəfə ta dillənmədi, yenə başını bulayıb aşağı saldı.

Sakitcə dayanıb bayaqdan bəri kişilərin söhbətinə qulaq asan molla görəndə ki, hamının sözü bitdi, o, danışmağa başladı:

-Bilirsiniz, mən dəfələrlə demişəm, amma məni dinləyən yoxdur, yenə də deyirəm:- A kişilər, qəbir təntənəli, bər-bəzəkli olmamalıdır. Belə buyurulub. Baş daşına şəkil vurmaq, sinə daşına şeir yazmaq dinimizdə yasaqdır. Qəbirlərin üstündə cah-cəlallı çardaqlar qurmaq, qəbirləri bahalı daşlarla düzəltmək qəbahətdir. Niyə görəsən insanlar dinləmir, əməl etmirlər? Vallah günah edirlər. Hələ ölməzdən əvvəl qəbir yeri haqqında düşünmək, qəbir yeri seçmək, bu heç düzgün deyil.

Mollanın sözü bitər-bitməz Allahverdi kişi:

-Sən kimə deyirsən, molla. Bəs yaxşı, qadağandırsa, oğlunun qəbrindəki o cahcəlal nədir?

Molla:- Allahverdi, mənim oğlum cavan köçmüşdü axı dünyadan, ona görə elə elədim. Siz onunla özünüzü bir tutmayın ki... Yazıq uşaq nə gün gördü bu xaraba dünyada? Arzusu, diləyi gözündə, ürəyində getdi. Nə toy gördü, nə düyün. Deyirsən onu da eləməzdim onun üçün? Sağ ol, vallah, ta mənim sənə sözüm yoxdur. Molla bu sözləri deyib qəhərləndi və başını aşağı saldı, ta heç danışmadı.

Mollanın bu nitqindən sonra heç kim danışmadı. Elə bir səhərdən bəri çırtaçırtla yanan ocağa su çiləndi. Qəbir söhbəti buradaca bitdi.

***Mətanət Məmmədova***



Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Dini və milli tolerantlıq, millətlərarası münasibətlərin inkişaf etdirilməsi" istiqaməti çərçivəsində hazırlanıb.*

# Dərgahdan dünyaya gələn yol– İnsanın yaradılışı qədim mifologiyalarda

***İnsanın yaradılışı haqda dünyanın qədim mifoloji mənbələrində, həmçinin dini mətnlərdə xeyli maraqlı izahlar var. Mifoloji görüşlərin bir çoxu əfsanə, nağıl kimi qəbul edilir, lakin bir çox mifoloji məqamlar var ki, tarix elmi, arxeologiya elmi tərəfindən təsdiq edilmişdir. Bu səbəbdən mifologiyanı bəzi alimlər "tarixdən əvvəlki tarix" adlandırırlar.***



Məlum olduğu kimi, yazılı tarix 5-6 min ildən o yana keçmir. Ondan əvvəl biliklər şifahi olaraq yayılırdı. Ona görə də müxtəlif xalqların folklorunda bir-birinə oxşar inanılmaz elementlər yer alıb. Halbuki, bu xalqları bir-birindən nəhəng okeanlar ayırır.

İnsanların yaradılışı haqda mifoloji mətnlər təxminən eyni görüşdədirlər. Texniki fərqlər olsa da, ümumi motivlər eynidir. Məsələn, öz kosmoqonik bilikləri ilə dünya elmini heyrətə gətirən Afrikada yaşayan qabonlarda insanların Sirius ulduzunun planetindən köçüb gəldiyi qeyd olunur. Mayyalarda bu Neburu planeti sayılır. Qədim hind Vedalarında günahkar varlıqların ruhi kainatdan maddi bədən alaraq maddi kainata keçirildikləri qeyd olunur. Şumer tabletlərində, Tibet Ölülər kitabında, Misir mifologiyasında, astek və ink sivilizasiyasına aid mifoloji görüşlərdə də buna bənzər məlumatlar var. Zərdüştlükdə və ilk müqəddəs kitab kimi məlum olan Avestada da bu haqda həm elmlə səsləşən, həm yarı anlaşılmaz mifoloji biliklər var.

Bu mövzunun elmi sübutu hələlik mövcud olmadığından insanın yaradılışının və dünyaya gəlişinin qədim dini mifoloji görüşlərdə necə verildiyi haqda qısa məlumatı sizlərə dini-mifoloji görüşlər əsasında təqdim etmək qərarına gəldim

Yaradılışı yoxsan var edən, saysız kainatlar, varlıqlar, enerjilər formalaşdıran Uca Yaradan bir gün bu qərara gəldi ki, gərək digərlərindən xeyli fərqli yeni bir məxluqat növü yaradım, onda digər varlıqlarla olan və olmayan hər cür xüsusiyyətlər mövcud olsun. Ən əsaslı fərq isə İnsana mütləq müstəqilliyin verilməsi kimi nəzərdə tutulurdu.

Böyük Yaradan "Adam" adı verdiyi prototipi yaradıb dərgahda kosmik ictimaiyyət qarşısında prezentasiyasını keçirdi və onun xüsusiyyətlərini sadaladı. Tədbirdə uca Yaradan bütün ali varlıqlar qarşısında rəsmi şəkildə bəyan etdi ki, onu sizdən üstün yaratmışam, mütləq azadlıq vermişəm, bu səbəbdən ona hörmətlə baş əyməniziməsləhət görürəm. Xüsusiyyətlər arasında nəfs, acgözlük, yalançılıq, qəddarlıq kimi mənfi elementlərin də olduğunu görən mələklər bərk qəzəbləndilər və dedilər: Ey Yaradılışın sahibi, hər yerdə fitnə fəsad törədəcək, dünyanı qana bələyəcək bir məxluqmu yaradırsan? Üstəlik, bizi ona təzim etməyə çağırırsan. Bu ədalətlidirmi? Tanrı heyrətlə onlara baxıb dedi: Mən bildiyimi siz bilmirsiniz!

Mələklər bu bəyanatı eşidəndən sonra Yaradana dedilər- Sən bizdən daha yaxşı bilərsən, biz qəbul edirik və hörmət əlaməti olaraq Adam qarşısında ehtiramla baş əydilər. Lakin onlardan biri- İblis sərt etirazda bulundu və dedi ki, bu məxluq məndən üstün ola bilməz, icazə ver, mən bunun nə sifətdə şey olduğunu hamıya sübutalni, dokumantalni dakazat eləyim. Tanrı dedi ki, buyur, mən ona güvənirəm, üstəlik onu səndən güclü yaratmışam, özü könüllü təslim olmasa sən heç nə edə bilməzsən. İblis dedi ki, yaxşı, mən onun məndən üstün olmadığını Sənə göstərərəm.

Adəm və daha sonra onun həyat yoldaşı olaraq yaradılmış Lilit ali dərgahda şad xürrəm yaşamaqda idilər. Daha sonra Tanrı yeni adamlar yaratmışdı və cənnətin daha gözəl bir guşəsini onlara ayırmışdı. Çox keçməmiş İblis qadın cildinə (Həvva) girərək Adəmi yoldan çıxardı və qadağan edilmiş yeganə şeyi etdirirək onu günaha batırdı. Yaradan tərəfindən qadağan olunmuş şey insanın digər məxluqat növü ilə cütləşməsi idi ki, bu da insanda olan nəhs və ehtiras xüsusiyyəti səbəbindən baş verdi. Bu artıq fərqli məxluq növlərinin genetik birləşməsi ilə mələz məxluqun ortaya çıxması demək idi. Bundan qəzəblənən Yaradan ilk prototiplər olan Adəm və Lilit başda olmaqla bütün insanları İblislə birgə Ruhi kainatdan maddi kainata- Yer planetinə sürgün elədi və dedi ki, yalnız ağıllananda qayıdacaqsınız. Adəmin Həvvadan olan övladları (genetik mələz məxluqlar) şərin tərəfində, Lilitdən olan övladları (əsil insanlar) isə xeyirin tərəfində əbədi müharibəyə başladılar. Sonrasını bilirsiniz- biz İblisi haqlı çıxardıq və planetdə satanizm hakim oldu.

Qədim dini-fəlsəfi biliklərə görə, varlıqlar bu dünyaya insan kimi gəlir ki, kamilləşib, müdrikləşib, saflaşıb Adam formasına qayıtsınlar və əbədi kainata- öz evlərinə geri dönsünlər. Bu haqda ən dərin və geniş biliklər Vedantaya aiddir. Vedalarda (induizmin müqəddəs kitabı olan Bhaqavat-Qita, həmçinin, Şrimad Baqavatam, Puranalar, Ramayana və sair) kimi mənbələrdə bu haqda geniş danışılır.

Beləliklə, insanlar tam kamilləşib, saflaşıb maddi enerjinin əsarətindən xilas olduqda əbədi ruhi dərgaha qayıda bilirlər. Vedalara görə, bir həyatda bunu bacarmayanlar təkrar-təkrar bu dünyaya gəlir gedir- necə deyərlər,- Siz öyrənənədək dərs davam edəcək!

Bibliya kanonunda və Quranda məsələ texniki olaraq bir qədər fərqli olsa da, mahiyyət eynidir. Yaradan insanları maddi həzzlərdən, nəfsdən, nifrətdən təmizlənərək əbədi Ruhi dərgaha qayıtmağa çağırır. Görünən odur ki, çox az adam buna nail ola bilir. Amma şans hər zaman var, hər həyatda var.

Uzun minillər boyu və bu gün də bəşəriyyət müxtəlif dinlərə bölünüb bir-birini qırmaq məşğuldur. Halbuki, bütün dinlər eyni mənbədən eyni şeyləri deyir. Sadəcə, müxtəlif sivilizasiyalara görə metodlar, izah üsulları fərqlidir. Lakin şər qüvvələr bütün dinləri saxtalaşdırıb, konteksdən çıxarıb, müqəddəs kitabları səhv izah etməklə insanları çaşdırır, onları əsil həqiqətdən daim aralı saxlamağa çalışır. Bütün müqəddəs kuitablar insanlara ən böyük nemətin elm olduğunu, elmlə yaşayıb dərk etmələrini məsləhət görsə də, saxtakar satanistlər dinlə elmi qarşı-qarşıya qoymağa çalışırlar. Halbuki, bunlar tam olaraq eyni şeydir, sadəcə biri ümumi fəlsəfi-mənəvi biliklər toplusudur, digər Yaradılışın sirlərini öyrənməyə çalışan bir sistemdir. Qurtuluş elmlə dinin vəhdətindədir.

İnsanlara elə bir güc verilib ki, istəsələr bu dünyanı belə cənnətə çevirərlər. Sadəcə, bütün bu şansları yalnız bir quru nəfsə qurban verərək, ilahi mahiyyətimizə qayıda bilmirik. Müvəqqəti olanı əbədi olana dəyişirik.

Bir gün gələcək bəşəriyyət "tarixdən əvvəlki tarixin", yəni mifologiyanın da sirlərini açacaq və bir çox ezoterik elmlərin necə əsaslı olduğunu anlayacaq. Bu isə şeytani qüvvələrə sərf etmir və onların adamlara qarşı elan olunmamış müharibəsi davam edir. Elmi, alimləri öz əllərində cəmləşdirərək yalnız mənfi istiqamətdə tətbiq edən şər qüvvələr, əsil elmin qarşısını alırlar. Buna baxmayaraq, son vaxtlar kvant fizikası, molekulyar biologiya, genetika, astronomiya kimi elm sahələri çox sirləri aça bilib və bunlar müqəddəs kitablarda qeyd olunanlarla üst-üstə düşür. Hətta bir çox mifoloji mətnlərdə qeyd olunanlarla belə.





Doğrudur, indi insanlar elə çaşdırılır ki, dinlə cini, elmlə şeytanı ayırd edə bilməyəcək vəziyyətə gəlib. Çünki həm elmin, həm dinlərin başında İblisin nökərləri dayanır və hələ ki, bütün kainata Adamın ali varlıq olmadığını göstərməyə çalışırlar.

Lakin mən şəxsən Yaradanın son bəyanatındakı "Mən bildiyimi siz bilmirsiniz" frazasına güvənirəm və sonda hər şeyin fərqli olacağına əminəm. Bir gün gələcək insanlar ilkin yaradılış instruksiyasına qayıdaraq Adama çevriləcəklər və ilahi ədaləti bərqərar edəcəklər. Son döyüşə az qalır və əminəm ki, Avestada qeyd olunduğu kimi, Xeyir şər üzərində qalib gələcək. Bütün kitablarda bunun baş verəcəyi aydın qeyd olunub. Yeganə sual olaraq bunun nə vaxt baş verəcəyi qalır...

***Elçin Bayramlı***

***P.S:*** *Yazıda qədim mifoloji və dini mətnlərdə yaradılışın mənbəyi haqda verilmiş məlumatlardan istifadə olunub.*

SON SƏHİFƏ

# SƏS

15 oktyabr
2024-cü il

# Küçələrdə satılan peraşki və qutabların yaratdığı təhlükə NƏDİR?




***“Açıqda, yol kənarında satılan bir çox qidalar bəzən keyfiyyətli məhsullardan istifadə olunmadan hazırlanır". Bu sözləri SİA-ya açıqlamasında Qida Təhlükəsizliyi Hərəkatının rəhbəri, Sağlam qidalanma mütəxəssisi Məhsəti Hüseynova deyib.***



## QİDA MÜTƏXƏSSİSİ DANIŞDI

O bildirib ki, küçədə insan sağlamlığı üçün yararsız olan, eyni zamanda xüsusilə sağlamlığa zərər vuran yağlardan istifadə olunur: ”Daha çox peraşki və onun kimi ponçik, qızartma məhsullardan istifadə etdikdə bu yağ dəfələrlə qızdırılır, bəzən bişirilən qab belə təmizlənmədən növbəti günə saxlanılır. Növbəti gündə də köhnə yağla yeni yağ qarışdırılaraq tərkib pozulur. Bu kimi məhsullar bəzən açıq şəkildə satılır. Bu da təhlükənin bir tərəfidir. Çünki açıqda olan məhsullar küləklə, ətrafda olan çirklənməyə məruz qalır. Bu qidaları qəbul etdikdə insan orqanizmində bir çox fəsadlara yol açır. Həm də həmin məhsulların saxlanma şəraiti də düzgün olmadığından tərkibində bir çox dəyişikliklər baş verir. Bu kimi məhsulları qəbul edən insanlarda həzm sistemində pozulmalar, bir çox xəstəliklərə yoluxma halları yaşanır. Bu qidalar bir çox hallarda qida təhlükəsizliyinin tələblərinə cavab vermir. Burada qidanın hazırlanması üçün seçilən xammallarda daha çox qiymət aşağı olduğu üçün daha keyfiyyətsiz və daha ucuz xammaldan istifadə olunur. Xüsusilə də, həmin məhsulları qəbul edən insanlar bəzən dərhal zəhərlənmə, yaxud digər hallar baş verirsə, bu, həzm sistemində pozulma, maddələr mübadiləsinin pozulması, bağırsağın mikroflorasının pozulması ilə də nəticələnir. Ona görə belə məhsullardan almaq tövsiyə olunmur. Əgər peraşki, bu kimi məhsul alınacaqsa, mütləq satılan yerin sanitar-gigiyenik normalara uyğun olmasına baxmaq lazımdır. Məhsulla istehlakçı arasında şəffaf vitrin olmalıdır. Alıcı həmin məhsulları görsün, lakin toxuna bilməsin”.

”Mütləq satıcının xüsusi geyimi, əlində əlcək olmalıdır. Pulu qəbul edən satıcı əlcəksiz əllə qəbul edirsə, sonra əlcəksiz şəkildə məhsulu təqdim edirsə, bu da təhlükəlidir. Satış yeri də təmizliyə uyğun olmalıdır. Məhsulların təzəliyini göstərən etiketlərin vitrində gündəlik dəyişdirilə bilən şəkildə vurulması lazımdır. Bu şəkildə olduğu halda həmin məhsuldan almaq olar. Ancaq bəzən olur ki, küçədə açıq şəkildə satılan peraşkilər souslarla təqdim olunur. Bəzən bir neçə şəxsin həmin peraşkiləri yeyib o sousa batırması insanlardan bir-birinə yoluxma halları yaradır. Bir çox virus mənşəli xəstəliklər tüpürcək, hava damcı yolu ilə keçə bilər. Yaxşı olar ki, bu kimi məhsulları hazırlayarkən təmizlik qaydalarına riayət olunsun, istifadə olunan yağlar haqqında məlumat dəqiq şəkildə göstərilsin. Qızardılacaq qablar təmizlənməlidir. Bu məhsulların bişirilməsi və qida məhsullarının satışını həyata keçirən müəssisələr mütəmadi olaraq aidiyyəti orqanlar tərəfindən yoxlanılmalıdır. Çünki əksər hallarda kütləvi zəhərlənmə baş verdikdən sonra müəyyən yoxlamalar aparılır. Vaxtı-vaxtında tədbirlərin görülməsi daha təqdirəlayiqdir.

Xüsusilə də, bəzən bu kimi yerlər məktəblərə yaxın yerlərdə olur ki, bu da təhlükənin digər tərəfidir, çünki məktəbli uşaqlar inkişaf dövründə olduğu üçün daha çox keyfiyyətli qida məhsullarından istifadə etməsi lazımdır. Uşaqlar, yaşlı insanlar və xroniki xəstəliyi olan insanlar hər zaman risk qrupunda olduqları üçün mənşəyi bəlli olmayan məhsulları alması tövsiyə olunmur” - deyə o, əlavə edib.

***Söylü Ağazada***


# “SƏS” qəzetinə abunə kampaniyası davam edir!



*«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR*

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressainform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Qasid Mətbuat Yayım – 0124931406, 0124938343
7. F.Ş.Ruhid Hüseynov – 0124349301, 0505357898
8. Ziya LTD – 0124977696, 0503067744

1 nüsxə 1 aylığı 13.20 AZN
6 aylıq 79.20 AZN
1 illik 158.40 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!


# Qvardiola bu futbolçunu istəyir - 150 milyon təklif edirlər

***“Çelsi”nin ulduz yarımmüdafiəçisi Koul Palmer London klubunu tərk edə bilər. “Fichajesin” məlumatına görə, “Mançester Siti” öz yetirməsinin qaytarılmasını düşünür.***

“Vətəndaşlar” yayda Səudiyyə Ərəbistanı klubuna keçə biləcək Kevin De Bruyne üçün fəal şəkildə əvəzedici axtarır. “Çelsi” liderini ucuz buraxmaq istəmir, “Mançester Siti” isə 150 milyon avro təklif etməyə hazırdır.




Palmer “Mançester Siti”nin yetirməsidir. 2023-cü ildə “Siti” Palmeri 47 milyon avroya “Çelsi”yə satıb.

# Biləcəridə ”KamAZ”ın vurduğu piyada xəstəxanada öldü...



Bakıda yük avtomobilinin vurduğu piyada 27 gün sonra ölüb. Hadisə sentyabrın 16-da Binəqədi rayonunun Biləcəri qəsəbəsində qeydə alınıb.

Belə ki, Ramin Abdullayev idarə etdiyi ”KamAZ” markalı yük avtomobili yolu keçən Kəmalə Rəhmanovanı vurub. Piyada müxtəlif dərəcəli bədən xəsarətləri ilə xəstəxanaya yerləşdirilib. Həkimlərin səyinə baxmayaraq, K.Rəhmanova ötən gün müalicə aldığı xəstəxanada ölüb. Faktla bağlı cinayət işi başlanılıb.


*Baş redaktor:*
Bəhruz Quliyev

Ünvanımız:
Bakı şəhəri,
Üzeyir Hacıbəyli küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
“ƏLİNCƏ” AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
Tel: 598-33-90
Faks: 493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur

Tiraj: 2700